www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  21 iyul 2014-cü il Bazar ertəsi  № 184 (5893)   Qiyməti 40 qəpik

**Xəbər**

## Ata 14 yaşlı oğluna 50 bıçaq zərbəsi vurdu

yazısı səh.2-də

**Gündəm**

### Düşmən arxasına keçən cəsur soydaşlarımızın işində şok gəlişmə



Girovlarımıza işgəncələr verildiyi təsdiqlənir; "Qırmızı Xaç"ın onları hələ də yoluxa bilməməsinin səbəbləri üzə çıxır...

yazısı səh.4-də

### Müharibə xofu Ermənistanı daha sürətlə boşaldır

yazısı səh.11-də

### Təhlükəli çimərliklərdəki obyektlər bağlanacaq

yazısı səh.12-də

### II və III qrup üzrə qəbul imtahanı keçirildi

yazısı səh.3-də

### Məşhur həkimin qətlinin cinayət dosyesi "Yeni Müsavat"da - film kimi hekayət - II hissə

yazısı səh.10-da

### Masallıda polisi bıçaqla qovlayan şəxs yaxalandı

yazısı səh.14-də

### Vidadi İsgəndərli Məmmədovların cəzalandırılmasını tələb edir

yazısı səh.12-də

### Oliqarxlarla "işləyən" şair...

yazısı səh.15-də

### "Neftçi"nin uduzdurulmasının təfərrüatları...

yazısı səh.14-də

**Ramazan ayının 23-cü günü**

İftar 21.22, İmsaq (azan) 5.02 (QMİ-nin cədvəli)

23-cü gününün duası: "İlahi, bu gün mənim günahlarımı təmizləyib, çirkin və eyibli işlərdən pak et! Qəlbimi belə bir gündə qəlblərə aid olan təqva ilə imtahan et! Ey günahkarların tövbəsini Qəbul Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# Tikinti mafiyasının böyük Bakı hesablaşması

# "CİNAYƏTKAR" ŞİRKƏTİN ARXASINDAN CAHANGİR HACIYEV ÇIXDI

Beynəlxalq Bankın şefinin "Sovetski" sakinlərinə bazar qiymətindən 2 dəfə ucuz mənzil təklif etməsi tikinti maqnatlarını qəzəbləndirib və ona qarşı sanksiyaların işə düşməsinə səbəb olub; "Des Consulting" şirkətinə qarşı cinayət işinin açılmasının yeni təfərrüatları "Yeni Müsavat"da...



Cahangir Hacıyev

yazısı səh.4-də

## İraq türkmənlərinin dəhşət dolu hekayəsi - bir türkmən anladır

"Ərdoğan və Gül türkmənləri müsəlman hesab etmir"; ayətullah Sistani türkmənlərə İŞİD-lə meyit və girov alverini qadağan etdi; türkmən qətliamı davam edir...

yazısı səh.6-da



*Qubad İbadoğlu:*

### "Hakimiyyətdən vəzifə təklifi almışam"

yazısı səh.5-də



*Ərəstun Oruclu:*

### "Ukrayna siyasəti Moskvaya çox baha başa gələcək"

yazısı səh.7-də



### Azərbaycan müdafiə nazirini aldadıblar

yazısı səh.3-də

## Təbrik



**Müsavat Partiyasının Başqanı İsa Qəmbər Hikmət Kazımlını 55 illik yubileyi münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Hikmət bəy! Sizi 55 illik yubileyiniz münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. Yarandığı ilk gündən Azərbaycan Xalq Cəbhəsinin üzvü kimi ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu işinə böyük töhfələr vermisiniz. Apardığınız bu şərəfli işi 2004-cü ildən Müsavat Partiyasının sıralarında davam etdirmisiniz. Prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da, heç zaman öz əqidənizdən dönməmisiniz. Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və sizi tanıyan insanlar sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Hikmət bəy! Bir daha sizi 55 illik yubileyiniz münasibəti ilə təbrik edir, sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

## Ata 14 yaşlı oğluna 50 bıçaq zərbəsi vurdu

**Bakının Qobu qəsəbəsində ata oğluna 50 bıçaq zərbəsi vuraraq öldürüb. Hadisə srağagün axşam saat 20 radələrində baş verib. axar.az xəbər verir ki, oğul qatili Abşeron rayonu Qobu qəsəbəsi Məmmədyarov küçəsi-64-də yaşayan Eldəniz Kamal oğlu Məmmədovdur. Eldəniz Məmmədov əvvəllər məhkumluq həyatı yaşayıb. Srağagün axşam isə evə sərxoş gələrək evdə də içməyə başlayıb. Bu zaman oğlu İbrahim atası ilə mübahisə edib. Mübahisə zəminində Eldəniz Məmmədov 14 yaşlı oğlu İbrahimi 50 bıçaq zərbəsi ilə qətlə yetirib.**

Xüsusi amansızlıqla oğlunu öldürən 1974-cü il təvəllüdlü Eldəniz Məmmədov həbs edilib və barəsində Abşeron Prokurorluğunda CM-nin 122.4-cü maddəsi ilə cinayət işi açılıb.


### "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

*«QAYA MƏTBUAT YAYIMI» MMC!*
*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*
*«Yeni Musavat » qəzetinə–0,40 man*
*və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.*

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# Dilqəm Əsgərov "vuruşmağa hazıram" demişdi

## Kəlbəcərin keçmiş icra başçısı: "Qanımız torpağa qarışmasa, Qarabağın işğalı bitən deyil..."



İlham Həsən

**Kəlbəcərin Şaplar kəndindən olan 54 yaşlı Dilqəm Əhmədovun erməni silahlı qüvvələrinin işğalı altında olan Kəlbəcər rayonu ərazisində girov götürülməsi Azərbaycan və Ermənistanda ictimaiyyətin diqqət mərkəzindədir. Olaya AXCP iqtidarı dönəmində Kəlbəcərin icra başçısı olmuş, həm də döyüşən birliklərə rəhbərlik etmiş İlham Həsənin münasibətin öyrəndik.**

Hazırda Almaniyada mühacir qismində yaşayan İlham bəy dedi: "Dilqəm bəy ötən əsrin sonlarında Kəlbəcərə gedəndə mənə xəbər göndərmişdi. Ona kimsə deyibmiş ki, İlham Həsən Kəlbəcəri azad etmək üçün ordu toplayır. O, da xahiş etmişdi ki, Kəlbəcəri azad edəcək ordunun tərkibində sıravi döyüşçü kimi vuruşmağa hazıram. Məni də bəri başdan ordu sırasına yazın. Amma Kəlbəcərin işğalı ərəfəsində o, könüllü batalyonda olmayıb. Bildiyim qədər, o vaxtlar o, Rusiyada yaşayırdı... Şübhəsiz ki, o, dəfələrlə Kəlbəcərdə olub. Erməni nəzarətində olan əraziyə daxil olmaq və orada uzun müddət qalmaq hər kişinin işi deyil. Buna ürək lazımdır. Dilqəm bəydə belə bir ürək var ki, ölümü gözünün altına alıb öz dədə-baba torpağına üz tutub, anasının məzarın ziyarət edib. Mən əminəm ki, Azərbaycan Ordusu Qarabağda hərbi əməliyyatlara başlayanda Dilqəm bəy kimi oğullarımız önündə olacaq. Kəlbəcərdə döyüşmüş silah dostlarımla indi də əlaqələrim var. Hamısı o mübarək günü gözləyir ki, Qarabağda separatistlərə qarşı irimiqyaslı hərbi əməliyyatlar başlasın, biz də gedib vətən qarşısında son borcumuzdan çıxaq. Qanımız doğulub boya başa çatdığımız o torpaqlara qarışmasa, Qarabağın işğalı bitən deyil. Sülh danışıqlarına elə bir etirazım yoxdur. Amma əminəm ki, Qarabağı yalnız silah gücünə qaytarmaq olar..."

❑ **Elbəyi HƏSƏNLİ**

## Deputat İran rejiminə qarşı çıxdı



**İran rejiminin Urmu gölünü qorumaq istəyən fəallara pantürkist damğası vurmasını millət vəkili Pezeşkian etirf edib. Təbrizdən İran parlamentinə millət vəkili seçilən Pezeşkian televiziya proqramında Urmu gölü ilə bağlı aparıcının sualına cavab olaraq deyib: "Məsələni siyasiləşdirdilər, bir qrup şəxs gölün kənarına gedib simvolik şəkildə gölə su tökdü, lakin onları tutdular".**

GünAz TV-nin xəbərinə görə, Pezeşkian daha sonra "təəssüflə biz çox işləri siyasiləşdiririk, deyəndə ki, Urmiyə gölünü qurtarmağa çalışmaq lazımdır, bunun nə demək olduğunu başa düşmək lazımdır" deyib. Onun sözlərinə görə, halbuki bir qrupa pantürkist damğası vurub tuturlar və deyirlər ki, bunlar əhalini təhrik edir.

Qeyd edək ki, Urmu gölünə diqqət yönəltmək istəyən yüzlərlə azərbaycanlı fəal son illərdə rejim tərəfindən həbs və işgəncələrə məruz qalıb.

❑ **Cavid TURAN**

## Səmədin hikməti, yoxsa Hikmətin vurğunu?

### Mehriban Vəzir: "Ağızları yummaq lazım deyil..."



**Son günlərdə sovet şair və yazıçılarının yaradıcılığı mediada yenidən təftiş edilir ki, bu sırada Səməd Vurğun da var. Əvvəlcə ADP sədri Sərdar Cəlaloğlunun onun barəsində işlətdiyi "dılğır" ifadəsi narazılıq yaratmışdı. Ötən həftəsonu isə tanınmış politoloq Hikmət Hacızadə onun haqqında danışarkən "səviyyəsiz bir şairdir" ifadəsini işlədib.**

Hər iki tanınmış siyasətçinin ifadələri cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb. Doğrudur, tanınmış politoloqun fikrini müdafiə edənlər var. Amma bu cür sərt mövqeyi tənqid edənlər daha çoxdur. Yazıçı-publisist Mehriban Vəzir hesab edir ki, sovet şairlərinə qarşı göstərilən bu cür münasibət normal haldır: "Görkəmli adamların həyatı daimidir. Onlar hər zaman bizimlədir. Nə qədər ki, bizimlədirlər, onlar barəsində hər dönəmdə müxtəlif fikirlər səslənir. Bunlarda onların diriliyinin əlamətidir. Əgər kimsə deyirsə, Səməd Vurğun səviyyəsiz şairdir, bu normaldır. Bu mövqeyə görə "Səməd Vurğuna hücumlar var" demək, düzgün deyil. Mən Səməd Vurğunu səviyyəli şair hesab edirəm. Amma Hikmət Hacızadə öz düşüncəsində səviyyəsiz hesab edə bilər. Bütün bunlar onların mövcudluğunun sübutudur. Sadəcə, biz büt yaratmağı sevirik. Sovet dövrünün böyük saydığımız ədibləri yenidən öyrənilməlidir. Bu adamların yaşadığı zamanı, qarşılaşdıqları təhlükələri nəzərə almaq lazımdır. Hər bir insanın zəif və güclü cəhətləri var. Həmçinin, Səməd Vurğunun da. Onun zəif və güclü şeirləri var. Düşünürəm ki, ağızları yummaq lazım deyil. Əgər Hikmət Hacızadə bu mövqedədirsə, demək onun üçün şairin yazdıqları səviyyəsizdir. Ona bu mövqeyinə görə hücum etmək, yaxud təriflədiyim üçün mənə qarşı hücumlar olmamalıdır. "Sovet dövründə yaşayıb və bizim üçün toxunulmazdır" demək mümkün deyil. Bəşərin ən yüksək nümayəndələri bu günə qədər təhlil və tənqid olunursa, ədiblərimizin ruhu bizə minnətdar olmalıdır ki, ən azından onların əsərlərini oxuyub, yenidən qiymət veririk".

Yazıçı Rasim Qaraca politoloqun Səməd Vurğun haqda dediklərini oxuduğunu bildirdi: "Hikmət bəyin müsahibəsini oxudum. Səməd Vurğun haqqında sadəcə bir cümlə işlədib. Səməd Vurğun toxunulmaz deyil. Tənqidi fikirlər səsləndirmək lazımdır. Onu nə həddindən artıq şişirtmək, nə də alçaltmaq lazımdır. Onunda ədəbiyyat tariximizdə müəyyən yeri var. Azərbaycan dilinin saflaşdırılması istiqamətində gördüyü müsbət işlər danılmazdır. Yaradıcılığı saflaşdırma işlərinin tərkib hissəsidir. Amma Səməd Vurğun poeziyası bu gün aktual deyil. Artıq köhnəlmiş poeziyadır. Ümumiyyətlə, keçmiş dövrdə yaşamış insanlar haqqında danışanda ehtiyatlı olmaq lazımdır. Təhqiramiz ifadələr yox, ədəbiyyatşünaslıq baxımından yaradıcılığın mənfi və müsbət tərəfləri təhlil olunmalıdır".

❑ **Cavanşir ABBASLI**



## Qərb Bakı üçün Moskvaya qarşı proqram hazırlayır

**"Biz yaxın illərdə Rusiyanın yenidən parçalanacağının şahidi olacağıq". Bu sözləri axar.az-a açıqlamasında NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov söyləyib. O, Qərb üçün Cənubi Qafqazın qorunmasının prioritet məsələ olduğunu deyib:**

"Bu cür qərar istər Amerika, istərsə də NATO tərəfindən gözlənilən idi. Cənubi Qafqaz ölkəsi olan Azərbaycan Qərb və NATO üçün çox önəmlidir. Regionda sabitlik və sabitlik demokratiyanın inkişafına gətirib çıxaracaq. Bu sabitlik isə təhlükəsizlikdən keçir. Ümumilikdə Cənubi Qafqazın təhlükəsizliyinin qorunması artıq prioritet məsələ halına gəlib. Amerika üçün müttəfiqlər və onların inkişafı önəmlidir. Hazırda bu məsələdən də əlavə Qərb yeni bir proje üzərində işləyir. Bu projeni tezliklə bəyan edəcək. Bu, ümumilikdə Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinə şamil ediləcək. Bu projedən sonra ümumilikdə bütün proseslər sürətlənəcək ki, sonda bəzi, hətta hegemon dövlətlərin dağılmasının şahidi olacağıq".

F.Məmmədov Rusiyanın çoxdan qırmızı xətti keçdiyini bildirib: "GUAM ölkələri də Qərb üçün önəmlidir. Burada əsas məsələ xalqların seçimidir. Gərək hər kəs bu seçimə hörmətlə yanaşsın. Rusiya bu hörməti tanımır, çünki Rusiya daxilində şovinizm baş alıb gedir və sonda bu şovinizmin nəticəsi ağır fəsadlara gətirib çıxaracaq. SSRİ bu cür daxili siyasət nəticəsində dağıldı. Amma Rusiyanın SSRİ-dən daha bərbad vəziyyətə düşəcəyini görəcəyik. Qərb və Avropa son ana qədər Rusiyaya müttəfiqlik təklif etdilər. Ukrayna böhranının müsbət həllinə dəvət etdilər. Lakin Malayziya təyyarəsinin vurulması bu proseslərin ayrılma nöqtəsi oldu. Əgər təyyarənin vurulduğu sübuta yetirilərsə, onda Rusiya tərəfi bunu çox ağır şəkildə ödəyəcək. Rusiya artıq qırmızı xətti keçdi. Biz yaxın illərdə Rusiyanın yenidən parçalanacağının şahidi olacağıq".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# II və III qrup üzrə qəbul imtahanı keçirildi

## Abituriyentlərin bəziləri sualların çətin, bəziləri asan olduğunu deyir

**İyulun 20-də II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. Qəbul imtahanlarının gedişinin izləmək üçün 53 saylı orta məktəbə yollandıq.**
**Saat 09:00-dan abituriyentlər artıq imtahan keçirilən binaya daxil olmağa başladılar. Valideynlər isə həyəcanla övladlarının yaxşı xəbərlərlə çıxmasını gözləyirdilər.**



Kimisi əlində dini kitablar tutub dualar oxuyur, kimisi isə yaxınlıqdakı çayxanada oturub imtahanın vaxtının bitməsini gözləyirdi. Məktəbin qapısına söykənib dayanmadan dualar edən valideynə yaxınlaşıb bir az söhbət edirik. Afaq Əliyeva qızını imtahana gətirdiyini dedi: "Şirvandan gəlmişik. Qızım üçün dualar edirəm. Allah ona zehin açıqlığı versin. İnanıram ki, ali məktəbə qəbul olacaq. Allah heç bir valideynin əziyyətini itirməsin. Çox əziyyət çəkmişik".

İmtahanın başlanmasından iki saat keçmişdi ki, ilk abituriyent imtahan binasından çıxdı. Çıxan ilk abituriyent olduğu üçün bayırda gözləyən valideynlərin əksəriyyəti onun qarşısına gedərək imtahanın necə keçdiyini xəbər alırdılar. Elə biz də bu abituriyentə yaxınlaşıb sualların çətin olub-olmadığını soruşduq. Adının Rəşad Məmmədov olduğunu deyən abituriyent sualların asan olduğunu dedi: "3-cü qrup üzrə imtahan verdim. Suallar elə də çətin deyildi. Bildiklərimi yazdım. İnşallah qəbul olaram".

Söhbətin bu yerində Rəşadın anası təlaşlı bir şəkildə "niyə tez çıxdın, oğlum" deyə, söhbətə müdaxilə etdi. Rəşad isə özündən əmin olduğunu və qəbul olacağına inandığını dedi. Binanı ikinci tərk edən isə Asiman Quliyeva adlı abituriyent idi. Asiman təxmini 450 bal yığdığını deyirdi: "Suallar asan idi. Qəbul olacağam. Özümün təxmini hesablamama görə 450-yə yaxın bal yığacam".

Saat 14:00-da imtahan yekunlaşdı. Bütün abituriyentlər imtahan binasından çıxdılar. Abituriyentlərin kimisinin üzündə təlaş, yorğunluq, kimində isə əminlik vardı. Valideynlər isə xoş xəbər ümidi ilə övladlarına tərəf qaçırdılar və əksəriyyətinin də üzü gülürdü. Üzlərində sevinc ifadəsi olan ata ilə oğula yaxınlaşdıq. Elşən adlı abituriyent qəbul olacağına əmin olduğunu dedi: "Demək olar ki, bütün fənlərdən 20 suala cavab yazmışam. Əminəm ki, düzdür. Sınaqlarda 500 baldan aşağı yığmamışam. Burada da belə olacağına inanıram".

Elşənin söhbətə qoşulan atası İmran Mustafayev oğluna inandığını dedi: "Oğlum məktəbdə də əlaçı idi. Hazırlıqlara da gedib. Onun ali məktəbə qəbul olacağına ianamıram".

Üzündə məyusluq ifadəsi ilə imtahandan çıxan daha bir abituriyentə yaxınlaşdıq. Adının Zeynəb Rzayeva olduğunu deyən abituriyent yaxşı yazmadığını dedi: "Suallar nə çətin deyildi, nə də asan. Çox həyəcan keçirdim. Buna görə də bildiklərimin də çoxunu unutmuşdum. İnşallah yazdıqlarım düz olar. Cavab kartına köçürtmədə də altı cavabda sürüşdürmə etdim. Bunu sonradan bildim. Nəticənin necə olacağını bilmirəm. Ümid edirəm ki keçid balı yığaram".



Xatırladaq ki, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 52 binada keçirilib. İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlayıb və 3 saat davam edib. İmtahanların idarə olunmasına 238 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrindən 2589 nəzarətçi-müəllim cəlb edilib. İmtahan verən abituriyentlərdən 158 nəfəri xarici ölkə vətəndaşıdır. Ümumilikdə imtahan verən ən yaşlı abituriyent 1990-cı ildən, ən gənci isə 1997-ci ildəndir. Bu il əlil abituriyentlər üçün də yenilik edilib. Belə ki, bu abituriyentlər 1 saylı ASAN Xidmətindəki auditoriyalar da imtahan veriblər. Onu da əlavə edək ki, imtahanda istifadə olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında və facebook səhifəsində yerləşdiriləcək. İmtahan vermiş abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri TQDK-nın internet saytında olacaq. Abituriyentlər imtahan nəticələri barədə məlumatı həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər. İxtisas seçimi gəlincə isə bütün qruplar üzrə müsabiqədə iştirak hüququ qazanan abituriyentlər (həm əvvəlki, həm də cari ilin məzunları) internet vasitəsilə iyulun 24-dən avqustun 5-dək ixtisas seçə biləcəklər. Tam orta təhsil bazasında (11 illik) orta ixtisas təhsili müəssisələrinə daxil olmaq istəyən və müsabiqə şərtlərini ödəyən abituriyentlər ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra avqustun 8-dən 13-dək elektron ərizələrinə daxil olub, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını seçə biləcəklər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Azərbaycan müdafiə nazirini aldadıblar

## Zakir Həsənovun açılışını etdiyi yaşayış binaları boşdur

**İyun ayının 23-də müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbçilər üçün tikilmiş iki doqquzmərtəbəli binanın açılışında iştirak edib və bir qrup hərbçiyə verilən mənzillərin açarını təqdim edib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətinin həmin vaxt verdiyi məlumata görə 1 bloklu 40 mənzilli və 2 bloklu 70 mənzilli binalarda nazirliyin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları xidməti mənzillərlə təmin olunublar. Həmçinin o da deyilirdi ki, yaşayış binalarına su, elektrik xətti çəkilib, lift və mərkəzləşdirilmiş istilik sistemi quraşdırılıb, mənzillər mətbəx və digər avadanlıqlarla, mebellerlə təmin olunub.

Bu günlərdə mənzil alan hərbçilərdən biri redaksiyamızla əlaqə yaradaraq mənzillərin verilməsinin və şəraitin heç də xəbərlərdə göstərildiyi kimi olmadığını deyib. Adının anonim qalmasını xahiş edən zabitin sözlərinə görə, nazirin təqdim etdiyi və gəzdiyi mənzil sırf göstəriş üçün hazırlanıb, digər mənzillərdə həmin şərait olmayıb, mənzillərin heç birinə mətbəx avadanlıqları və mebellər qoyulmayıb.

"Binalar ictimaiyyətə təqdim olunduğu kimi yaşayış üçün hazır deyil, hətta evlərin çoxunda işıq, su, elektrik enerjisi yoxdur. Açılış olanda hardansa elektrik çəkdilər, sonra elektrik yoxa çıxdı. Hərbçilər orada yaşamaq üçün məcbur olub yarımçıq qalmış təmiri özləri başa çatdırırlar. Evlərə mebel qoymaq istəmirlər. Ən əsası, bilinmir ki, mənzillər nə zaman yaşayış üçün hazır olacaq."

Zabit onu da dedi ki, mənzil bölgüsü də düzgün aparılmayıb, illərdir orduda xidmət edən, zəhməti olan amma kirayələrdə yaşayan hərbçilərin xeylisi kənarda qalıb, bir neçə il müddətdən artıq hərbi xidmət etmiş şəxslərə evlər verilib.

"Elə zabitlər var ki, ailəlidir, kirayələrdə yaşayır, amma ona ev verilməyib. Biz belə olacağını düşünmürdük, orduda canını qoymuş adamlara qarşı bu rəftar ədalətsizlikdir."

Hərbçinin müraciətindən sonra Səbail rayonunda yerləşən həmin binalara biz də baxmaq qərarına gəldik. Binaların içinə girə bilməsək də, nəinki yaxından, hətta xeyli uzaqdan onların hazır olmadığını və çox az sayda insanın yaşadığını anlamaq olardı. Keçən ay istifadə verilən həmin iki doqquzmərtəbənin isə müxtəlif bloklarında yalnız birinci və ikinci mərtəbələrdəki bir neçə evin pəncərələrinə pərdə vurulmuşdu, qalanları tamamilə boş idi. Binaların həyətində isə kimsə gözə dəymirdi.

Yaxınlıqda yaşayan sakinlərdən birinin dediyinə görə bu binaları açılış başlayandan bu yana elə boş görüblər. Şahin adlı bir gənc deyir ki, hərdən darvazadan hərbi geyimli şəxslərin oturduğu maşınlar çıxır: "Bilirik ki, burada hərbçilər yaşayır, amma deyəsən onları ya köçürtməyiblər, ya da köçürdəcəklər. Ola bilsin evləri tam tikib qurtarmayıblar"-deyə o boş evləri göstərdi.

Belə görünür ki, "açılışı" baş tutmuş bu binalara hərbçilərin köçməsinə hələ xeyli var. Hər halda bir ay keçməsinə baxmayaraq hər iki binada barmaqla sayılacaq qədər az mənzildə yaşayışın olması belə düşünməyə əsas verir.

❑ **ARAZ**

# Rauf Mirqədirov Baş Prokurorluğun məlumatına sərt cavab verdi

## Həbsdəki jurnalist bu qurumu Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıqda ittiham etdi

**"Ayna-Zerkalo" qəzetinin həbsdə olan əməkdaşı Rauf Mirqədirov Baş Prokurorluq və Milli Təhlükəsizlik Nazirliyinin(MTN) barəsində yaydığı açıqlama ilə bağlı bəyanat verib. Bəyanatda hər iki qurumun açıqlamasının reallıqdan uzaq olduğu bildirilir.**

Jurnalist iddia edir ki, Baş Prokurorluğun Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlığı var: "Azərbaycan Respublikasının Baş Prokurorluğunun bəyanatını nəzərdən keçirdikdən sonra belə təəssürat yaranır ki, Baş Prokurorluğun ictimai-siyasi xadimlərin və müstəqil jurnalistlərin diskreditasiyası sahəsində Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlığa dair müəyyən bir razılaşması mövcuddur. Prokurorluğun bəyanatından belə bir nəticə də çıxarmaq olar ki, tərəflər bu istiqamətdə hətta birgə əməliyyatlar belə keçirirlər. Çünki yaxın tarixə nəzər saldıqda məlum olur ki, Azərbaycan Respublikası Baş Prokurorluğu buna oxşar qondarma cinayət işlərində saxta sübutların əldə edilməsi məqsədilə Ermənistanın xüsusi xidmət orqanlarında çalışan "Samvel" kimi tiplərdən "məlumatların" əldə edilməsi təcrübəsindən birinci dəfə deyil ki istifadə edir. Mən belə bir sövdələşmənin olduğuna inanmaq istəmirəm və inanmıram. Lakin istintaqın gedişi məni bir daha əmin edir ki, mənə qarşı törədilən bu fitnəkarlıq Ermənistan və strateji müttəfiqi olan dövlətin xüsusi xidmət orqanlarının Azərbaycana qarşı apardıqları geniş miqyaslı təxribatın kiçik bir tərkib hissəsidir. Təəssüflər olsun ki, Azərbaycandakı nüfuzlu qruplar bu və ya digər səbəblərdən bu geniş təxribatın icraçılarına çevriliblər".



Rauf Mirqədirov

Qeyd edək ki, Baş Prokurorluğun və MTN-nin iyulun 16-da yaydığı açıqlamada Rauf Mirqədirovun ermənilərlə işbirliyinin olduğu göstərilib. Bunun üçün dəfələrlə, jurnalistin Ermənistana səfər etdiyi bildirilib.

Xatırladaq ki, R. Mirqədirov bu il aprelin 19-da Türkiyədən deportasiya edilərək həbs olunub. Ona qarşı 274-cü maddə ilə (dövlətə xəyanət) cinayət işi açılaraq, barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. Bu ayın 15-də isə həbs müddəti 4 ay uzadılıb. "Ayna-Zerkola"nın əməkdaşına haqqında irəli sürülmüş maddə üzrə ömürlük, yaxud 15 ilə qədər həbs cəzası verilə bilər.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

**Düşmən arxasına keçən cəsur soydaşlarımızın işində şok gəlişmə**




# Girovlarımıza işgəncələr verildiyi təsdiqlənir

## “Qırmızı Xaç” nümayəndələrinin onları hələ də yoluxa bilməməsinin səbəbi aydınlaşır; məsələdə Ramil Səfərova görə qisas və digər motivlər də var; Ermənistanın birinci ombudsmanı: “Bakı insidentdən Dağlıq Qarabağın legitim olmadığını dünyaya nümayiş etdirmək üçün istifadə edir…”

**Azərbaycanın işğal altındakı Kəlbəcər rayonundan olan Dilqəm Əhmədov və Şahbaz Quliyevin erməni işğalçıları tərəfindən girov götürülməsi iki ölkənin gündəmində əsas mövzulardan biri olaraq qalır.**

Azərbaycanda hadisənin motivi kifayət qədər aydın olsa da, ermənilər hər vəchlə olayı şişirtmək, öz ölkəsində BMT tərəfindən tanınmış sərhədlər daxilində sadəcə, yerdəyişmə eləmiş azərbaycanlı mülki vətəndaşlardan “hərbi cinayətkar” və “qatil” obrazı yaradıb öz qanunsuz hərəkətlərinə sivil bəşəriyyətin gözündə bəraət qazanmağa çalışırlar.

Bundan ötrü ənənəvi erməni yalanı və həyasızlığı bütün gücü ilə işə salınıb. Guya Dilqəm Əhmədov, Şahbaz Quliyev və öldürüldüyü deyilən Həsən Həsənov silah arsenalı gəzdirirmişlər və onlar bir erməni zabitini və 17 yaşlı erməni yeniyetməni qətlə yetiriblər. Bütün bunların hamısı uydurulan ssenarini gerçək qismində təqdim etməyə hesablanıb, təbii ki.

Gələn məlumatlara görə, düşmən arxasına keçərək erməni toplumunda əməlli-başlı xof yaratmağa nail olmuş cəsur soydaşlarımızla amansız şəkildə davranılmasının, onların ən qatı cinayətkar kimi təqdim edilməsinin aparıcı motivi budur: erməni tərəfi haqlı olaraq bir gün qisas gününün yetişəcəyindən təlaşa düşən cəmiyyəti sakitləşdirmək, işğalçı rejimin müdafiə qabiliyyətinin guya yerində olduğunu göstərmək, təhlükəli insidentin təkrarlanmasını əngəlləmək və başqa azərbaycanlılarda xof yaratmaq üçün klassik yola - vəhşiliyə əl atıb. Odur ki, az qala Xocalı soyqırımına görə məsuliyyəti də onların boynuna qoymaq istəyirlər.

Başqa sözlə desək, bu, bizim tanıdığımız ermənilərdisə, günahsız insanlar üzərində güclü “obrabotka” gedir. Bakının israrlı tələblərinə baxmayaraq neçə gündür Beynəlxalq Qırmızı Xaç Komitəsinin İrəvan ofisi nümayəndələrinin soydaşlarımızı yoluxa bilməməsinin baş səbəbi elə bu ola bilər - girovlar göstəriləsi vəziyyətdə deyil. Yeri gəlmişkən, az öncə Şahbaz Quliyevin gözünün çıxarılması haqda informasiyalar yayılmışdı. Təəssüflər olsun ki, Qırmızı Xaç bunu dəqiqləşdirmək imkanında deyil.

Beynəlxalq humanitar qurumun təmsilçilərinin girovların yanına buraxılmamasının ayrı motivləri də istisna deyil. Məsələn, Ramil Səfərovun qisasını almaq kimi. Bunu Ermənistanın birinci ombudsmanı Larisa Alaverdyanın erməni KİV-nə müsahibəsindən sezmək olur. Olayla bağlı erməni tərəfinin beynəlxalq hüquq baxımından qəliz duruma düşdüyünü etiraf edən “insan haqları müvəkkili” nədənsə iki olayın mahiyyətini eyniləşdirməyə çalışır. Lakin hər vəchlə girovları terrorçu-diversant kimi təqdim etməyə çalışsa da, bunu Kəlbəcərin (onlar “Karvaçar” deyirlər) guya qondarma “DQR”in tərkibinə daxil olması ilə əsaslandırmağa cəhd eləsə də, əlahəzrət faktdan qaça bilmir. Bu da ondan ibarətdir ki, Kəlbəcər dünyanın ərazi bütövlüyünü tanıdığı Azərbaycanın ayrılmaz tərkib hissəsidir və o, ləğv edilmiş DQMV-nin tərkibində heç vaxt olmayıb.

Odur ki, erməni ombudsman “insidentlə bağlı hüquqi baxımdan qəliz durumun yarandığını” bildirir və əlavə edir ki, “Bakı hadisədən ilk növbədə Dağlıq Qarabağın legitim olmadığını dünyaya nümayiş etdirmək üçün faydalanmağa çalışır”. Düşmənin girovlara qarşı xüsusi amansızlıqla davranmasının bir motivi də zatən bununla bağlıdır.

Olayla bağlı xeyrimizə olan nüanslar əfsuslar olsun ki, beləcə, hələlik soydaşlarımızın ziyanınadır və onlara qarşı ən sərt davranışa əsas yaradıb. Bu və başqa səbəbdən mümkündür ki, girovlarımız uzun müddətə geri verilməsin. Ki, nə vaxtsa əsl həqiqət üzə çıxmasın. Dilqəm Əhmədov və Şahbaz Quliyev ətrafında hay-küy və siyasi şou yaradılması bu mənada tam anlaşılan və məntiqli görünür.

❑ **Siyasət şöbəsi**




# Tikinti mafiyasının böyük Bakı hesablaşması

## “Cinayətkar” şirkətin arxasından Cahangir Hacıyev çıxdı; Beynəlxalq Bankın şefinin “Sovetski” sakinlərinə bazar qiymətindən 2 dəfə ucuz mənzil təklif etməsi tikinti maqnatlarını qəzəbləndirib və ona qarşı sanksiyaların işə düşməsinə səbəb olub; “Des Consulting” şirkətinə qarşı cinayət işinin açılmasının yeni təfərrüatları “Yeni Müsavat”da

**İyulun 16-da barəsində cinayət işi açılan “Des Consulting” şirkətinin gerçək sahibi Beynəlxalq Bankın idarə heyətinin sədri Cahangir Hacıyevdir. Bankir tikinti biznesini böyütmək üçün evləri sökülən “Sovetski” sakinləri üçün “sosial layihə” ideyasını irəli sürüb.**

Bu layihəyə əsasən, “Sovetski” sakinlərinə bazar qiymətindən 2 dəfə ucuz mənzillər təklif ediləcəkdi. Bundan qəzəblənən tikinti bazarının əsas oyunçuları isə onun şirkəti barəsində cinayət işinin açılmasına nail olublar. Bu barədə “Yeni Müsavat”a tikinti sektorundakı mənbələrdən məlumat daxil olub.

Mənbənin məlumatına görə, C.Hacıyev tikinti biznesinə 2002-ci ildə başlayıb. Həmin il “Yeni Həyat” şirkətlər qrupunu təsis edib. Şirkətlər qrupu Bakının mərkəzində və mərkəzə yaxın ərazilərdə eyni adlı yaşayış massivləri inşa edib. Mənzil tikintisi bazarında oyunçular azaldıqca, şirkət bazarda mövqelərini gücləndirib. İndi artıq mənzil tikintisi bazarının əsas oyunçularından birinə çevrilmək istəyib və buna görə də “Sovetski” sakinləri üçün güzəştli şərtlərlə ev tikmək ideyasını nəzarətində olan “Des Consulting” şirkəti vasitəsi ilə ictimailəşdirib. Bunula da nəhəng dövlət sifarişlərini ələ keçirməyə çalışıb. Ancaq bu, tikinti bazarının aparıcı oyunçularının xoşuna gəlməyib və şirkət haqda cinayət işi açılmasına nail olmaqla onu zərərsizləşdiriblər.

Hazırda “Yeni Həyat” şirkətlər qrupu Bakıda nəhəng “Azure Park” yaşayış kompleksinin tikintisini həyata keçirir. Afiyəddin Cəlilov, 27A ünvanında inşa olunan 18 mərtəbəli yaşayış kompleksində 1,2,3,4 otaqlı mənzillər inşa edilir. Kompleksin 1-ci mərtəbəsində 5000 kv m sahəsi olan hipermarket, 2-ci mərtəbəsində 1500 nəfərlik 5 kinozal, həmçinin sakinlərin və qonaqların təhlükəsizliyi və rahatlığı üçün kinozallardan Azure Shopping Centre-ə yerüstü keçid nəzərdə tutulub. Kompleksdə 2 min avtomobil tutumu olan avtopark da istifadəyə veriləcək. Tikintini C.Hacıyevin idarəetməsində olan “Banktechnique” (keçmiş “Texnikabank”) maliyyələşdirir. Kompleksdən mənzil almaq istəyənlər də bu bankın ipoteka kreditlərindən faydalana bilərlər. Bu barədə bankın rəsmi saytında da məlumat verilib.


Cahangir Hacıyev

Şirkətlər qrupu buna qədər “Yeni HƏYAT Rezidense”, “Yeni HƏYAT Plaza”, “Azure Rezidense”, “Azure Plaza”, “Azure Shopping centre”, “Megafun” kimi nəhəng layihələr həyata keçirib. “Sovetski” sakinləri üçün nəzərdə tutulan kompleks isə nəhəngliyinə görə bu layihələri geridə qoymalı idi. Ancaq bankirin tikinti sektorunda belə sıçrayışları tikinti bazarının əsas oyunçularını qəzəbləndirib.

Ötən saylarımızda bildirmişdik ki, iyulun 16-da Baş Prokurorluq “Des Consulting” MMC-nin vəzifəli şəxsləri barəsində Cinayət Məcəlləsinin 178.3.2 maddəsi ilə cinayət işi başlandığı barədə məlumat yayıb. Bu şirkət iyulun 15-də “Sovetski” sakinlərinin mənzil problemini həll etmək üçün 16 mərtəbəli, 810 mənzilli bina tikintisi layihəsi hazırladığı barədə cəmiyyətə məlumat vermişdi. Təmirsiz mənzilin bir kvadratmetri sakinlərə 380 manata təklif ediləcəkdi ki, bu da bazar qiymətindən ən azı 2 dəfə ucuzdur.

Cinayət işi bir gün sonra, iyulun 16-da Bakı şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində başlanılıb. Prokurorluqla polis idarəsinin birgə məlumatında deyilir ki, vəzifəli şəxslər vətəndaşların etibarından sui-istifadə edərək dələduzluq yolu ilə onlara məxsus külli miqdarda əmlakı ələ keçirmək istəyib. Şirkətin bu fəaliyyət növü ilə müvafiq lisenziya olmadan fəaliyyət göstərdiyi də müəyyən edilib.

Şirkət tikinti işlərini öz vəsaiti ilə həyata keçirəcəyini iddia etməyib. Bunun üçün tender yolu ilə hündür binalar tikməyə lisenziyası və partnyoru olan “Yeni Həyat” şirkətini cəlb edib. “Des Consulting”in vəzifəli şəxsləri ilk izahatlarını veriblər. İzahatlara əsasən, binanın tikilməsinin layihə qiyməti 17 milyon manat olub. Bir sözlə, C.Hacıyev ilkin mərhələdə “Yeni Həyat” şirkətini yox, başqa bir şirkətini qabağa verib. Görünür, bankir ideya ictimailəşəndən sonra gözlənilən hücumları proqnozlaşdıra bilib. Buna görə də ictimai rəydə tanınmayan başqa bir şirkətini önə çıxarıb ki, zərbələr “Yeni Həyat”dan yan keçsin.

“Yeni Müsavat”ı bilgiləndirən mənbənin sözlərinə görə, C.Hacıyev son dövlər biznes elitasının əsas fiqurlarından birinə çevrilib: “O həddə qədər ki, bankirin hazırda idarə etməsində 3 bank (Beynəlxalq Bank, ”Bank Of Azerbaijan" və “Banktechnique”), 3 futbol klubu (“İnter”, “Simurq” və “Bakı”) və çoxsaylı ASC-lər var. “Bank Of Azerbaijan” və “Bakı” klubunu o bu yaxınlarda “Baghlan Group” şirkətlər qrupunun sahibi, tanınmış iş adamı Hafiz Məmmədovun əlindən alaraq öz idarəetməsinə qatıb. Bunun ardınca onun tikinti sektorunda önə çıxmaq cəhdi biznes elitasındakı rəqiblərində qıcıq yaradıb və C.Hacıyevə qarşı sanksiyalara qərar verilib. Bu, ona edilən ilk xəbərdarlıqdır".

Nəhəng söküntü işləri tikinti mafiyası üçün çox gəlirli bir sahədir. Söküntü nəticəsində köçürülən sakinlərin evlə təminatı mənzil bazarında tələbatı kəskin şəkildə artırır. Bu tendensiyadan tikinti mafiyası inşa etdiyi mənzilləri tez bir zamanda satmaq və külli miqdarda gəlir götürmək üçün faydalanırlar. Belə bir vaxtda C.Hacıyevin şirkətinin önə çıxması və mənzili bazar qiymətindən 2 dəfə ucuz təklif etməsi, təbii ki, tikinti mafiyasının maraqlarına sarsıdıcı zərbə vurmaq anlamına gəlirdi. Ona görə də tikinti mafiyası onu cəzalandırmaq qərarına gəlib.

Sonda onu da qeyd edək ki, “Sovetski” məhəlləsi indiyə qədər olan söküntü layihələri arasında ən nəhəngidir. Massivdən 11 minə yaxın ailənin - 50 min sakinin köçürülməsi nəzərdə tutulur. Bu da sakinlərin evlə təminatı məsələsinin çox gəlirli biznesə çevriləcəyini göstərir. Belə bir vaxtda C.Hacıyevin önə çıxaraq “bazarı öldürməsini”, təbii ki, tikinti bosları həzm edə bilməzdi və etmədi də.

Mövzunu davam etdirəcəyik.

❑ **İqtisadiyyat şöbəsi**

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

# "Hakimiyyətdən vəzifə təklifi almışam"

## Qubad İbadoğlu: "Hesab etmirəm ki, 10 il öncə məndən yaxşı baş nazir olardı, amma indi..."

**Müsavat Partiyası Divanının üzvü, eyni zamanda, beynəlxalq səviyyəli iqtisadçı-ekspert Qubad İbadoğlu "Yeni Müsavat" qəzetinin qonağı olub. Vətəndaş cəmiyyətinin fəal iştirakçılarından olan Q.İbadoğlu Azərbaycanda və regionda gedən bir sıra siyasi, iqtisadi məsələlər haqqında sualları cavablandırıb. Söhbətin ikinci hissəsini təqdim edirik.**



*(başlanğıcı ötən sayımızda)*

***- Hakimiyyətin nəzarətindən kənar bütün vətəndaş cəmiyyəti institutlarının bank hesablarına həbs qoyulması xəbərləri doğrudurmu?***

- Bəli. Bu gün vətəndandaş cəmiyyəti institutlarının bir çoxu öz fəaliyyətləri ilə bağlı qərar vermək iqtidarında deyil. Çünki banklar demək olar, bütün hesablara, həbs qoyub.

***- Bu mövzuya yenidən qayıdarıq. Bir məsələyə münasibət bildirməyinizi istəyirəm. Siz uzun illər İsa Qəmbər iqtidarının baş naziri kimi də təqdim olunurdunuz. Hələlik müxalifətin iqtidara gəlmək imkanları yoxdur. İndiki hakimiyyət sizə vəzifə təklif edibmi? Etsə, təklifi dəyərləndirərsinizmi?***

- Dəfələrlə hakimiyyət tərəfindən müxtəlif müraciətlər olub, kabinetdə təmsil olunmaq üçün mesajlar çatdırılıb. Amma konkret müzakirələr olmayıb. Mən bu müzakirələrə qatılmamışam. İsa Qəmbər iqtidarında baş nazirlik məsələsinə gəlincə... 2003-cü ili nəzərdə tutursunuzsa, mənim o zaman məqsədim heç də baş nazir olmağa yönəlməmişdi. Hesab eləmirəm ki, mən o zaman yaxşı baş nazir olardım. Amma indi 2014-cü ildir və mən xeyli təcrübə toplamışam. İndiki iqtidarda mənim yetərincə tanıdığım, hörmət elədiyim şəxslər var. Bu ifadə bəzən bizim dostlarımızda qıcıq yaradır, hətta qəzəblə qarşılayanlar olur. Amma belələri var.

***- Baş nazirin fəaliyyətini necə qiymətləndirirsiniz?***

- O, nominal şəxsdir. Mən onun real fəaliyyəni görmürəm.

***- Baş nazir postuna namizədlikdə adı hallandırılan şəxslərdən hansını daha uğurlu namizəd sayırsız? Məsələn, bu posta hazırkı maliyyə naziri Samir Şərifovun adı hallandırlır.***

- İstəməzdim iqtidarın ayrı-ayrı nazirlərinin xarakteristikasını verim. Konkret maliyyə nazirini soruşursunuzsa, işimizlə bağlı biz ən çox maliyyə nazirinin fəaliyyətini izləyirik. Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün hökumət tərəfdən rəhbəri Samir Şərifov idi. Bizim şəffaflıq təşəbbüsü çərçivəsində əməkdaşlığımız da olub. Ümumi götürəndə, Samir Şərifov indiki hakimiyyətdə yerində olan kadrlardan biridir. Hökumətin digər üzvlərindən fərqli olaraq onun adı korrupsiya qalmaqallarında hallanmayıb. Baş nazirin nominal bir şəxs olduğunu nəzərə alsaq, maliyyə naziri vəzifəsi ölkənin ikinci postu sayılır. Onun idarə etdiyi büdcə 10 il əvvəlki maliyyə nazirinin idarə etdiyi büdcədən heç olmasa 10 dəfə çoxdur. İndiki baş nazirlə müqayidəsə onun daha çox iş görüdüyünü demək üçün ciddi əsaslar var. Amma burada söhbət hansısa kadr dəyişikliyindən getmir. Çünki sistem elə qurulub ki, sabah maliyyə naziri baş nazir olsa onun fəaliyyəti arxa planda qala bilər. Yəni indiki hökumətin tərkibində kadr dəyişikliyi Azərbaycan iqtisadiyyatına hansısa ciddi tövhə vermək iqtidarında deyil. Hökumətdə daha bir neçə uğurlu kadrlar var. Onlar Yeni Azərbaycan Partiyasının üzvüdür, indiki hökumətin təmsilçisidir deyə, gələcəkdə hakimiyyətin idarə olunması prosesindən kənarda qalmamalıdır. Orta səviyyədə korrupsiyaya bulaşmayan, öz məmur vicdanını qoruyub saxlayan yaxşı kadrlar da var. Onların sayı çox deyil, amma təhsil, mədəniyyət, səhiyyə sistemində belə kadrlara rast gəlmək mümkündür. Demək istədiyim odur ki, cəmiyyətdə gedən deqradasiya heç də hamını əhatə etməyib. Bu günü götürəndə isə Azərbaycan iqtisadiyyatı bütövlükdə düzgün idarə olunmur, ölkədə pis idarəçilik var. Pis idarəçiliyi maskalayan sadəcə neft gəlirləridir. Biz neft gəlirlərini yalnız rəqəmlərdə görürük, bu gəlirlərin insanların həyatına təsiri yoxdur.

**"Proses bu cür davam edərsə, müstəqil vətəndaş cəmiyyəti tamamilə sıradan çıxacaq"**

***- Bayaq QHT sektorunda baş verənlərlə bağlı söhbətimiz yarımçıq qaldı. Ötən ilin payızında iqtidar müstəqil mətbuatın fəaliyyətini iflic etmək üçün yayım şərtlərini daha da ağırlaşdırdı. Bu gün QHT sektoru ilə bağlı baş verənlər də mətbuata qarşı yönəlmiş siyasətin tərkib hissəsinə oxşayırmı, sizcə?***

- Vəziyyət xeyli çətinləşib. İndiki qədər mürəkkəb situasiya bizim fəaliyyətimiz dövründə olmayıb. Proses bu cür davam edərsə, müstəqil vətəndaş cəmiyyəti tamamilə sıradan çıxacaq. Vətəndaş cəmiyyətinin fəaliyyətinin əsaslarını onun proqramları, layihələri təşkil edir. Bu gün o layihələr üzrə imzalanan müqavilələr qeydiyyata alınmırsa, qeydiyyata alınan müqavilələrə bildiriş verilmirsə, bank hesabları üzərində sərəncam vermək imkanı itirilir. Büləliklə də bank hesabları bloklaşdırılır, ya da hesablara həbs qoyulur. Bizim də hesablarımız blok edilib, artıq heç bir əməliyyat apara bilmirik.

***- Hökumət bank qadağalarını nə ilə izah edir? Yoxsa izahat da ala bilmirsiz?***

- Açığı, biz bunu gözləyirdik. Fevral ayından vətəndaş cəmiyyəti institutları ilə bağlı qanunlar sərtləşdiriləndə bəlli idi ki, problemlər, basqılar artacaq. Qanuna dəyişikliklər edilməklə yeni qaydalar müəyyənləşdirilib, biz fəliyyətimizi həmin qaydalara uyğun olaraq qurmaq niyyətindəyik. Ancaq qanun çox sərtdir. Biz düşünürdük ki, nə qədər sərt olsa da, nə qədər bürokratik əngəllər yaradılsa da bizim üçün əlavə xərclər, resurslar tələb etsə də biz onsuz da bu prosesi yürütməkdə davam edəcəyik. Çox təəssüf, onsuz da sərt olan qanunda nəzərdə tutulanlardan başqa, daha sərt çətinliklər yaradılır. Yəni yalnız qanun işləyərsə, çətinliklərə baxmayaraq biz fəaliyyətimizi davam etdirə bilərik.

***- Bir az konkretləşdirək, qarşınıza hansı əngəllər çıxarılır?***



**"Samir Şərifov indiki hakimiyyətdə yerində olan kadrlardandır. Hökumətin digər üzvlərindən fərqli olaraq, onun adı korrupsiya qalmaqallarında hallanmayıb"**

- Qanunda qeydiyyatdan keçən istənilən layihə ilə bağlı bildiriş verilməsi nəzərdə tutulur. Ancaq biz onu əldə edə bilmirik. Bildiriş arayış kimidir. Onun verilməsindən imtina halı belə qanunda nəzərdə tutulmayıb. Qanunun arayışın verilməməsi ilə bağlı heç bir norması yoxdur. Bizim ayrı-ayrı təşkilatlarla əməkdaşlıq layihələrimiz var. Əgər 3 layihə varsa, onların ikisinin bildirişi var, birininki yoxdursa, digər layihələrin də həyata keçirilməsinə imkan vermirlər, bütövlükdə hesabı bloklaşdırıblar.

***- O zaman demək olarmı ki, Azərbaycanda vətəndaş cəmiyyətin institutları faktiki iflic vəziyyətindədir?***

- Tamamilə doğrudur. Vətəndaş cəmiyyətinin, demək olar, bütün institutları fəaliyyətlərini dayandırıb. Ara-sıra epizodik tədbirlər də vətəndaş cəmiyyəti institutları yaradıcılarının xüsusi vəsaitləri hesabına keçirilir. Banklar vasitəsi ilə əməliyyat aparılması mümkün deyil. Bu cür yanaşma sərt olmaqla yanaşı, həm də səhv yanaşmadır. Ona görə ki, banklar vasitəsi ilə vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə nəzarət etmək daha asandır. Bu, rəsmi iqtisadiyyatın maliyyə kanallarının bir hissəsidir. Bu basqılar isə yeni fəsadlara yol aça bilər. Məsələn, bəziləri ölkədən kənarda fəaliyyət göstərməyə başlayar.

***- Bu cür praktika uğurludurmu?***

- Belorusda analoji praktika var. Belorus vətəndaş cəmiyyəti institutlarından bəziləri Polşada qeydiyyatdan keçib, bank hesabı açırdılar, yaxud Latviyada, Litvada işləyirdilər. Eyni məsələ Azərbaycanda da baş verə bilər. Təbii, bu, Azərbaycan hakimiyyətinin maraqlarına və istəklərinə uyğun deyil.

***- Sizinlə uzun illər əməkdaşlıq edən donorların bu qadağalara reaksiyası sizi qane edirmi? Avropa Şurası Parlament Assambleyasının son sessiyasında Azərbaycan dövlət başçısına ünvanlanan ciddi suallardan biri də vətəndaş cəmiyyəti institutlarına tətbiq edilən qadağalarla bağlı idi.***

- Bəlkə də vətəndaş cəmiyyəti AŞPA-nın yay sessiyasında baş verənlərin cəzasını çəkir. Biz müstəqillikdən danışırıq, deyirik ki, ölkənin problemlərini ölkədə həll eləməliyik, ancaq bu prinsip hər zaman qorunmur ki... Biz bayaq təhsil sistemindəki problemlərdən danışdıq. Əgər Azərbaycan müstəqildirsə, niyə başqa dövlətin baş nazirinin tələbi ilə məktəb bağlayırıq? Üstəlik Azərbaycanda bağlanan məktəblər səviyyəsində məktəb olmadığı bir zamanda. Ali məktəblərə I və IV qrup üzrə imtahan verənlərin nəticələri açıqlanıb, 700 bal yığan 7 nəfərdən 4-ü "Çağ" Öyrətim Şirkətinə daxil olan məktəbləri bitirən gənclərdir. Bu məktəblər bağlanıb, demək, gələn ildən başlayaraq bizim uğurlu nəticələrimiz sürətlə azalmağa başlayacaq. Bu, Azərbaycanın gələcəyi üçün böyük zərbədir. QHT sektorunda da eyni durumdur. Belə bir yanaşma var ki, Azərbaycan müstəqil ölkədir, niyə vətəndaş cəmiyyəti institutları xarici donorlardan asılı qalmalıdır? Azərbaycan hökuməti düşünür ki, əgər xarici donorlar şəffaflıqla bağlı, demokratiya ilə bağlı, hətta qadın hüquqları ilə bağlı hansısa layihəni maliyyələşdirirsə, demək, onların gizli maraqları var, belə olmasaydı maliyyə ayrılmazdılar. Ola bilər, hansısa təşkilatların gizli maraqları olsun, bu, istisna deyil. Ancaq bizim işlədiyimiz təşkilatların çoxu Azərbaycanda fəaliyyət göstərir. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin hansı gizli marağından danışmaq olar? Bu qurum bütün dövlətlərdə demokratik qaydaların, yaxşı idarəetmənin, iqtisadi və sosial inkişafın təmin edilməsi üçün çalışıb. Hökumət hələlik xarici maliyyələşmənin azaldılmasına, sonra isə tamamilə sıradan çıxarılmasına çalışır. Bunun əvəzinə dövlətdən maliyyələşən təşkilatları gücləndirmək istəyir. Bu isə o deməkdir ki, beynəlxalq əməkdaşlıq səviyyəsi xeyli aşağı düşəcək. Tutalım, biz hökumətdən maliyyə alaraq iqtisadi durumla bağlı monitorinq apardıq. Bu hesabatı heç bir nüfuzlu qurum bizdən qəbul etməyəcək. Çünki burada tərəfsizlik pozulub - dövlətdən maliyyə alan bir təşkilat real durumu ictimailəşdirə bilməyəcək. Vətəndaş cəmiyyəti sektorunda elə fəaliyyətlər var ki, biz mütləq beynəlxalq qurumlarla əməkdaşlıq etməliyik. Xüsusilə də ölkənin beynəlxalq şəffaflıq, korrupsiya təşəbbüslərinə qoşulduğu indiki məqamda. Azərbaycanın bu təşəbbüslərlə bağlı hesabatlarını kim hazırlayacaq? Hələlik bu məsələ böyük sual altındadır.

***- Qərb bu məsələdəki mövqeyini hansısa formada konkretləşdiribmi?***

(ardı gələn sayımızda)

**❑ Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

# İraq türkmənlərinin dəhşət dolu hekayəsi - bir türkmən anladır

## “Ərdoğan və Gül türkmənləri müsəlman hesab etmir”

**Qəzetimizin 8 iyul tarixli sayında getmiş “Türkmən və xristian qızlarını şəhərin ortasında zorlayırlar ” başlıqlı yazısı geniş rezonans doğurub. Xatırladaq ki, İsveçrənin Sürix şəhərində yaşayan əməkdaşımız Elbəyi Həsənli İsveçrəyə sığınmış Kərkük türkmənlərinin birindən İŞİD-in İraqda törətdiyi şiə-türkmən qətliamı ilə bağlı müsahibə götürmüşdü.**




Yazıda vurğulanırdı ki, bir vaxtlar Azərbaycanda yaşamış Əli adlı türkmənin 30 yaşlı qardaşı İsam Eyvaz Bəşir şəhərinin İŞİD-çilərdən təmizlənməsi üçün partizan hərəkatı xarakterli bir qrupa qoşulub. O da İraq şiələrinin mənəvi lideri Seyid Əli Sistaninin fətvasından sonra İŞİD-in işğalını durdurmaq üçün ayağa qalxan şiə mücahidlərin sırasında yer alıb. Yazıda şahidlərə istinadən İŞİD qüvvələrinin törətdiyi ağlasığmaz vəhşətlər də yer almışdı...

Müsahibədə bəhs olunan bir sıra məqamlar, o cümlədən başı kəsilmiş oğlunun İŞİD tərəfindən yayılmış video görüntülərinə baxan ananın havalanması çoxlarını dəhşətə gətirmişdi. Başqa bir ananın gözü qarşısında oğlu və iki qızının güllələnməsi, bu azmış kimi onların meyitlərinin maşına yerləşdirilib daha sonra avtomobilə od vurulması kimi tükürpədici səhnə də yaddaşlara yazılmışdı...

Xatırladaq ki, Bəşirlə Təzə Xurmatın arasındakı Şəmsə adlı balaca bir kənddə İŞİD-çilərin qəfil hücumuna məruz qalmış 30 nəfərlik türkmən qrupunun tərkibində olan hər kəs qətlə yetirilmişdi. Üstəlik, şiə-türkmənlər Bəşirdə 45-50 dərəcə istidə küçələrdə öldürüldükləri yerdə qalmış 400-500 nəfər civarında olan meyitləri İŞİD-dən satın almağa cəhd göstərmişdilər. İraqın sünni ərəbləri İŞİD rəhbərliyi ilə bu istiqamətdə danışıqlar aparmışdı. Vasitəçilərin gələ bildiyi ilkin razılığa əsasən 50 min dollar müqabilində İŞİD meyitləri şiələrə qaytarmağa razılıq vermişdi. Amma həmin məbləğ toplandıqdan sonra Bəşirdəki İŞİD qüvvələrinə rəhbərlik edən Əfqanıstan əsilli komandanı deyib ki, para gərəkməz. Şiələrin meyiti elə çöllərdə də qalmalıdır...

Onu da qeyd edək ki, İsam Eyvaz öz yoldaşları ilə birlikdə iyunun 29-da qətlə yetirilib. Bəs ötən vaxt ərzində meyitlərin geri alınması ilə bağlı hər hansı bir yenilik varmı? Bu suala aydınlıq gətirmək üçün əməkdaşımız Sürixdə yaşayan Əliyə müraciət edib. O deyib: “Mən sıradan bir türkmənəm. Bilirəm, Azərbaycanda İraq türkmənlərinə xüsusi münasibət var. Bir çoxları bizi Azərbaycan türkləri kimi qəbul edir. Əlbəttə, biz dərdimizə şərik olan hər kəsə tək-tək minnətdarıq. Onu da deyim ki, söhbət heç də 400-500 meyitin geri alınmasından getmir. Mahiyyətdə ortada olan soru bu ki, İraqda türkmən adına kimsə qalacaqmı, yoxsa bizləri hissə-hissə məhv edəcəklər. Ötən dəfə də dedim, bir də deməyim gərəkir. Türkiyə bizdən dəstəyini geri çəkdi. Ərdoğanla Gül gecə-gündüz Fələstin faciəsindən danışır. Hərdən düşünürəm ki, ya Rəbb, bəs biz türkmənlər də müsəlman deyilikmi? Yaxşı, bizi türk saymadız, bunu anladıq, müsəlmanlığımıza şübhəniz haradan yarandı, bax bunu başa düşmək olmur. Türkiyədə bir söz var, deyirlər ki, bunu anladımsa, ərəb olum...

**Ayətullah Seyid Əli Sistani türkmənlərə İŞİD-lə meyit və girov alverini qadağan etdi; İraqda türkmən qətliamı davam edir; “Ərdoğanla Gül gecə-gündüz Fələstin faciəsindən danışır - biz də müsəlman deyilikmi?”; “Girov olan arxadaşım da, onu qurtarmaq üçün gələn doğmaları da partlayışdan param-parça oldular”**

Əli yenidən fikrə dalıb gedir. Handan-hana özünə qayıdır: “Bir vaxtlar əsası İranda qoyulmuş Bədir Hərəkatı lideri Hadi əl-Amiri indi İraq baş naziri Nuru əl-Malikiyə dəstək verir. Bu hərəkatın 20 min silahlı əsgəri var. Başa düşdülər ki, şiə hökuməti getsə, bunların da axırı gələcək. Qabaq hökumətlə rəqabətdə idilər. Onlar İraqdakı kürd muxtariyyəti ilə danışıqlar aparıb. Razılaşmaya əsasən, sünni və ya şiə olmasından asılı olmayaraq, bütün türkmənlər kürdlərin ərazisinə daxil olub oradan Nəcəf və Kərbəla şəhərlərinə uça bilərlər. Yolun xərcini də Bədir Hərəkatı ödəyir. İndilərdə isə xristianları da bu sıraya daxil ediblər. Terrorçuların əlində olan Mosulda xristian çoxdur. Mosul Bağdaddan sonra ən böyük İraq şəhəridir. Terrorçular orada öncə xristianları qırıblar. Sonra başa düşdülər ki, onları qırıb qurtarmaq mümkün deyil. Həddindən artıq çoxdurlar. Xristianlarla danışıqda deyiblər ki, gərəkdir ki, siz müsəlman olasız. Ya da nəyiniz varsa qoyub gedəsiz. Xristianlar isə dinlərini dəyişmək istəmirlər. İndi hökumət də onların Kərbəla və Nəcəf şəhərlərinə getməsinə yardım edir. Düşünürlər ki, Mosul azad olunana qədər xristianlar orada yaşaya bilərlər. Həmin şəhərlərdə xristianlar təhlükədən uzaq olurlar. Bir şeyi də deyim. İŞİD xristianlara heç olmasa deyir ki, Mosulu tərk edin. Şiə türkmənləri isə sorğu-sualsız yerindəcə güllələyirlər ”.

***- Meyitlərlə bağlı nə yenilik var?***

- Məbləği qaldırdılar. Dedilər ki, hər kişiyə görə 10 min dollar verməlisiz. Özü də təminat vermirlər ki, məsələn, mənim ailəm 10 min dollar verib əvəzində qardaşımın meyitin ala bilər. Deyirlər ki, bir ambulans maşını ilə bir sürücü gələr və biz 30 nəfərin meyitin maşına doldurub sizə verərik. Sonrasını özünüz bilərsiz. Razılaşdıq. Nə etmək olar ki? Amma terrorçular bu dəfə də fikirlərin dəyişdilər. Dedilər ki, hər meyitə 20 min dollar verəcəksiz. 30 meyitə 600 min gətirin, iş tamam olsun. Bizim camaat da Ayətullah Seyid Əli Sistani ilə əlaqə saxladı. Həzrət bizə buyurdu ki, terrorçulara pul vermək haramdır. Nəyinki meyitə görə, hətta girovlara görə də terrorçuya pul vermək olmaz. Çünki onlara pul verməklə biz terrorçuları daha da gücləndiririk. O fətvadan sonra bu məsələ gündəlikdən çıxdı. Daha kimsə terrorçuya pul verə bilməz. Bilsək ki, bu iş min dollara düzələcək, yenə bu işə əl qoymarıq. Çünki haram elan olundu...

**“Ortada olan soru bu ki, İraqda türkmən adına kimsə qalacaqmı, yoxsa bizləri hissə-hissə məhv edəcəklər?”**

İndi meyitlər küçə və meydanlarda qalmaqdadır. Ölü sahibləri də gəlib binoklla yerdə çürüyən meyitlərə baxırlar. Əlbəttə, binoklla baxmaqla kimin kim olduğunu bilmək olmaz. Artıq meyitlərin bir çoxunda sümüklər üzə çıxıb və aşkar görünür. Yaxına da getmək mümkün deyil. Snayperlər həmən vururlar. Meyitə binoklla baxarkən neçəsi öldürüldü. Maraqlıdır ki, özləri də meyitlərin arasında dolaşmaqdan bezməyiblər. Bunları hansı ana doğdu, bilmədik...



**“İŞİD xristianlara heç olmasa deyir ki, Mosulu tərk edin. Şiə türkmənləri isə sorğu-sualsız yerindəcə güllələyirlər ”**

***- Dedin ki, Seyid Əli Sistani fətva verdi ki, girovları da pulla geri almayın. İndi hər kəs bu fətvaya əməl edirmi?***

- Təbii, etməmək olarmı? Bax bu yaxınlarda bir türkmən ailəsində belə bir olay baş verdi. Terrorçular İraq hökumətinin əsgəri geyimində bir evə gəliblər. Ana, ata işdə olub. Qapını uşaqlar açıblar. Terrorçular deyib ki, sizin maşın oğurluqdur. Sənədlərin gətirin baxaq. 3 qardaş evdəymişlər. Böyüklər sənəd dalınca gediblər. Kiçik uşaqsa qapının ağzında qalıb. Qardaşlar maşının sənədini tapıb geri qayıdanda görürlər ki, qardaşlarını “əsgər”lər aparıblar. Sonra terrorçular həmin ailə ilə əlaqə saxladı. Dedilər ki, filan yerə disk qoymuşuq, bir ona baxın, sonra söhbət edərik. Diskdəki video görüntüdə isə dəhşətli mənzərələr varmış. Yayın istisində uşağın əl-qolun bağlayıb şallaqlayırlar. Al-qan içində olan uşaq da yalvarır ki, bunların istədiyini verin, məni qurtarın. Döyülmüş uşağı isə böyük bir çənin içinə atıblar. Çənin üstünə isə beton qoyublar. Bu isdidə çənin içində insanın halı necə olar? Öncə 500 min dollar istədilər. O qədər paranı haradan tapmaq olar? 2 gün sonra terrorçular yeni bir disk göndəriblər. Oradakı videoda da uşağı döyürlər, sonra isə onun bədənində bıçaqla dərin yaralar açıblar. Ailə məcbur oldu, bir ərəb əşirətinin şeyxi ilə danışdı. Yəqin ki, həmin şeyx də terrorçularla qazanca ortaq idi. Nəsə, 250 min dollar şeyxə verdilər, 2 gün sonra isə uşağı geri ala bildilər...

Hələ bunlar yaxşı qurtarıblar. Başqa bir türkmən ailəsində isə daha pis olub. Onlara terrorçulara arxalanan canilər hədə gəlib. Oğullarını girov götürüblər. Həmin şəxslə mən eyni sinifdə oxumuşam. Deyiblər ki, 70 min dollar gətirin, yoxsa öldürərik. Arxadaşımın anası yaşadıqları evi də satdı, pula gedən nə varsa hamısını əldən verdi. Amma pul yenə çatmadı. Onda yazıq ana düşdü küçələrə, ev-ev gəzdi, dilənçi kimi ondan bundan pul istədi. Balamı öldürürlər dedi. Bir müsibətlə həmin məbləği toparladılar. İraq belə bir yer ki, orada paranı verərsən, amma girovu geri alarsan - almazsan bunu kimsə bilməz, kimsəyə güvən yox. Xeyli danışıqdan sonra paranı çatdırdılar. Terrorçuların havadarlıq elədiyi canilər dedilər ki, oğlunuz filan yerdə maşındadır. Gedin götürün. Qohum-əqraba sevincək yola çıxır. Arxadaşımın atası, əmisi, dayısı, bir də kürəkəni. Çatanda görürlər ki, arxadaşımın əl-qolun bağlayıb maşının içinə atıblar. Sevincdən özlərini arxadaşımın üstünə atıblar. Kəndiri açmaq istəyəndə partlayış baş verib. Girov olan arxadaşım da, onu qurtarmaq üçün gələn doğmaları da partlayışdan param-parça olublar. 70 min dollar da oradan ziyana düşmüşdülər...

Dərindən köks ötürüb üzümə baxır: “Qüsura baxma, sən İraqı heç anlamazsan. Azərbaycanda yaşasaydım mən də anlamazdım. Axı mən Bakıda bir az qalmışam, oralarda belə şeylər heç duymadım...İndi anamla telefonla danışıram, deyir, Əli, İsam sağdır. O ölə bilməz. Məni bu dünyada qoyub gedə bilməz. İsamın xanımı da ərinin ölümünə inanmır. Deyir ki, bilsəm ki, ölüb, özümü öldürərəm. Qardaşımsa deyir ki, Əli, mən də ölərəm. Deyirəm, nədən elə düşünürsən, sən gənc birisi. Deyir, Əli, dörd tərəfimizdə olan qonşularımıza baxıram. Sağ qalanlar yox kimidir. İndi mən nədən ölməyim? Bir gün də sıra mənə gələr. O, söyləyir ki, Ramazandan dolayı bütün qonşular bir araya gəliblər. Elə əllərini yenicə süfrəyə uzadıblar ki, silahlılar yandan çıxıb. Topa oturmuş insanları güllələboran edib qaçıblar. Nə qədər adam ölüb, neçəsi ağır yaralanıb.

İraqın gündəlik həyatı belədi. Hökumət yox, dövlət yox. Hərənin əlində bir silah, kimin kimdən xoşu gəlmir qafasına sıxıb gedər. Mənə hərdən deyirlər ki, İsveçrədə kefdəsən, bizi isə İraqda qırırlar. Hardan bilsinlər ki, həyatım çoxdan zəhər olub. Qohum-əqrəbamdan kimin əhvalını xəbər alıram, ölüm-itimdir. Bir şeyə şükür edirəm ki, heç olmasa uşaqlarım bu vəhşiliklərdən kənarda böyüyür. Bura bir xristian məmləkətidir. Biz də müsəlman. Bizə bir xristian gəlib demədi ki, siz bu məmləkətdə yaşayırsız, bəlkə dininizi dəyişib boğazınızdan bir xaç asasız. Bəs müsəlmanlar nədən İraqda xristianları zəlil ediblər?...

Söhbətimizin sonunda müsahibim İraqda nüfuzlu insanlarla adi insanların gün-güzəranını müqayisə etmək üçün ayətullahın baş barmağından danışdı...

- Biz kimik ki, sıradan insanlar. Seyid Muhəmmədbağır əl-Həkimi «Bədr briqadası»nın qurucusudur. İranın dəstəyi ilə o təşkilatı yaratmışdı. Buna görə idi ki, onu «İraqın Xomeynisi» adlandırırdılar. O, 7 dəfə sui-qəsdə məruz qaldı. 2003-cü ilin avqustunda Nəcəfdə, Həzrət Əlinin (ə) hərəmindən Cümə namazından çıxan zaman hazırlanmış terror aktı 83-nəfər silahdaşı ilə bərabər ayətullahı göyə sovurdu. O, İraq İslam İnqilabı Ali Şurasının sədri idi. Partlayışdan sonra o boyda şəxsiyyətin yalnız baş barmağını tapa bildilər. Bizim kimilər öləndən sonra heç tozumuz da ələ gəlməyəcək...

❑ Elbəyi HƏSƏNLİ

**“Bizə bir xristian gəlib demədi ki, siz bu məmləkətdə yaşayırsız, bəlkə dininizi dəyişib boğazınızdan bir xaç asasız. Bəs, müsəlmanlar nədən İraqda xristianları zəlil ediblər?”**

Yeni Müsavat
N 184 (5893) 21 iyul 2014

“Baxış bucağı”

# “Rusiyada iki böyük daxili güc qarşı-qarşıyadır”

## Ərəstun Oruclu: “Ukrayna siyasəti Rusiyaya çox baha başa gələcək”

**Bu gün dünyanın bir çox qaynar nöqtələrində dəhşətli hadisələr, insan itkiləri ilə müşayiət olunan müharibələrin hansısa laboratoriyalarda hazırlandığı şübhələri var. Görünən budur ki, artıq bəşəri faciələrə imza atanları nə beynəlxalq qanunlar, nə ictimaiyyətin etirazı, nə də onlara qarşı sərt tədbir görüləcəyi qorxusu bəd əməllərindən çəkindirmir. Sanki ortada bir razılaşma, anlaşma, dünya xəritəsinin yenidən cızılması, yeni dövlətlərin yaradılması planı var masa üzərində. Nə baş verir sualına politoloq Ərəstun Oruclu ilə söhbətimizdə cavab aramağa çalışdıq. Bu istiqamətdə ona verdiyimiz ilk sualımıza cavabı:**

- Hansısa planların olması barədə cəmiyyətdə çox söz-söhbət dolaşır və artıq konspirasiya nəzəriyyələri, mülahizələr baş alıb gedir. Mən bunu qəbul etmirəm. Çünki real siyasət haqqında danışmaq lazımdır. Real siyasətin isə maraqlar, hədəflər, məqsədlər üzərində qurulduğu bəllidir. Yaxın Şərqdə, Ukraynada baş verənlər şübhəsiz ki, bu və ya digər dərəcədə bir-biri ilə əlaqəlidir. Çünki bugünkü dünyanın özü qloballaşan bir dünyadır və artıq hansısa bir məkanı, bölgəni ayrıca götürmək qeyri-mümkündür. Təbii ki, nəzəri cəhətdən mümkündür. Amma praktik baxımdan yanaşdıqda görürük ki, bir-biri ilə sıx əlaqəsi var. Məsələn, götürək Suriya münaqişəsini. Açıq şəkildə gördük ki, Qərblə Rusiya üz-üzə gəldilər. Bu, maraqların toqquşması idi. Eynilə Ukraynada həmin oyunçular üz-üzə gəldilər. Amma söyləmək ki, bu, hansısa böyük bir plandır və onu kimlərsə həyata keçirir, hansısa qüvvə dərinlikdə gizlənib, hər şeyi idarə edir, bu, absurddur. Bu absurdlar da Azərbaycanda ayaq alıb gedib. Təəssüf ki, bir çox hallarda KİV-lərdən mənə belə şərhlər verməklə bağlı müraciətlər olur. Deməli, söhbət hansısa böyük planlardan və onların reallaşdırılmasından yox, maraqların toqquşmasından gedir. Ona görə də məsələyə real siyasət çərçivəsindən baxmaq lazımdır. Deyək ki, Suriya və Ukrayna münaqişəsində pərdəarxası və ya açıq iştirak edən tərəflər eyni olsa da, burda söhbət müxtəlif maraqlardan gedir. Deyək ki, Suriya məsələsində Qətər və Səudiyyə Ərəbistanı İordaniya, Suriya və Türkiyədən keçməklə Avropaya qaz kəməri çəkmək istəyirdi, Rusiya bunun qarşısını almaqda maraqlı idi. Bu da son nəticədə Suriyanın xarabalığa çevrilməsinə, çox ağır, faciəvi nəticələrlə müşayiət olunan bir vətəndaş müharibəsinə gətirib çıxarıb. Ukraynada da eynilə həmin o geosiyasi maraqlar idi. ABŞ və Avropa ilə Rusiyanın maraqlarının toqquşması baş verdi.

***- Ukrayna səmasında mülki təyyarəsinin vurulmasının şərhi zamanı tarixə də istinad olunur və Cənubi Koreya təyyarəsinin 80-ci illərdə vurulması hadisəsinin SSRİ-nin dağılmasını tezləşdirdiyi xatırlanır. Budəfəki olay Rusiyanın da çöküşünü şərtləndirə bilərmi?***

- Mənə elə gəlir ki, bu, bir qədər uğursuz analogiyadır. Bu iki hadisəni bir-birindən fərqləndirən ciddi detallar var. Cənubi Koreya təyyarəsi əvvələ, SSRİ hava məkanına daxil olmuşdu, hətta SSRİ Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələrinin enmək əmrini icra etməmişdi. Lakin Cənubi Koreya ekipajı əmrə tabe olmadıqda vurulmaqla bağlı qərar verilmişdi. O, SSRİ hava məkanında vurulmuşdu, iddia olunurdu ki, casusluq fəaliyyəti ilə məşğul imiş. İkinci halda isə biz müstəqil dövlət olan Ukraynanın ərazisindən, beynəlxalq sazişlərə əsasən razılaşdırılmış hava dəhlizi üzrə hərəkət edən Malayziya təyyarəsinin terrorçular və diversantlar tərəfindən vurulmasının şahidi olduq. Artıq o diversantların arxasında Rusiyanın dayandığı faktlarla sübut olunur. Rusiya siyasəti onlara açıq dəstək verir, bunu gizlətmirlər də. O diversantların böyük əksəriyyəti də məhz Rusiya vətəndaşıdır.

***- Bu hadisə Rusiyaya qarşı ciddi və qarşısıalınmaz təzyiqlərin işə salınmasını, son nəticədə Putin siyasətinin iflasını şərtləndirən hadisə olacaqmı?***

- Düzü, güman etmirəm. Şübhəsiz ki, bu, Rusiyaya təzyiqləri gücləndirəcək. Təzyiqlər onsuz da çoxdur, sanksiyalar getdikcə artır. Kremlin Ukrayna siyasəti artıq Rusiyaya çox baha başa gəlməyə başlayır. Bu faktın özü də sanksiyaların gücləndirəcək. Sanksiyaların tətbiqi məsələsində ABŞ faktiki olaraq Avropanı məcbur edirdi. Avropa Birliyi sanksiyalar məsələsində bir o qədər də həvəsli görünmürdü...

***- Rusiya qazına görə...***

- Təbii qazla, ümumiyyətlə, investisiyalarla bağlı idi. Avropa Birliyi ilə Rusiya bir-biri üçün çox önəmli iqtisadi müttəfiqlərdir. Lakin indi Avropa ölkələri vətəndaşlarının bu təyyarədə əksəriyyət təşkil etməsi şübhəsiz ki, heç də Rusiyanın xeyrinə işləmədi. Avropa Birliyi ölkələri öz ictimaiyyəti qarşısında məcbur olacaq ki, ABŞ-ın mövqeyini qəbul etsinlər. Deməli, bu, Rusiya üçün heç də məqbul qəbul ediləcək hal deyil. ABŞ xüsusi kəşfiyyatının açıqlamasında da birbaşa göstərilir ki, təyyarənin vurulduğu zenit-raket kompleksi Rusiyadan Ukraynaya gətirilib və həmin gecə də geriyə, Rusiyaya qaytarılıb. Dünya indi 80-ci illdəkindən çox fərqlidir və nəzarət imkanları genişdir. Düşünmək ki, Ukraynada rus diversantların fəaliyyət göstərdiyi məkan peyk və digər kəşfiyyat-əməliyyat nəzarətindən kənarda qalmışdı, bu, sadəlövhlük olardı. Ukrayna təhlükəsizlik xidməti də həmin diversantların rus rəsmiləri ilə telefon danışığının da açıqlanması faktdır. Yəni ortada ciddi sübutlar var və bu sübutlardan qaçmaq mümkün olmayacaq. Baxmayaraq ki, üzr istəmək, etiraf etmək, Rusiyanın bu işdə dolayısı ilə iştirakı olub demək əvəzinə, Rusiya XİN başçısı Sergey Lavrov Ukraynanı raket zərbələri ilə hədələyir. Yaxın tarixin təcrübəsi göstərdi ki, bu hədələr işləmir. Çünki söhbət artıq real təzyiq mexanizmlərinin işə salınmasından gedir, ən realı da iqtisadi mexanizmlərdir. Rusiya rəsmiləri deyir ölkə sanksiyalardan heç bir ziyan çəkməyib. Yumşaq desək, qeyri-səmimiliyə yol verirlər. Rusiyaya çox ciddi ziyan dəydi. Amma məncə, Qərb də Rusiyanı çox sıxmaqda maraqlı deyil. Çünki bu, son halda Putin oliqarxiyasının, hökumətinin zəifləməsinə və hərbçilərin siyasətə təsirinin güclənməsinə gətirib çıxara bilər. Bu da Qərbə lazım deyil. Çünki təcrübə göstərir ki, Rusiyada hərbçilərin siyasətə təsiri gücləndikdə bu, dünyada qarşıdurmalara, yeni müharibə və fəlakətlərə, humanitar böhranlara gətirib çıxarır.

***- Bir sıra hallarda beynəlxalq aləm hansısa ölkəni sıxdıqca daxili elektorat xarici düşmənə qarşı daha da barışmaz mövqedə olur və rejimin yanında yer alır. Sizcə, Rusiyada bu tendensiya müşahidə olunacaq, yoxsa Rusiyada anti-Putin hərəkatı baş qaldıracaq?***

- Mənə elə gəlir ki, anti-Putin hərəkatı güclənəcək. Əslində skinhedlər elə anti-Putun hərəkatının tərkib hissəsi idi. Onlar vaxtilə aksiyalar keçirəndə hədəfə aldıqları birinci şəxs də Medvedev hökuməti idi. Burada millətçi-imperialist təfəkkürün xarici təzyiqə qarşı müqaviməti, eyni zamanda daxili hakimiyyətə qarşı yönələcək. Yəni Ukrayna prosesi Rusiya siyasəti üçün təkcə geosiyasi faktor deyil, bu, həm də Rusiyadaxili siyasi mübarizə faktorudur. Faktiki olaraq Rusiya hakimiyyətinin müqəddəratı bu gün Ukraynada həll olunur.

***- Bildiyimizə görə, Azərbaycan bəzi istiqamətlərə uçuşlar zamanı həm də Ermənistan səmasından istifadə edir. Ukraynada 10 min metr hündürlükdən uçan mülki təyyarənin vurulmasından sonra Azərbaycana qarşı düşmən ölkənin də hansısa təhlükə törədə biləcəyindən dolayı narahatlığınız varmı?***

- Bildiyimə görə təkcə Naxçıvana uçuşlar zamanı Ermənistan hava məkanından istifadə olunur. Ermənistan üzərindən keçən hava dəhlizi Beynəlxalq Aviasiya Agentliyi ilə ona üzv olan ölkələrlə razılaşdırılmış koordinatlar üzrə həyata keçirilir. Ona görə də Ermənistan üzərindən uçan Azərbaycan təyyarəsi vurularsa, yaxud təyyarəyə təhdid yaranarsa, şübhəsiz ki, bunun məsuliyyətini Ermənistan daşıyacaq. Çünki Ermənistan hava koridorunun təhlükəsizliyinə təminat vermək haqqında üzərinə beynəlxalq öhdəliklər götürüb. Yox, belə bir hadisə Dağlıq Qarabağ üzərində baş verə bilərsə, - Allah eləməsin ki, baş versin - onda həmin Ukraynadakı mübahisəli məqam yarana bilər. Deyilə bilər ki, burda nəzarətsiz ərazisidir, separatçılardır. Belə olan halda Ermənistan şübhəsiz ki, separatçılardan imtina etməli olacaq. Necə ki, Rusiya Şərqi Ukraynadakı separatçılardan məsafələşməyə məcbur edilib. Beynəlxalq birliyin qarşıya qoyduğu vəzifələrdən biri də budur ki, Rusiya onlardan imtina etsin, ondan sonra Ukraynada öz işini görəcək. Belə bir hadisə artıq Qarabağda olub. 1994-cü il martın 7-də Xankəndi yaxınlığında Dağlıq Qarabağ üzərindən qanuni uçuş həyata keçirən İran nəqliyyat təyyarəsi Qarabağdakı separatçılar tərəfindən vurulmuşdu. Güman etmirəm ki, indi Ermənistana belə bir problem lazımdır. Burada Rusiyanın Şərqi Ukraynadakı siyasəti ilə Ermənistanın Qarabağ mövqeyi arasında əsaslı fərq var. Rusiya hələlik həmin separatçıları açıq himayə eləmir. Amma Ermənistan Dağlıq Qarabağdakı separatçıların adından 20 ildir danışıqlarda iştirak edir. Deməli, Ermənistan o məkana görə də məsuliyyət daşıyır.

***- Ermənistan həm də Xocalı aeroportunu işə salmaqda israrlıdır. Azərbaycan da belə olan təqdirdə təyyarələrin vurulacağı haqda xəbərdarlıq edib. Bu, nə vəd edir?***

- Yaxşı heç nə vəd eləmir. Güman edirəm ki, Azərbaycan rəsmilərinin də “təyyarəni vuracağıq” iddiaları məsuliyyətsiz bəyanatdır. Burda bütün beynəlxalq rıçaqlardan istifadə etmək lazımdır ki, Xocalı aeroportu işə salınmasın. Çünki bu, Azərbaycan ərazisidir və Azərbaycanın razılığı olmadan o, işə salına bilməz. Amma vurmaq və vurmaqla hədələmək artıq təhlükəli tendensiyadır. Çünki bu, çox ciddi beynəlxalq sanksiyaların tətbiqinə gətirib çıxara bilər. Əgər Rusiya boyda dövlətin təyyarə vurmasına görə beynəlxalq birlik qarşısında boynunu büküb dayanmağa məcburdursa, təsəvvür edin ki, belə bir fakt baş verərsə, Azərbaycan hansı vəziyyətə düşə bilər.

***- Kəlbəcərdə tutulan azərbaycanlıların xilas yolu nədədir?***

- Ancaq danışıqlarla, beynəlxalq vasitəçilərin işə qarışması ilə onlar azad olunmalıdır. Azərbaycan nə qədər ki, öz ərazilərinə nəzarət etmir, belə faktlar olacaq. Ermənistanın “diversant” uydurmaları daha çox Ermənistanın daxili siyasətinə hesablanmış bir uğursuz təbliğatdır. Bu, təqribən Tovuzda tutulan 77 yaşlı erməni “diversant”ın məsələsinin eynidir. Hansı diversant gedib düşmənin arxasında mobil telefondan istifadə edər, bu, gülüncdür.

***- Onların yaxalanmasında mobil telefon rol oynayıb, yoxsa ortada satqınlıq-filan faktı olub?***

- Hər halda bəlli olan fakt budur ki, mobil telefondan istifadə olunub və mobil telefon vasitəsilə tutublar. Amma Kəlbəcərin meşələrində erməni xüsusi xidmət orqanlarının bu dərəcədə operativ fəaliyyət göstərərək elə zəngdən dərhal sonra onları tutması suallar doğurur.

***- Bəlkə burda da “rus barmağı” olub?***

- Ola bilsin ki, olub, yaxud ermənilər əvvəlcədən müşahidə ediblər, təmas xəttinin keçiləcəyini biliblər. Açığı, burada suallar çoxdur.

***- Bu yay aləmdə beynəlxalq aləmdə çox isti keçir. Bundan sonrakı prosesləri necə təsəvvür edirsiniz?***

- Hər halda gərginliyin artacağı tendensiyaları görünür. Bu, özünü İsrail-Fələstin münaqişəsində, İŞİD deyilən terrorçu dəstənin İraqdakı fəaliyyətində, Türkiyədəki seçkilər ərəfəsində gərginliyin artmasında, nəhayət, Ukraynada göstərir. Sadaladığım siyasi və geosiyasi hadisələr içərisində ən önəmlisi Ukraynadır. Ukrayna çox ciddi məsələsidir. Çünki Ukraynada baş verənlər bu gün Rusiyada siyasi hakimiyyətin müqəddəratını həll edir. Rusiyada iki böyük daxili güc qarşı-qarşıyadır. Bir tərəfdən Rusiya sərvətlərinin böyük bir hissəsinə nəzarət edən oliqarxiya, digər tərəfdən isə hələ Stalin dönəmlərindən siyasi hakimiyyətə daxili opponent rolunu oynayan ordu və hərbi sənaye kompleksi. İkincinin rolunun artması son aylar açıq görünür. Amma Ukraynada təyyarənin vurulması və Rusiya hərbi kəşfiyyatının bilavasitə bu işlə əlaqəsi onlara qarşı istifadə oluna və mövqelərini zəiflədə bilər. Hər halda unutmayaq ki, son bir neçə həftədə Putin Ukrayna siyasətindən çox sürətlə məsafə saxlamağa başlayıb. Bundan sonrakı mərhələdə Ukraynada əsas fəaliyyət balansı Rusiya hakimiyyətinin hərbi qanadının xeyrinə dəyişmişdi. Deməli, baş verənlərə görə də məsuliyyəti onlar daşıyır...



**“Ermənistan üzərindən uçan Azərbaycan təyyarəsi vurularsa, yaxud təyyarəyə təhdid yaranarsa, şübhəsiz ki, bunun məsuliyyətini Ermənistan daşıyacaq”**

❑ **Elşad PAŞASOY**



# Rayonun simasını dəyişən yol

Zamin HACI
zaminhaci@gmail.com

**"Hər bir yaşayış məntəqəsinin inkişafı onun yolundan başlayır. Müasir və rahat yol sürətli sosial-iqtisadi inkişafın başlıca şərtidir. Füzuli rayonunda da yol infrastrukturunun inkişafı diqqət mərkəzində saxlanılır, kəndlərdə yeni avtomobil yolları çəkilir. Ərazidəki yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və kəndarası yolların asfaltlanması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Son illərdə bu sahədə əldə edilmiş nəticələr insanların rahat gediş-gəlişini təmin etməklə bərabər, rayonun simasını da büsbütün dəyişir».**

Bu fikirlər Füzuli rayonunun Mirzənağılı, Əhmədalılar, Arayatılı, Şükürbəyli, Qarabağ və Birinci Mahmudlu kəndlərini birləşdirən avtomobil yolunun Kərimbəyli kəndindən keçən hissəsində 1,5 km asfalt yolun əsaslı təmirdən sonra istifadəyə verilməsi münasibəti ilə keçirilən açılış mərasimində bildirilmişdir.

Açılışda rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Milli Məclis sədrinin müavini Bahar Muradova, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, yerli icra nümayəndələri, bələdiyyələr və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Açılış mərasimində çıxış edən Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Bildirmişdir ki, yolun əsaslı şəkildə yenidən qurulması dövlət başçısının füzulililərə göstərdiyi qayğının daha bir nümunəsidir.

Milli Məclis sədrinin müavini Bahar Muradova açılışda çıxış etmiş, respublikamızda rayon mərkəzlərinin və kəndarası yolların abadlaşdırıldığını bildirmiş, onların yollarının təmiri və yenidən qurulması istiqamətində ardıcıl iş görüldüyünü qeyd etmişdir.

Sonra Mirzənağılı, Əhmədalılar, Arayatılı, Şükürbəyli, Qarabağ və Birinci Mahmudlu kəndlərini birləşdirən avtomobil yolunun Kərimbəyli kəndindən keçən hissəsində 3000 nəfərdən artıq əhalinin istifadə edəcəyi 1,5 km asfalt yol kənd sakinlərinin istifadəsinə verilmişdir".

Oxuculardan üzr istəyərək bir dostumun publika.az saytından götürüb mənə yolladığı bu materialı olduğu kimi dərc elədim. Çünki mən bunun üstündən nə yazsam, necə analiz eləsəm, zəif olacaq. Bu, həmin təsadüflərdən biridir ki, material özü danışır, gözəllik özü vəsf edir, pianino bəstəkarsız dillənir, zurna qavalsız oxuyur, respublika baş nazirsiz inkişaf edir və sairə və ilaxır. Ancaq hər halda cəhd edək bir-iki kəlmə yazaq, yoxsa tam biabır olarıq, oxucular önündə olan-qalan bir-iki qramlıq hörmətimiz də itər.

İnformasiyanı bir daha oxuyun. Gördüyünüz kimi, Füzuli rayonunda bir kənddən keçən kilometr yarım (1500 metr) yol əsaslı təmir edilib, əhvalat o qədər vacibdir ki, hətta deputatxana sədrinin müavini Bakıdan durub açılışa gedibdir. Ancaq tədbir iştirakçıları yoldan məhz 3000 nəfərin istifadə edəcəyini nə cür dəqiqləşdiriblər? Bəlkə bəzi günlərdə kəndə Bakıdan qonaqlar çox gəldi, 4000 nəfər oldu? Bu zaman yol dağılarmı?

O cümlədən, rayonlarımızda çoxlu gilas, şaftalı, armud, qarpız yetişir, lakin kənd təsərrüfatı naziri nə üçün gilas səbətlərinin açılış törənini yapmır? Təhsil naziri Mikayıl müəllim hər bir şagirdin 5 qiyməti alması münasibətiylə tədbir eləsə pis olarmı? Hər bir kəndarası yolda 2 cüt eşşək arabası görünsə, bu, rayonun simasına necə təsir göstərir? Füzulidə çəkilən min beş yüz metrlik yoldan Ağdamda niyə heç olmazsa beş yüz metri qayırılmamışdır? Tərtərdə su krantının açılışı olanda deputatxana spikeri ora getməlidirmi?

Bunlar hamısı nəzəri suallardır, dövlətçiliyimizi möhkəmləndirən şeylərdir. Yazının sonunda 1,5 kilometr yoldan hazırda istifadə edən 3000 kənd sakinini səmimi qəlbdən təbrik edirəm, arzu edirəm onlar sutkada heç olmazsa 2 dəfə bu yolu o baş bu başa gedib-gəlsinlər ki, kilometraj 3-ü göstərsin, 300 kilometri basıb rayondakı bu möhtəşəm açılışa gedən Bahar Muradovanın qəmli könlü şad olsun.

Yazının lap qurtaracağında bir-iki qarış yeri qalmışdı, ora da Məhəmməd Füzulinin rayondakı həmin yol münasibətiylə yazdığı qəzəldən bir parçanı yerləşdirək:

"Degilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım.
Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Gühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşım".



# Təyyarə terroru Rusiyanı dünyadan təcridə apara bilər

## Sərnişin təyyarəsinin vurulmasında Rusiyanın əlinin olduğu təsdiqlənsə, onu nələr gözləyir?

**Ukrayna Təhlükəsizlik Xidmətində (UTX) Malayziya Hava Yollarına məxsus "Boinq-777" sərnişin təyyarəsinin Rusiyadan Ukraynaya heyəti ilə birgə ötürülən "BUK-M" zenit-raket kompleksi ilə vurulduğunu təsdiqləyən təkzibolunmaz sübutlar var.**

Bu barədə iyulun 20-də Kiyevdə keçirilən brifinqdə UTX Departamentinin rəisi Vitali Nayda bildirib. O deyib ki, UTX-də Rusiya vətəndaşlarının terror aktında iştirakını təsdiqləyən tutarlı dəlillər var: "UTX artıq qeyd olunan sübutları beynəlxalq tərəfdarlarının hamısına təqdim edib. UTX Niderland polisi və bir sıra digər ölkələrin hüquq-mühafizə orqanlarının nümayəndələri ilə birbaşa çalışır".

UTX nümayəndəsi Donetsk vilayətinin Torez şəhərinin küçələrinin birində "BUK-M" zenit-raket kompleksinin və Donetsk vilayətində qeyd olunan komplekslərdən ibarət karvanın fotoşəkillərini nümayiş etdirib. Bundan başqa, Torez şəhəri yaxınlığından raketin Snejnoye qəsəbəsi istiqamətində ("Boinq-777" təyyarəsinin olduğu istiqamətdə) buraxıldığı anın əks olunduğu fotoşəkil də jurnalistlərə nümayiş etdirilib.

V.Nayda qeyd edib ki, UTX raketin buraxıldığı konkret yer artıq müəyyən edilib. Onun sözlərinə görə, həmin sahə hazırda terrorçuların və Rusiya hərbçilərinin tam nəzarəti altında olan ərazidə yerləşir.

V.Nayda həmçinin vurğulayıb ki, Rusiya tərəfi terrorçulara "BUK-M" zenit-raket komplekslərinin hamısının Ukrayna ərazisindən təcili çıxarılmasına dair göstəriş verib. Belə ki, iyulun 18-də gecə saat 02.00 radələrində Luqansk vilayətində Rusiya sərhədini birinin üzərində "BUK-M" raket qurğusunun olduğu iki yedəkli yük maşını keçib. Həmin gün gecə saat 04.00 radələrində dövlət sərhədini daha 3 yedəkli yük maşını keçib. Onlardan biri boş, digərində üzərində 4 raketin olduğu qurğu, üçüncüdə isə idarə modulu olan döyüş maşını olub.

V.Nayda Rusiyanın Ukrayna səmasında törədilən terror aktında birbaşa iştirakının sübutlarını gizlətməyə çalışdığını vurğulayıb.

Ukraynanın Təhlükəsizlik Xidmətinin başçısı Valentin Nalivayçenko da brifinq keçirərək bildirib ki, Malayziyanın sərnişin təyyarəsi separatçı "Donetsk Xalq Respublikası"nın terrorçuları tərəfindən "BUK-M" zenit-raket qurğusu ilə vurulub.

Onun sözlərinə görə, bu dəhşətli qurğu terrorçulara Rusiya tərəfindən çatdırılıb. Brifinqdə məlumat verərkən Nalivayçenko deyib: "14 iyulda ilk xəbər yayılıb ki, artıq terrorçularda "BUK" qurğusu var. Amma bu xəbərin təsdiqi üçün əlimizdə dəlil yox idi. İyulun 17-də faciə baş verən günü "BUK" qurğusunun ekipajı ilə birlikdə Suxodolsk tərəfdən terrorçulara çatdırıldığı barədə dəqiq məlumat aldıq. Həmin gün Rusiyadan 3 ədəd SAU "Qvozdinka" da göndərilib. Bundan başqa, sərhədçilərimiz tərəfindən 2 nəfər Rusiya vətəndaşı da saxlanılıb. Onlardan birinin hərbi biletində ixtisasının "Atəşaçma üzrə korrektorçu" olduğu yazılmışdı".

Təyyarənin vurulmasında Rusiyanın əlinin olmasını artıq ABŞ, hətta son dövrlər Kremllə isti münasibətlərdə olan bir sıra böyük dövlətlərin də liderləri dilə gətirir. Məsələn, Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan bildirib ki, Malayziyanın sərnişin təyyarəsi Rusiya tərəfindən vurulub. Ərdoğan bildirib ki, Malayziyaya məxsus sərnişin təyyarəsi Rusiya tərəfindən Ukraynanın hava sahəsində raketlə vurularaq salınıb: "Nə vardı bu təyyarədə? Hollandiyadan Malayziyaya uçan təyyarə Ukrayna hava sahəsində vurulur. Bu, necə yanaşmadır, bu, necə anlayışdır? Bəs dünyada sülh üçün çalışacaqdıq?"

Böyük Britaniyanın baş naziri Devid Kemeron da bəyan edib ki, əgər Malayziyaya məxsus "Boeing 777" təyyarəsi separatçılar tərəfindən vurulubsa, bunun məsuliyyəti Rusiya üzərindədir.

Bundan əvvəl Kemeron və Niderlandın baş naziri Mark Rütte Avropa İttifaqına müraciət edərək təyyarənin vurulmasından sonra Avropa Birliyinin Rusiyaya yanaşmasının yenidən baxılmasını xahiş ediblər. Daha sonra Böyük Britaniyanın müdafiə naziri Maykl Felon Rusiyaya qarşı əlavə sanksiyaların tətbiq edilləcəyinin mümkünlüyünü qeyd edib.

Beləliklə, beynəlxalq səviyyədə dilə gətirilir ki, 300-ə yaxın insanın məhvinə səbəb olan terroru Rusiya tərəfindən dəstəklənən separatçılar vurub. Artıq beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən birmənalı olaraq qəbul edilən informasiyaya görə təyyarə Rusiya tərəfindən dəstəklənən separatçı və terroristlərin nəzarəti altında olan ərazidən yerdən atılmış "BUK" zenit-raket kompleksi ilə vurulub. Artıq həmin raketlərin separatçı və terroristlərə Rusiya tərəfindən verilməsi Ukrayna kəşfiyyat orqanları tərəfindən dəqiqləşdirilib və kimsədə şübhə doğurmur.

Prosesin gedişatından belə görünür ki, təyyarə vurulması məsələsi Rusiya üçün arzuolunmaz situasiya yarada bilər. Nəzərə alsaq ki, təyyarədə ölənlərin 23 nəfəri ABŞ, digərləri isə AB vətəndaşlarıdır, bu hal Rusiyanı çox çətin vəziyyətə salacaq. Politoloq Vəfa Quluzadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, terror hadisəsində Rusiyanın əli olduğu rəsmi təsdiqlənəcəyi halda Rusiyaya çox ciddi beynəlxalq sanksiyalar tətbiq edilənəcaq: "Əslində Rusiya Krımı işğal etməklə təcrid olunmağa doğru gedirdi. Rusiya Ukraynanın cənubunda-Avropanın mərkəzində faktiki olaraq müharibə aparır. İndi təyyarə vurulmasında Rusiyanın iştirakı öz təsdiqini tapsa, sübut olunsa bu, Putin rejiminin tam təcrid olunmasına aparıb çıxaracaq. Hesab edirəm ki, bu boyda ləkə ilə Putin özü hakimiyyətdə qala bilməz. Təyyarənin vurulmasında Rusiyanın əlinin olması beynəlxalq səviyyədə öz təsdiqini tapsa, Putin iqtidarı qərar verməlidirlər ki, nə etməlidirlər? Ya Rusiya bu rejimə görə təcrid olacaq, ya da Putin öz komandası ilə hakimiyyətdən getməlidir. Əgər rejim axıra qədər müqavimət göstərsə, o zaman Rusiyanı çox böyük təhlükələr gözləyir. Artıq dünya birləşərək bu rejimin əleyhinə mübarizə aparacaq. Çünki Putini dəstəkləyənlərin indi heç bir bəhanəsi qalmadı. Nə Fransa prezidenti Olland, nə də Almaniya kansleri Merkel Putinlə əməkdaşlıq edə bilməyəcək. Odur ki, Putin rejimi ya ölkəsini çökdürəcək, ya da hakimiyyətdən gedəcək".

V.Quluzadə onu da vurğuladı ki, məsələ sübuta yetsə, Rusiya Beynəlxalq Haaqa Məhkəməsinə də verilə bilər: "Bunun üçün Avropa Birliyi və ABŞ birlikdə qərara gəlməlidirlər. Artıq ittihamlar səslənir ki, təyyarənin vurulması bəşəriyyət əleyhinə olan cinayətdir. Yəni Hitlerin işlətdiyi cinayətlərə bərabər cinayətdir. Müəmmər Qəddafi Parisdən Şotlandiyaya gedən sərnişin təyyarəsini terrorçulara pul verərək vurdurmuşdu. Sonra isə etiraf etmişdi. Bu cinayətini ona bağışlamadılar. Qəddafinin axırının necə olduğu bəllidir".

Ancaq hələlik Rusiyanın bu etirafı görünmür. Bir çox ekspertlər hazırkı vəziyyəti 1983-cü ildə SSRİ tərəfindən vurulan Cənubi Koreyanın təyyarəsi ilə müqayisə edirlər. 1983-cü ildə Koreyadan Amerikaya uçan sərnişin təyyarəsini vurub okeanda batırdılar. O vaxt prezident ABŞ prezidenti Reyqan Sovet ittifaqını bəlalar imperiyası adlandırdı və onu məhv etmək üçün əlindən gələni edəcəyini elan etdi. Reyqan vədinə əməl etdi, bu gün sovetlər imperiyası yoxdur. Ancaq tarix göstərdi ki, həmin bəla imperiyasının ən yekə başı hələ də sağdır.

Azərbaycanın aparıcı müxalifət partiyası Müsavat da təyyarənin vurulmasının planlı şəkildə insanlığa qarşı yönəlmiş cinayət olduğunu bəyan edib. Bu barədə yaydığı bəyanatda Müsavat Partiyası bildirib ki, hadisənin beynəlxalq qurumlar tərəfindən müstəqil şəkildə araşdırılmasını vacib hesab edir. Müsavat faciənin baş verməsinə şərait yaradanların, bu işdə rolu olan şəxslərin və dövlətlərin tapılmasını və onların Beynəlxalq Haaqa Məhkəməsində insanlığa qarşı cinayət maddələri ilə beynəlxalq hüquq normalarına əsaslanaraq cəzalandırılmasını tələb eləyib.

**Etibar SEYİDAĞA**

# ABŞ bölgədəki müttəfiqlərini qorumağa çalışır

**Toğrul İsmayıl: "Qanun reallaşarsa, Amerika təkbaşına bu ölkələrə hərbi kontingent göndərmə fürsəti qazanacaq"**

**Elxan Şahinoğlu: "Özünü superdövlət elan edibsənsə, buna uyğun da siyasət yürütməlisən"**

**Xəbər verdiyimiz kimi, ABŞ Konqresinin Nümayəndələr Palatası Rusiya təcavüzünün qarşısının alınması barədə qanun layihəsini ikinci oxunuşda qəbul edib. Qanun layihəsi Ukrayna, Gürcüstan və Moldovaya NATO üzvü olmadan da ABŞ-ın müttəfiqi statusu verilməsini nəzərdə tutur.**



Ukrayna, Gürcüstan və Moldovadan başqa, Azərbaycan, eləcə də Bosniya, Serbiya, Monteneqro, Makedoniya və Kosovo təhlükəsizliyin təmin olunması və ABŞ Silahlı Qüvvələri ilə qarşılıqlı əməkdaşlıq üçün ABŞ-dan kömək ala biləcəklər. Siyahıda Ermənistanın adı yoxdur.

Qeyd edək ki, bu qanun hər üç postsovet respublikasının ABŞ-ın hərbi müttəfiqi statusu alması və bununla da təhlükəsizlik təminatı əldə etməsidir. Nəzərə almaq lazımdır ki, sözügedən hər üç respublikada separatizm fəaliyyətləri nəticəsində ərazilərin bir qismi nəzarətdən çıxıb. Daha bir məqam isə bu respublikalarda separatizmin məhz Rusiya tərəfindən himayə olunmasıdır.

Mövzunu "Yeni Müsavat"a şərh edən TOBB İqtisadiyyat və Texnologiyalar Universitetinin (Ankara) dosenti, politoloq Toğrul İsmayıl deyir ki, Gürcüstan, Moldova və Ukraynanın NATO-ya üzv olmaq imkanı olmadığından ABŞ yeni bir yol axtarır. Ekspertə görə, qanun qəbul olunsa, ABŞ-ın bu ölkələrdə hərbi iştirakı güclənəcək: "Məsələ hələ ABŞ Senatında müzakirə edilməlidir. Burda əsas məqsəd NATO-ya bağlı olmadan bu ölkələrə hərbi yardım etmək imkanı əldə etməkdir. ABŞ-ın NATO-dakı müttəfiqləri bu cür məsələlərdə çox da operativ olmadığı üçün Vaşinqton bu qərara qol qoydu. Əgər qanun reallaşarsa, o zaman ABŞ özü təkbaşına bu ölkələrə hərbi yardım, eyni zamanda hərbi kontingent də göndərmə fürsəti qazanacaq".

T.İsmayıla görə, bu həm də ABŞ-ın bu bölgədə öz oyununu təkbaşına oynamaq istəməsinin xəbərçisidir. Ekspertə görə, ABŞ-ın buna gücü çatar, ancaq eyni zamanda bu, bölgəmizdə geosiyasi oyunun məzmununun dəyişdiyini göstərir: "Qanun Rusiyanı qıcıqlandıracaq. Əslində Rusiya prezidentinin Latın Amerikası ölkələrinə səfəri və görüşləri bəlkə də bu planın həyata keçməsini sürətləndirdi. Sadəcə onu dəqiq demək olar ki, Qara dəniz - Qafqaz bölgəsində rəqabət getdikcə qızışır". T.İsmayılın fikrincə, Azərbaycanın bu proseslərdən kənarda qalması imkansızdır: "Artıq Azərbaycandan mövqe ortaya qoyması tələb olunacaq. Daha əvvəl tərəfsiz və balanslı siyasət kimi görünən bəzi proseslərin ömrü bitməkdədir".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ABŞ-ın bu addımının gözlənilən olduğunu deyir. Ekspertə görə, Vaşinqton bu yolla bölgədəki müttəfiqlərini qorumağa çalışır: "Çünki Ukraynadakı vətəndaş müharibəsi və Moskvanın bu ölkələrdəki separatçılara verdiyi dəstək göstərir ki, Rusiya əvvəlkitək qonşu ölkələri öz arxa bağçası hesab edir. Vaşinqtonda düşünürlər ki, Ukraynaya ciddi dəstək verilməsə, Rusiya gələcəkdə də bu ölkəni müxtəlif yollarla parçalamağa çalışacaq. Ona görə də Vaşinqton bu həddə gəlib çıxmadan Ukraynaya müttəfiq statusu verdi. Bu isə Kremlə mesajdır ki, Moskva əvvəlki tək Ukraynanı hədəf götürsə, qarşısında ABŞ-ı görəcək. Eyni sözləri Moldova və Gürcüstana da şamil etmək olar".

E.Şahinoğlu deyir ki, qanun layihəsi uğurlu addım olsa da, bunun arxasınca praktiki addımlar atılmalıdır: "Yəni sabah elə olmasın ki, bu dövlətlər Rusiyanın növbəti hiyləgər planları ilə üz-üzə qalsınlar. Məsələn, hazırda Ukrayna hakimiyyəti ABŞ-dan yüksək texnoloji silahlar xahiş edir. Hələ ki, Ağ Ev həmin silahları Ukraynaya verməyə tələsmir. Bu isə Ukrayna hakimiyyətində və cəmiyyətində istər-istəməz ruh düşkünlüyü yaradır. ABŞ Ukrayna, Gürcüstan və Moldovadan məsafəcə uzaq olsa da, bu dövlətlər vəd etdiyi dəstəyi verməsə, Rusiya boşluqdan yararlanaraq daha çox adı çəkilən dövlətlərin üzərinə gedəcək".

E.Şahinoğlunun qənaətincə, AB bu məsələlərdə xeyli dərəcədə ləngdir, ABŞ-ın daha çevik və praktik addımları mümkün olsa da, hər şey Obamanın reaksiyasından asılı olacaq: "Demokrat Barak Obama da astagəldir, müttəfiqlərini kifayət qədər dəstəkləmir. Onun düşüncəsi bundan ibarətdir ki, necə edim ki, hansısa müharibəyə qoşulmayım. Ancaq real dünyada bu mümkün deyil. Əgər özünü superdövlət elan edibsənsə, buna uyğun da siyasət yürütməlisən. Rusiya Ukraynada bildiyini edir və hələ ki, bu məsələdə də Vaşinqton Rusiyanın planlarını əngəlləyə bilmir. Hansısa dövləti müttəfiq elan etmək işin yarısıdır, həmin müttəfiqi əməli şəkildə də qorumaq lazımdır".

❑ **KƏNAN**

# Türkiyə dollardan imtina edir?

**Samir Əliyev:** "Dollarla hesablaşmalardan imtina problem yarada bilər"



Türkiyə tərəfi Rusiyaya xarici ticarətdə qarşılıqlı hesablaşmalar zamanı milli valyutalardan istifadəni təklif edib. Musavat.com-un Rusiya informasiya qaynağına istinadən verdiyi məlumata görə, bu barədə Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidmətinin yaydığı açıqlamada bildirilir.

Məlumatda təklifin nazir Aleksey Ulyukayevlə Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçi arasında Avstraliyada "20-lərin biznesi" çərçivəsində keçirilən görüş zamanı səsləndirildiyi deyilir. Müşahidəçilərə görə, Rusiya xarici ticarət hesablaşmalarında milli valyutalara keçmək məsələsini Ukraynaya görə Qərblə münasibətlərin soyumasından sonra ABŞ dollarından asılılığı azaltmaq niyyəti ilə ortaya atıb. Həmçinin bir neçə ay əvvəl Rusiya və Çin arasında ticarətdə ABŞ dollarından istifadə edilməyəcəyi barədə razılıq əldə olunub. Rəsmi Moskva və Pekin uzun müddət idi ki, iki ölkə arasındakı ticarətdə ABŞ dollarının dominantlığına son qoymaq istəyirdi. Ukrayna hadisələrinə görə ABŞ-ın Rusiyaya qarşı sanksiyalar tətbiq etməsi Moskvanın belə addım atmasına səbəb olub.

Ekspertlərin fikrincə isə, ABŞ sanksiyalarının tətbiqi təqdirində Rusiya başqa valyutanın istifadəsinə keçməklə yeni hesablaşma-ödəniş sistemi yaratmağa məcbur ola bilər. Digər qisim ekspertlər vurğulayırlar ki, Rusiya rəsmilərinin dollardan imtina ilə bağlı açıqlamaları sadəcə, siyasi bəyanatdır. Çünki dünyada əməliyyatların əksəriyyəti sivil sistem üzərində qurulur. Bu zaman dünyada qəbul olan, yəni dollar, avro, funt sterlinq, ya da İsveçrə frankı kimi konvertasiya olunmuş valyutalardan daha çox istifadə olunur. Dövlətlərarası müqavilələr bağlanarkən, ticarət əlaqələri qurularkən məhz bu valyutalardan, əsasən də ABŞ dollarından istifadə olunur. Rusiya yalnız MDB ölkələri ilə ticarət əlaqələrini öz milli valyutaları, yəni rus rublu ilə həyata keçirə bilər. Azərbaycandan satılan məhsullara görə rus rublu, Azərbaycana satılan məhsullara görə manatla ödəniş etmək mümkün olardı. Amma sonradan həmin valyutalar onsuz da beynəlxalq birjalarda yenidən daha stabil, dünyada qəbul olunmuş valyutalara çevriləcək. Bunun arxasında duran əsas məqsəd rus rublunu gələcəkdə bütün MDB məkanında vahid ödəmə vasitəsinə çevirməkdir.

Ekspertlərin bir qismi yaxın gələcəkdə Rusiyanın dollardan imtina niyyətinin gerçəkləşməyəcəyini də vurğulayıblar. Bildirilir ki, bunun üçün uyğun şərtlər mövcud deyil. Ekspert Samir Əliyev isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Türkiyə ilə bağlı xəbərlərin həqiqiliyinə şübhə etməyə əsas var: "Bu gün mətbuatda Türkiyə ilə Rusiya arasında tərəfdaşlığın genişləndirilməsinə dair məlumatlar dolaşır. Bu əməkdaşlıq Rusiya ilə hesablaşmalarda dollardan imtina və Türkiyənin Gömrük İttifaqı ilə əməkdaşlığının genişləndirilməsi kimi məsələləri əhatə edir. Məlumatlar daha çox Rusiya mətbuatının məhsulu kimi ortaya çıxır. Türkiyə tərəfdən bu məlumatların nə təsdiqi, nə də təkzibinə rast gəlinmir. Buna görə də bu xəbərin həqiqiliyi şübhə altındadır. İki ölkə arasında xarici ticarətdə dollardan imtinaya gəlincə, bu, inandırıcı gəlmir. Türk lirəsi dollara bağlı valyutadır. Dollarla hesablaşmalardan imtina problem yarada bilər. Milli valyuta ilə hesablaşmalar türk lirəsini bahalaşdıra bilər ki, bu da arzuolunan hal deyil".

❑ **Röya RƏFİYEVA**

# Qızmar yayın səhra siyasəti...



**Hüseynbala SƏLİMOV**

**Bizə elə gəlir ki, siyasət də havadan asılıdır. Əgər istidirsə yalnız dənizə getmək olar. Amma dünyada elə proseslər var ki, onlara diqqət yetirməmək, bu hadisələri izləməmək mümkün deyil. Bu mənada onsuz da həmişə diqqətdə olan, heç bir vaxt arxa plana keçməyən Yaxın Şərq münaqişəsi yenidən siyasi gündəmin ön cərgəsinə keçdi.**

Amma əvvəlcə bir siyasi illüziya haqqında danışmaq istərdik. O illüziya haqda ki, ona uzun müddət inanmışdıq. Söhbət soyuq müharibədən və onun 20-ci əsrin böyük etnik və ərazi münaqişələrinə təsirindən gedir.

Soyuq müharibənin bitməsini bir çox problemlərin çarəsi bilirdik. Güman edirdik ki, soyuq müharibənin bitməsi Yaxın Şərq, ərəb-İsrail münaqişəsinə də təsirini göstərəcək. Hətta bu təsiri müjdələyən bir neçə yazı da yazmışdıq.

Amma gümanımız düz çıxmadı. Soyuq müharibə bitdi, dünya hətta növbəti soyuq müharibə haqda danışmağa başladı, amma peyğəmbərlərin torpağına-Yaxın Şərqə dinclik və rahatlıq, sülh və əmin-amanlıq gəlmədi.

Məlum oldu ki, ərəb-İsrail münaqişəsi yalnız böyük güclərin, böyük dövlətlərin iradəsinin məhsulu deyil, bu münaqişədə elə ciddi məqamlar var ki, onların aradan qaldırılması münaqişə iştirakçılarının özündən, onların xoş məramından asılıdır...

Bəzən həmin məntiqlə düşünürük ki, Qarabağ problemi də sırf Rusiyanın iradəsinin məhsuludr. Təbii ki, belə gümanlara varmaq üçün müəyyən əsaslar var və bu məntiq siyasi reallıqdan tamam kənarda da deyil.

Amma dəfələrlə elə situasiyalar yaranıb ki, münaqişənin həllinin ölü nöqtədən tərpənməsi imkanı olub, bunun üçün yalnız münaqişə içtirakçılarının, xüsusən də Ermənistanın xoş iradə göstərməsinə bir ehtiyac olub. Amma bu, baş tutmayıb, alınmayıb, çünki xoş iradə nümayiş etdirmək istəyi olmayıb.

Sözsüz ki, keçmiş SSRİ-nin və indi də Rusiyanın bir çox münaqişələrin yaranmasında və inkişafında müəyyən rolu var və olub. Ən azı indi Ukraynanın şərqində cərəyan edən proseslər buna sübutdur. Amma bəzi hallarda münaqişədə olan xalqların iradəsi hər şeydən üstündür. Onlar isə bu iradəni nümayiş etdirmirlər...

Yaşı çoxdan yarım əsri keçmiş Yaxın Şərq münaqişəsinə baxanda da görürsən ki, hələ dialoq və komromiss məntiqi tərəflərə hakim kəsilməyib. Tərəflər hələ də qəbul edə bilmirlər ki, bu münaqişənin yaranmasına gətirib çıxaran tələblər çərçivəsində onun həllini axtarmaq tamam mənasız işdir, hamı həmin tələblərdən bir addım geri çəkilməli və komromiss haqqında düşünməlidir. Amma bu, hələki alınmır.

Nəticədə nə baş verir? Bu torpaq heç kimə-nə fələstinlilərə, nə də yəhudilərə xoşbəxtlik gətirmir. Hər iki tərəfdə insanlar hər an terrorun, raket hücumunun qurbanı olmaq qorxusu altında yaşayırlar.

İsrailin bir şəhərini göstərirdilər. Toya toplaşmış insanlar həyəcan siqnalını eşidən kimi gizlənməyə yer axtardılar. Bir neçə il bundan əvvəl orta statistik azərbaycanlıya bunu duymaq çətin olardı. Amma indi bunu azərbaycanlılardan yaxşı duyan xalq tapmaq çətin olardı - ona görə ki, Ermənistanla sərhəd rayonlar daim atəş altında olur, böyüklər və uşaqlar daim ölüm təhlükəsilə üzbəüz olurlar.

Bu münaqişədə hansısa tərəfə haqq qazandırmaq, ona üstünlük vermək fikrindən uzağıq. Amma bəzi detalları qeyd etməyə məcburuq. Münaqişə yeni fazaya qədəm qoymaq ərəfəsində fələstinlilər çox nikbin görünür, hətta HAMAS-ı özlərinin xilaskarı adlandırırdılar. Bir ara atəşkəs də elan olundu, amma cəmi altı saat çəkdi.

İndi İsrail Qəzzada yerüstü əməliyyatlara başlarkən müsəlman dünyasında bir həyəcan hiss olunur. Düşünürük ki, HAMAS-ın da istədiyi elə bu idi.

Münaqişənin həlli İsrailin dövlət kimi mövcud olmaq hüququnun etirafından, Qüdsə münasibətdən və bir də siyasi radikallıqdan çəkinməkdən keçir.

Qüdsün fələstinlilər üçün də nə qədər önəm kəsb etdiyinin fərqindəyiq. Amma dini baxışlara görə ərəblər və yəhudilər qohum millətlərdir.

Qüds həm də hər iki tərəf üçün sakral məzmun kəsb edir. Hətta bu, bir qədər mistikləşmiş münasibətdir. Bəzən bu mistika sərhəd tanımır-bir dəfə bir ciddi İsrail müəllifinin yazısından oxuduq ki, Qüds Allahla təmasda bulunmaq üçün Yer üzərində ən əlverişli yerdir!

Kim bilir? Bəlkə də belədir? Amma müqəddəslərdən hamıya pay düşür...

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

# Məşhur həkimin qətlinin cinayət dosyesi
# "Yeni Müsavat"da - film kimi hekayət
## Cavid Həmişəyevin həyatına son qoyan qatilin şok ifadəsi

**Ötən il mayın 25-də paytaxtın Nərimanov rayonu, Həsən Əliyev küçəsi, ev 92, mənzil 8 ünvanında tibb elmləri namizədi, ürək-damar cərrahı, Tibb Universitetinin nəzdində fəaliyyət göstərən müalicə klinikasının kardiologiya şöbəsinin müdiri, 1977-ci il təvəllüdlü Cavid Həmişəyev vəhşicəsinə öldürülüb. Az sonra istintaqçılar bu qətli törədənlərin izinə düşdü və üç şəxs - Türkan Bağırlı, Yasin Ərəbov və Koroğlu Məmmədov ələ keçdilər.**

2014-cü il iyunun 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində bu səs-küylü qətldə təqsirləndirilən adıçəkilən şəxslərin cinayət işi üzrə proses başlayıb.

Hər üç şəxs tamah məqsədi ilə qəsdən adam öldürməkdə ittiham olunurlar. Prosesin ilk günlərində C.Həmişəyevin atası Zaməddin Həmişəyev KİV-lərə bildirib ki, onun oğlunun qətlə yetirilməsini gəlini İradə Orucova sifariş verib. İ.Orucovanın nümayəndəsi, tanınmış vəkil Aslan İsmayılov isə Z.Həmişəyevin söylədiklərinin həqiqət olmadığını, onun qətlə yetirilmiş oğlunun əmlakına sahiblənmək üçün gəlininə şər atmaqdan çəkinmədiyini söyləyib. Bəs əslinə nə baş verib? Tutulan şəxslər istintaqa nə deyiblər? Qısa müddətə cinayətin üstünü açan müstəntiqlər işdə sifarişçi olub-olmamasını müəyyən ediblərmi?

“Yeni Müsavat” əməkdaşı bu suallara aydınlıq gətirmək üçün istintaq materiallarını əldə edib. Həmin materiallar arasında cinayətin törədilməsi, onun motivləri aydın şəkildə göstərilir. Ötən saylarımızdan birində təqsirləndirilən Türkan Bağırlının müstəntiqlərə verdiyi ifadəsini dərc etmişdik. Bu sayımızda Koroğlu Məmmədovun istintaqçılara verdiyi ifadəni təqdim edirik:

“Mənə verilən suallara cavab olaraq göstərə bilərəm ki, mən 1994-cü ildə Naxçıvanda anadan olmuşam, təxminən 10 ildir Bakı şəhəri, Buzovna qəsəbəsində ikiotaqlı evdə yaşayırıq. 2009-cu ildə mən və anam Gülnaz Məmmədova Qazaxıstana Almatı şəhərinə işləməyə getdik. 2010-cu ildə oradan qayıtdıq. Qayıdandan sonra evimizi bir qədər artırdıq. Hazırda orada mən, atam-anam, üç bacı və dörd qardaşım yaşayırıq. Mən fəhləlik edirəm, sonuncu dəfə Qüllədə işləmişəm, ordan çıxandan təxminən son 2 ay ərzində heç bir yerdə işləmirəm.

2013-cü ildə təxminən 1-2 ay əvvəl Bakı şəhəri Əhmədli metrosunun yanında “Elit” kafesində bir Emiliya adlı qızla tanış oldum. Onunla tanış olanda o kafedə ofisiant işləyirdi. Həmin vaxtlarda Emiliyanı Türkan kimi çağırırdılar. Onunla tanış olandan sonra Türkan yəhudi olmasını, ailəsi olmadığını, lakin əvvəllər yaşamış olduğu bir şəxsdən uşağı olduğunu dedi. Türkan danışdı ki, uşağını Moskvada qoyub gəlib, guya burda sənədlərini oğurlayıblar, indi geri qayıda bilmir. O, mənimlə çox mehriban davranırdı və bir neçə gündən sonra onunla faktiki ər-arvad kimi yaşadıq. Daha doğrusu, mən ona birgə yaşamağı təklif etdim, o da mənə dedi ki, soğan-çörək də yeyərəm, təki səninlə olum. Mən əvvəl ona mənimlə yaşadığım evə getməyi təklif etdim. Türkan razılaşdı və onu evimizə apardım. Ata-anam bizi görəndə əvvəl bu qızı bəyənmədi, amma mən ona çox bağlandığım üçün onu ata bildim. Təxminən 15 gün bizim evdə qaldı, mən orada onunla ər-arvad münasibəti ilə yaşadım. Sonra o, mənə dedi ki, bəs məni saxlayırsan, amma sənin pulun yoxdur. Belə-belə o, mənə danışdı ki, yaxşı pul qazanmaq istəsəm, o, mənə yolunu deyə bilər. Mən əvvəl ona fikir vermirdim, lakin sonra o, məni şirin dillə yoldan çıxardı. Türkan mənə dedi ki, bəs bir nəfər adam var, onu çoxdan tanıyır, bir neçə dəfə görüşüblər. Mən Türkandan soruşdum ki, həmin adamla əlaqədə olmusanmı? Dedi ki, yox, olmamışam. Mən inanmadım. Onda Türkan mənə dedi ki, həmin adamın kişiliyi zəifdir, o qadınlarla ehtirasını başqa formada yola verir. Əvvəl Türkan dedi ki, həmin adamla görüşsün və bu zaman hər ikisi lüt olmaqla şəkilləri çəkilsin. Sonra həmin adamı şantaj edib ondan bu şəkilləri ailəsinə və internetə çıxarmaqla hədələyib ondan çoxlu pul almaq olar. Amma mən razılaşmadım və dedim ki, bu, kişiyə yaraşan iş deyil. Onda Türkan dedi ki, gəl onu öldürək. Əvvəl razılıq vermirdim".

**“Türkan bıçağı mənə verdi...”**

K.Məmmədov deyib ki, sonradan bu təkliflə razılaşıb: “Türkan dedi ki, onun ”ML" cipi də var, ala bilsək, yaxşı pula sata bilərik. Amma əgər onun əlindən pulları və maşını alandan sonra öldürməsək, o, Türkanı artıq tanıyır, onda işlər pozulacaq. Təxminən 10 gün əvvəl mən Türkanla razılaşdım və bu barədə bibim oğluna dedim. Türkan əvvəl məni Bakı şəhəri, Həsən Əliyev küçəsi, 92-ci binanın yanına gətirdi. Burda Türkan bildirdi ki, 3-cü mərtəbədə 8-ci mənzildə həmin adamla görüşür, o, ixtisasca həkimdir, adı da Caviddir. Arada bir dəfə Türkan mənə həmin evə gedib baxmağı təklif elədi və ora gələndə orada onunla əlaqədə oldum. Evin açarı Türkanda vardı, özünün deməsinə görə, guya Cavid evi ondan ötrü kirayələmişdi. Ev iki otaqlı xırda bir ev idi. Mən hər şeyi ölçüb biçəndən sonra bu günə razılaşdıq və bu barədə əvvəldən bibim oğluna da xəbərdarlıq etdim.

Həmin gün saat 14-15 radələrində mən Yasin və Türkanla birlikdə həmin ünvana gəldim. Gəlməzdən əvvəl mənim mağazadan aldığım bıçağı Türkana vermişdim, bibim oğlu Yasin isə özü ayrıca bıçaq götürmüşdü. Burda Türkan bizdən aralanıb getdi, amma getməzdən əvvəl bıçağı çıxarıb mənə verdi, o bıçağı sumkada saxlayırdı, Yasin isə bıçağı ayağında gizlətmişdi. Biz küçədə bankın yanında dayanıb gözləməyə başladıq. Türkana verdiyim telefonların biri ilə o mənə zəng elədi və dedi ki, hər şey hazırdır, gəlin. Mən Yasinlə bloka girdik, 3-cü mərtəbəyə qalxdıq. Türkan qapının kilidini açıq qoymuşdu və biz qapıdan içəri daxil olduq".

**“Türkan böyük otaqda dayanıb bizə qışqırırdı ki, onu öldürün”**

K.Məmmədov istintaqçılara deyib ki, Türkan Bağırova C.Həmişəyevin öldürülməsinə israr edib: “Türkan hamamla dəhlizin arasında idi. Əli ilə işarə elədi ki, Cavid yataq otağındadır. Mən bibim oğlu ilə dəhlizdən böyük otağa, ordan isə yataq otağına tərəf gəldim. O lüt vəziyyətdə çarpayıda üstü açıq halda uzanmışdı. O bizi əlimizdə bıçaqla görəndə dik atıldı, lakin mən ona imkan verməyib birinci səhv etmirəmsə, ayağına bıçaqla vurdum. Sonra dalbadal bıçaqla ona bədəninə vurmağa başladım. Bibim oğlu da mənimlə birlikdə onu bıçaqlayırdı. Həmin vaxtı Türkan böyük otaqda dayanıb bizə qışqırırdı ki, onu öldürün, qalsa, bizə problem yaranar. Cavid mənimlə əlbəyaxa olanda əynimdə olan qara köynək cins şalvarım qana bulaşdı, artıq Cavid zəiflədi və yıxılandan sonra ona son bir neçə zərbəni də vurub nəfəsini kəsdim. Cavidi bıçaqla vurduğumuz zaman o uca səslə



köməyə çağırdı. Lakin onun harayına heç kim gəlmədi. Onu öldürəndən sonra mən üst-başımın qan içində olduğunu görüb hamama gəldim. Əllərimi yuyub sonra otağa keçdim. Sonra otağa girib Cavidin şalvarını geyindim, köynəyi isə qan ləkəsi çox bilinmədiyi üçün dəyişmədim. Onu öldürəndən sonra maşının açarını və onun paltarlarını götürdüm, ayaqqabılarını geyindim. Üçümüz də aşağı düşdük, Türkan qapını açarla bağlayıb gəldi. Orada Cavidin ağ rəngli ”Mersedes ML" maşınına mindik. Mən yolu səhv salıb əvvəl oradan Nərimanov metrosuna tərəf gəldik. Orda bir maşını sürtüb dayanmadan getdim".

**“Qətldən sonra Yasin Ərəbovla Türkan Bağırlı cinayət yerinə qayıdıblar!”**

K.Məmmədov bildirib ki, hadisədən sonra Yasin Ərəbovla Türkan Bağırlı cinayət yerinə qayıdıblar: “Orda Türkanın yadına düşdü ki, onun telefonu Cavidin evində qalıb, o Yasinlə maşından düşüb taksi saxladılar və ora getdilər. Mən maşında gözlədim, onlar evdən telefonu götürüb gəldilər. Cavidin maşınında 600 manat pul vardı, şalvarın cibində portmanatdan 70 manat çıxdı. Həmin pulları elə maşında böldük, 200 manatı Yasinə verdim, 20 manat taksiyə vermişdim, 5 manat isə başqa bir taksiyə verdim, o mənim qabağıma düşüb ”Koroğlu" metrosuna kimi apardı. Ordan özüm maşını sürüb Suraxanıda yaşayan dostum Elşənə baş çəkdim. Ona dedim ki, əgər mənə nəsə olsa, Türkandan muğayat ol. Mən ona nə hadisə törətdiyimizi demədim, Elşənə bildirdim ki, sənə arxayınam. Ordan maşını sürüb Buzovnaya gəldik. Evdəkilər məni bu maşında görəndə təəccüb qaldılar. Mən isə evdə yalandan dedim ki, qızın dayısı hədiyyə edib. Mən artıq yolda gələndə öz köynəyimi və ayaqqabımı baqajda qoymuşdum. Yasin bizim evdə paltarlarını dəyişdi, mənim paltarlarımı geyindi. 2 saatdan sonra biz evdən çıxdıq və “20 Yanvar” dairəsinə gəldik ki, maşını sataq. Amma yolda bizi yol polisi saxladı və bizi polis maşınına oturdub idarəyə gətirdilər".

K.Məmmədov sərbəst ifadəsindən sonra istintaqçıların suallarını da cavablandırıb.

Həmin sual-cavabı da təqdim edirik:

Müstəntiq: Bu günə kimi sizin hər hansı cinayətiniz olubmu?

K.Məmmədov: Mənim bu günə kimi heç bir cinayətim olmamışdır.

Sual: Bəs onda bu cinayəti etməyə necə qərar verdiniz, tanımadığınız Cavidi pula görə öldürməyin cinayət olduğunu başa düşdünüzmü, onun sizə müqavimət göstərə biləcəyindən ehtiyat etmədinizmi?

Cavab: Türkan demişdi ki, Cavid qorxaq adamdır, o heç nə eləməz, mən də ona inandığım üçün onun sözlərinə uyub bu hərəkəti etdim. Türkan demişdi ki, Cavidin üstündə həmişə min-iki min manat pul olur, maşını götürüb satarıq, yaxşı pul qazanarıq.

Sual: Yasinlə əvvəllər hansısa birgə cinayətiniz olubmu?

Cavab: Xeyr, onu da mən yoldan çıxarıb bu işə saldım.

Sual: Özünüzün əvvəllər heç bir cinayət etmədiyiniz və Yasinlə heç bir birgə işiniz olmadığı halda nəyə görə Türkanın bu təklifinə razılıq verdiniz, Yasin də sizinlə bu işə razılıq verdi?

Cavab: Məni Türkan şirin dillə yoldanı çıxardı.

Növbəti saylarımızda qanlı cinayətin digər iştirakçısı Yasin Ərəbovun ifadəsini dərc edəcəyik.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Ermənistandan iş qabiliyyətli əhalinin kütləvi şəkildə və ailəlikcə əsasən də Rusiyaya köç etməsi təzə deyil. Təbii ki, bunun çeşidli səbəbləri var və onlar təkcə ağır sosial-iqtisadi durumla bağlı deyil. Şübhəsiz ki, qonşu ölkədə dərin kök salan korrupsiya, sosial ədalətsizlik və məmur özbaşınalığı ilə yanaşı, vəziyyəti dramatikləşdirən həm də Ermənistanın öz günahı üzündən blokada vəziyyətinə düşməsi, əhalidə sabaha total inamsızlıq və qeyri-müəyyənlik, habelə son zamanlar yeni müharibə ehtimalının güclənməsindən yana keçirilən əndişədir.**



# Müharibə xofu Ermənistanı daha sürətlə boşaldır

## Sadə erməni niyə savaşı yox, emiqrasiyanı seçir? Erməni təhlilçidən acı etiraflar: "Belə getsə, bir gün Azərbaycanın nəinki Dağlıq Qarabağa, elə Ermənistana girməsi də reallaşa bilər, vətən boşalırsa, onu kim müdafiə edəcək?.."

Sadalanan amilləri indi erməni təhlilçiləri özləri də etiraf edir, çıxış yolu tapmağa çalışırlar. Ancaq bu yollar nə qədər aransa belə, bir şey dəqiqdir ki, Ermənistan işğalçı siyasətdən əl çəkib, öz qonşularına qarşı ərazi iddiasına son qoymayınca, onların BMT tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığını qeyd-şərtsiz tanımayınca, bu cırtdan ölkənin nə iqtisadiyyatı böhrandan çıxacaq və ölkədən kütləvi koç dayanacaq, nə də Ermənistan adında dövlət və onun toplumu təhlükəsiz şəraitdə mövcudluğunu saxlaya biləcək...

***

"Bunların acığına ölkədən çıxıb getmək... Ermənistanda hakimiyyəti adətən məhz belə adlandırırlar. Getdikcə daha çox həmvətənimiz ilk baxışda öz qeyri-adekvat niyyətlərini bu cür əsaslandırır. Sosial şəbəkələrdəki statuslar, küçələrdəki, nəqliyyatdakı söhbətlər, hətta müsahibələr, hansılar zamanı ki, bəziləri Ermənistandan çıxıb getmək haqda nədənsə fəxrlə danışırlar. İnsanların bu zaman rəhbər tutduqları prinsip çox bəsitdir: ən yaxşısı ölkədən getməkdir, nəinki "bunları" yemləməkdə davam etmək".



Bu sitat Ermənistanın nəşrlərindən birində David Stepanyan ad-soyadlı müəllifin imzası ilə gedən məqalədəndir. Yazı düşmən ölkədə ağır sosial-iqtisadi durumun doğurduğu bədbin ictimai ovqatı, sabaha inamsızlığı və bu inamsızlığın məntiqi nəticəsi kimi ölkədən güclü emiqrasiyanın yaratdığı psixoloji ovqatı çox gözəl ifadə edir.

Müəllif "bunlar" dedikdə hakimiyyətdəkiləri nəzərdə tutaraq ardınca yazır: "Bunlar"ın özləri isə duruma görə əsla narahatlıq keçirmir, ənənəvi olaraq heç nə demir, vətən və xalq naminə gurultulu fəaliyyətlərini imitasiya eləməkdə davam edirlər. Hətta baş naziri dəyişdilər. Ancaq insanlar yenə də yaşam uğrunda mücadilə verir, ara-sıra küçələrə çıxıb etiraz edir, heç nə alınmayanda isə çamadanlarını yığıb gedirlər. Yol hərəkəti pozuntularına görə hər cür cərimələr, hər yeni vergi, kommunal xidmətlərin heç nə ilə əsaslandırılmayan bahalaşması ilk növbədə narazılıq partlayışı yaradaraq dərhal da ikinci fikri doğurur: bəlkə "bunlar"dan lap uzaqda durmaq daha yaxşıdır?"

Məqalə müəllifinə görə, talanan büdcənin deşiklərini tutmalı olan pensiya islahatı da reallıqda yeni miqrasiya dalğasına rəvac verib: "Kənd təsərrüfatı sferasında soyğunçu kredit "güzəştləri"ndən, erməni kəndləri üçün əkin-biçin üçün suvarmaya uyğun olmayan vergi və tariflərdən təngə gələn kəndlilər də ölkədən gedir. Həmçinin, inşaatçılar - inşaat bumunun sabun köpüyü kimi partlamasından sonra işsiz qalanlar ölkəni tərk edirlər. Nəhayət, heç də ən kasıblar yox, hətta orta təbəqəyə iddialılar çıxıb gedir. Bir-birini əvəzləyən hökumətlər hər şeyi etdilər ki, orta təbəqənin axırına çıxsınlar. Bununla da cəmiyyətdə təbəqələşməni ifrata çatdırıblar".

Məqalədə daha sonra məmurların bitib-tükənməyən iştahasından bəhs edilir: "Məmuriyyətin tamahı həddən artıq böyükdür. O, gecə-gündüz yalnız bur sual üzərində düşünür - əhalidən pulları necə qoparmaq büdcəni doldurmaq, hansını ki, sonralar heç nə qurub yaratmadan elə özləri talayacaqlar. Bütün bunlar vətəndaşları öz gələcək barədə düşünməyə vadar edir. Özləri haqda olmasa da, heç olmasa, uşaqların gələcəyi haqda fikirləşməyə məcbur edir. Cəmiyyət, hər halda onun düşünən kəsimi 1991-ci ildən etibarən güclü şəkildə dəyişib. Toplum indi sürətli düşünür. Və yalnızca vətənpərvərlikdən dəm vuran məmurların sifətindəki ifadəyə baxanda insanlarda dərhal həvəs yaranır ki, ciblərini yoxlasınlar. Və çox vaxt onlar boş olur..."

Erməni müəllifin sonrakı fikirləri daha maraqlıdır: "Təsəvvür eləmək olar ki, bu templərlə Azərbaycanın nəinki Qarabağa, elə həm də Ermənistana girməsi ilə bağlı dumanlı hədə bir gün reallaşa bilər. Ermənistandan əhalinin çıxıb getmə səviyyəsi ilə Azərbaycanın səviyyəsi qətiyyən müqayisə ediləsi deyil. Özü də iki ölkə arasında demoqrafik fərq daim böyüyür - artan iqtisadi fərqlə yanaşı. Bütün bunlar öz növbəsində geosiyasətdə ciddi dəyişikliklərlə müşayiət olunur ki, bu da Qarabağ məsələsi ətrafında status-kvonun dağıdılmasını tamamilə mümkün edir. Və aydın deyil ki, bu halda vətəni müdafiə eləməyə kim gedəcək. Bu xüsusda moskvalı ağıllı politoloqlardan birinin sözü yada düşür: "Bütün günahları Rusiyanın üstünə atmaq lazım deyil. Axı bizim Ermənistanda Kremlə loyal hakimiyyətin olmasında maraqlı olmağımız o demək deyil ki, biz ondan ikiəlli yapışmışıq. Hakimiyyət - sizindir. Bizə isə açığı, forpost lazımdı - ermənilərlə və ya ermənilərsiz, fərq eləməz"".

***

Rusiyanın son davranışları da sübut edir ki, Moskvanı Ermənistandakı ağır sosial-iqtisadi durum, emiqrasiya çox az maraqlandırır - əgər ümumiyyətlə, maraqlandırırsa. Əsas Rusiyanın bu ölkədəki hərbi-siyasi mövcudluğu, Ermənistanın heç bir Qərb projesinə və qurumuna qoşulmaması, yeri gələndə bölgədə maşa rolunda istifadəyə hər an hazır olmasıdır.

Söhbət həm də ermənilərin əli ilə provokasiyalar yaradıb regionda yeni hərbi əməliyyatlara rəvac verilməsindən gedir. Bu gün düşmən ölkədən davam edən kütləvi köç həm də bu motivlə - müharibə perspektivi ilə bağlıdır. Az-çox praqmatik və realist ermənilər Qarabağ klanının yenə də hakimiyyətdə qalıb talançılıqla məşğul olması naminə yenidən savaşa getməyi, sadəcə, istəmir. "Bunlara" görəmi? Odur ki, müharibəni deyil, emiqrasiyanı seçir...



David Şahnazaryan

## "Rusiya Ermənistana qarant yox, təhlükədir"

**David Şahnazaryan:** "Moskva münaqişədən yararlanaraq Azərbaycana təzyiq və Bakını özünün imperiya layihələrinə cəlb etmək istəyir..."

**"Ermənistan üçün nə iqtisadi, nə siyasi, nə də hərbi anlamda Avrasiya İqtisadi Birliyi və Gömrük İttifaqına qoşulmaqda heç bir məntiq yoxdur". musavat.com-un məlumatına görə, bunu Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri, 1992-94-cü illərdə prezidentin xüsusi nümayəndəsi olmuş politoloq David Şahnazaryan Ukraynanın "Zerkalo nedelyi" nəşrinə açıqlamasında deyib.**

Onun fikrincə, bu mövqeyi qeyri-rəsmi olaraq Serj Sərkisyan komandasının bir çox üzvləri də bölüşür: "Lakin Azərbaycanla kövrək barışıq vəziyyətində olan Ermənistanda Rusiya təhlükəsizliyin qarantı kimi qəbul edildiyindən, Sərkisyanın qərarları kütləvi etirazlar doğurmadı. Əvəzində isə İrəvan "Yol xəritəsi" üzərində işləri davam etdirdi və apreldə yekunlaşdırdı".

Şahnazaryana görə, Dağlıq Qarabağ konflikti zonasının hərbiləşdirilməsini sülhməramlılıqla "zənginləşdirməklə" Moskva özünün təkbaşına vasitəçiliyi hesabına Minsk Qrupunun funksiyasını mənimsəməyə çalışır. "Məqsəd münaqişədən yararlanaraq Azərbaycana təzyiq etmək və Bakını özünün imperiya layihələrinə cəlb etməkdir. Ona görə də heç təsadüfi deyil ki, erməni cəmiyyətində ovqat dəyişməyə başlayıb. İndi belə bir dərk üstünlük təşkil etməkdədir ki, Rusiya Ermənistan üçün heç də təhlükəsizlik qarantı deyil, əksinə - təhlükədir", - deyə politoloq vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014



# Vidadi İsgəndərli Məmmədovların cəzalandırılmasını tələb edir

## Hüquq müdafiəçisinə ölüm təhdidləri ilə bağlı istintaq davam edir, Taleh Xasməmmədov da dindirilib

**Daxili İşlər Nazirliyi (DİN) hüquq müdafiəçisi Vidadi İsgəndərlinin ölümlə hədələnməsi faktını araşdırır. İyunun 30-da DİN-də ifadəsi alınan V.İsgəndərlinin işinə Göyçay rayon Polis Şöbəsində xitam verilmişdi. Ancaq gözlənilmədən iş Göyçay polisindən alınaraq DİN-ə verilib və yenidən məsələ araşdırılır.**

İstintaqın gedişi və hazırkı vəziyyəti öyrənmək üçün hüquq müdafiəçisi ilə əlaqə saxladıq və V.İsgəndərli "Yeni Müsavat"a bildirdi ki, ona qarşı hədə-qorxu ilə bağlı DİN-də araşdırma davam edir. Hüquq müdafiəçisinin sözlərinə görə, hadisə ilə bağlı işdə adı keçən Emil Məmmədov və Dəyanət Babayevin ifadəsi alınıb: "Mən bilmirəm ki, onlar istintaqa nə ifadə veriblər. Hər halda, müstəntiq də istintaq sirrini açıqlaya bilməz. Mənə sosial şəbəkələrdə təhqir, hədə-qorxu, terror təhdidi yazılan 30 belə saxta profili istintaqa təqdim etmişəm. Bundan başqa da Səbayel rayon Polis İdarəsində iş gedir.

Bilirsiniz ki, bu il fevralın 15-də idmançılar qarşımı kəsərək, Ziya Məmmədov haqda tənqidi fikirlər səsləndirməməyimi tələb ediblər. Mən şikayət ərizəsində göstərmişəm ki, məmurların korrupsioner fəaliyyəti haqda çıxışlar etmişəm, müsahibələrim olub. Zakir Qaralov, Fazil Məmmədov, icra başçılarını tənqid etmişəm. Ancaq heç biri hədə-qorxu yolunu seçməyib. Bircə Ziya Məmmədov təhdid variantına əl atıb".

V.İsgəndərli qeyd etdi ki, Göyçay rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov təhdidlərdən öncə onun yanına adam göndəribmiş: "Xahiş edirdi ki, onun və nazir qohumu Ziya Məmmədov haqda çıxışlarımı dayandırım. Hətta şirnikləndirmək üçün rüşvət də təklif etdi.

Amma təbii ki, onun bu təkliflərini rədd etdim. Mənə xəbərdarlıq göndərdi ki, o, Ziya Məmmədova məruzə edəcək və hansı tədbir görüləcəyini nazir özü müəyyənləşdirəcək. Elə çox çəkmədi ki, məni ölümlə təhdid etməyə, evimi, ailəmi terrorla hədələməyə start verdilər. Mən ümid edirəm ki, istintaq bütün bu faktları araşdıracaq".

Göyçayda yaşayan hüquq müdafiəçisi Taleh Xasməmmədovun bu işlə bağlı istintaqa dəvət olunmasına münasibət bildirən V.İsgəndərli dedi ki, onun adını çəkməyib: "Görünür, istintaq özü bu qənaətə gəlib. Mən Talehin adını istintaqa verməmişəm. Taleh Xasməmmədovun nə ifadə verdiyini bilmirəm. Ancaq Emil Məmmədov mənə facebookda təhdidlər yazılmasının sifarişçisi kimi onu istintaqa təqdim edib. Bu məsələ ilə bağlı da məndən geniş ifadə alınacaq. Gözləyirəm ki, Taleh özü açıqlama versin ki, bu işə nə aidiyyəti var, nə üçün onu dindiriblər?

Yalnız onu deyə bilərəm ki, bu hadisədə əsas sifarişçilər olan Göyçay rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Ruslan Əlizadə, icra başçısı Mənsur Məmmədov və nəqliyyat naziri Ziya Məmmədov cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Məni 300-500 manata ləyaqətini satmış sifarişçilərin cəzalandırılması maraqlandırmır. Əsl sifarişçilər məsuliyyətə cəlb olunmalıdır".

Yada salaq ki, mayın 6-da hüquq müdafiəçisinin evinə zəng edərək mənzilini partladacaqları ilə hədələyiblər. Hüquq müdafiəçisi 102 xidmətinə zəng edib, 30 nəfərdən ibarət əməliyyat qrupu göndərilib. İki gün sonra Göyçayın polis rəisi İslam Hümbətov V.İsgəndərliyə zəng edib, onu hədələyən şəxsi müəyyən etdiklərini və tutduqlarını deyib.

Hüquq müdafiəçisi Bakıya qayıdandan sonra Göyçayın icra başçısının təkidi ilə onu hədələyən şəxs - Emil Məmmədov barəsində cinayət işi başlanıb. Ancaq həbs verilməyib. Hüquq müdafiəçisi DİN-ə müraciət edəndən sonra Göyçayda verilən bu qərar ləğv olunub. İş nazirliyin Ağır Cinayətlərə dair İstintaq İdarəsinə həvalə olunub. Hüquq müdafiəçisi E.Məmmədovu bu hadisələrdə fiqur sayır.

**E.SALAMOĞLU**

# Təhlükəli çimərliklərdəki obyektlər bağlana bilər

## İstirahət mərkəzlərinə ciddi xəbərdarlıq edilib; sahil və dəniz suyunu təmizləməyən obyektlərin fəaliyyəti dayandırılacaq...

**Bakıda təhlükəli elan olunan çimərliklər bağlana bilər. Bu barədə "Yeni Müsavat"a Şıx çimrəliyində yerləşənən istirahət mərkəzlərinin birindən məlumat verilib. Məlumata görə, bir müddət əvvəl Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılmış monitorinqin nəticəsi olaraq çimərliklərdə yerləşən istirahət mərkəzlərinin qarşısında tələb qoyulub.**

Həmin tələbə əsasən, istirahət mərkəzləri çimərlik kimi istifadə etdiyi əraziləri, qumu, dəniz suyunu mütəmadi olaraq təmizləməli, ərazidə sanitariya qaydalara əməl etməlidir. İstirahət mərkəzlərinə bildirilib ki, bu tələbələrə cavab verməyən istirahət mərkəzləri haqqında ciddi ölçü götürüləcək. Dəfələrlə edilən xəbərdarlığa baxmayaraq, nəticə çıxarmayan obyektlərin fəaliyyəti dayandırılacaq. Mövzu ilə əlaqədar ötən gün Bakının Şıx çimərliyində yerləşən istirahət mərkəzlərinin bir neçəsinə baş çəkib, ordakı vəziyyəti öyrənməyə çalışdıq.

**"Azca sərt tələblər qoyanda müştəri qaçır"**

Şıx çimərliyində yeləşən "Min bir gecə" istirahət mərkəzi bu yay mövsümünü durğunluq içərisində keçirir. Səbəblər içərisində havaların qeyri-sabit keçməsi olsa da, obyekt sahibləri bunun əsl səbəbini bu il istirahət üçün xaricə gedənlərin çox olduğu ilə əlaqələndirdilər. İstirahət mərkəzinin Hüseyn adlı administratorunun sözlərinə görə, bu il turizm şirkətlərinin təklif etdikləri müxtəlif endirim kampaniyaları böyük marağa səbəb olub: "Turizm şirkətləri Türkiyə və Gürcüstana həftəlik tur paketləri 200-600 manat arası təklif edir. Bu da kifayyət qədər normal qiymətlərdir. Bu qiymətə Azərbaycanda bir həftə istirahət etmək çox çətindir. Bu, bizdən asılı deyil. İstirahət mərkəzləri arasında rəqabət mühitinin formalaşmasına heç cürə imkan vermirlər. Vergini günü-gündən artırırlar. Məcbur olub biz də xidmətlərin qiymətini qaldırırıq. Çünki burda yüzlərlə işçi işləyir. Bəs onların maaşını necə verək?".

İstirahət mərkəzinin administratoru qeyd etdi ki, qiymətə uyğun xidmətləri də yaxşılaşdırırlar: "Əvvəllər giriş üçün qapıda adambaşı 3 manat ödəyib içəri girən müştərilər, çardaq, duş kimi xidmətlərə görə əlavə pul ödəyirdilər. Amma indi bu xidmətlər pulsuzdur. Maşınla istirahət mərkəzinə girmək istəyənlər isə 5 manat ödəməlidirlər. Ödənilən pulun müqabilində müştərilərə çek ödənilir. Həmin çek vasitəsi ilə onlar istirahət mərkəzindəki xidmətlərdən yararlana bilirlər. Burada stolların qiyməti 5-10 manat arası dəyişir. Müştərilər özləri ilə yemək gətiriblərsə stolları 10 manata kirayələyə bilərlər. İstirahət mərkəzində restoran da fəaliyyət göstərir".

Təmizlik barədə danışan Hüseyn vurğuladı ki, hələlik təmizlik işlərini istənilən qaydada həyata keçirə bilmirlər: "Əsas problem insanlara nəzarət etməkdir. Hər saat elan edirik ki, zibilləri zibil yeşiyinə atın. Amma mütərilər tez-tez gəlib bizə şikayət edir ki, dənizdə üzərkən sellofan, boş su qabları, qida qalıqlarına rast gəlirlər. Onları dənizə biz atmırıq. İnsanlar bir-birlərinə nəzarət etməlidir. Kimsə görsə ki, yanındakı yerə və ya dənizə nəsə atır, ona mane olmalıdır. Onsuz da biz səhər və axşam saatlarında kompelks təmizlik işləri aparırıq".

**"Təmirdən çıxan "Dostluq"da müştəri qıtlığı"**

Təmirdən çıxan "Dostluq"dan isə bildirdilər ki, Şıx çimərliyindəki digər istirahət mərkəzləri kimi onlar da müştəri sarıdan qıtlıq çəkirlər. "Dostluq"un baş administratoru Əli vurğuladı ki, suyun və sahilin təmizlənməsi ilə bağlı onlara da ciddi xəbərdalıq edilib: "Yaxın günlərdə xaricdən xüsusi aparat gətizdirəcəyik. Həmin aparatlar vasitəsi ilə hər 4 saatdan bir həm dəniz suyu, həm də sahildəki qum təmizlənəcək. Keçən dəfə nazirlik yoxlama apardı. Ciddi nöqsanlar aşkarlandı. Bizə sərt xəbərdarlıq edildi ki, qısa müddətdə həmin nöqsanlar aradan qalxmasa istirahət mərkəzinin fəaliyyəti dayandırılacaq".

İstirahət üçün bu məkanı seçən paytaxt sakini Xalid Məmmədov qeyd etdi ki, son günlər gilavar küləyinin əsməsi suyu nisbətən təmizləyib: "Xəzri əsəndə nə zir-zibil varsa sahilə vurur. Suya girməyə ehtiyyat edirsən. Keçən dəfə Hövsan çimərliyində idim. Çimdiyim yerdə gördüm ki, suda qara rəngdə böyük nəsə var. Elə bildim kimsə boğulub cəsədi sahilə çıxıb. Polis çağırdıq, məlum oldu ki, gördüyüm suiti cəsədidir".

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumatda deyilirdi ki, nazirlik Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı qəsəbələrinin sahil zolağında və "Amburan" çimərliyi ərazisində, eləcə də Novxanı və Corat bağlarının sahil boyu ərazilərində beynəlxalq standartlara cavab verən 17 ədəd modul tipli çirkab su təmizləyici qurğu quraşdırıb və Azərbaycan Xəzəryanı dövlətlər arasında dənizin və onun akvatoriyasının çirklənmədən qorunması üzrə kompleks tədbirlər həyata keçirən yeganə ölkədir.

Qeyd olunub ki, nazirlik tərəfindən modul tipli çirkab su təmizləyici qurğuların quraşdırıldığı ərazilərdə aparılan monitorinqin nəticələrinə görə, 2007-ci illə müqayisədə mikrobioloji baxımdan çirklənmənin qarşısı alınıb. Artıq Abşeron yarımadasının şimal zonasındakı ərazilərdən dənizə axıdılan tullantı suları idarə olunur. Belə ki, təmizləyici qurğuların istismarı müddətində dənizdə mikrobioloji baxımdan çirklənmənin dərəcəsi tədricən azalmağa başlayıb, son illər ərzində qeyd olunan sahələrdə bağırsaq çöplərinin və şərti patogen bakteriya olan Escherichia coli-nin (E.coli) miqdarı minimum həddə çatıb. Aparılan tədqiqatların nəticələrinə görə, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlan və Hövsan çimərliklərində çirklənmə dərəcəsi artıq norma daxilindədir.

Bildirilirdi ki, lakin belə qurğuların quraşdırılmadığı məntəqələrdə ötən il olduğu kimi (Sumqayıt, Səbail rayonunun Şıx və Qaradağ rayonunun Sahil qəsəbəsinin çimərlik ərazilərində), bu il də mikrobioloji baxımdan çirklənmə qeydə alınıb. Bu ərazilərdə böyük həcmlə axıdılan tullantı suları müvafiq norma və standartlara uyğun təmizlənmədən və zərərsizləşdirilmədən dənizə axıdıldığına görə sözügedən ərazilərdə bağırsaq çöpü bakteriyalarının və şərti patogen E.coli-nin miqdarı normadan artıq müəyyən edilib.

2014-cü ilin may ayında Xəzər dənizinin sahilində təmizləyici qurğuların quraşdırıldığı ərazilərdə, eləcə də digər çimərlik sahələrində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən birgə keçirilən monitorinq zamanı dənizdən götürülən su nümunələri üzərində aparılan laborator təhlillərin nəticələri qeyd olunan sahələrdə bağırsaq çöplərinin və şərti patogen E.coli-nin miqdarının minimum həddə çatmasını təsdiq edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli təmizləyici qurğular quraşdırılmış qəsəbələrin sahil zolağında aparılan son tədqiqatların nətiçcələri bunu deməyə əsas verir ki, qeyd olunan qəsəbələrin sahil zolağındakı çimərlik sahələri (Sumqayıt, Qaradağ rayonu Sahil qəsəbəsinin "Sahil" və Səbail rayonunun "Şıx" çimərliklərindən başqa) yay mövsümü ilə əlaqədar çimərlik kimi istifadəyə yararlıdır.










**Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014




# Yayın qorxulu dəbi - gəlin arıqlayaq!..

## Azərbaycanda pəhriz tələsinə düşənlər və işin sirləri...

**Çimərliklər sanki insanlarımızın düşmənidir. Köklər, bədən ölçüləri normanı aşanlar üçün bu məkan az qala cəhənnəmə çevrilib. Ona görə də bir çox insanlar, xüsusən qadınlar üçün ilin bu dönəmi arıqlamaq üçün ideal vaxt sayılır. Yaydır, istidir, tərləmə hesabına da arıqlamaq olar deməyin...**

Televiziyalarda sayı gün-gündən artan reklamları, apteklərə girən kimi az qala piştaxtalardan yerə axan dərmanları görəndə başa düşürsən ki, arıqlamaq "sezon"u yetişib. Qışda yığılan piydən, yağlardan bircə ayın içində qurtulmaq istəyən zərif cinsin nümayəndələri üçün Azərbaycan işbazları nə təklif edir? 90\60\90 formuluna qovuşmaq üçün tələyə düşməmək üçün nələr etmək lazımdır?

Azərbaycana keçməzdən əvvəl... Maraqlı bir məlumat. Sən demə, 2 ilə 130 kiloqram arıqlamaq mümkün imiş. Özü də qorxu nəticəsində. Həkimlər boyu 162, çəkisi təxminən 200 kiloqram olan qadını müayinə edərək onun ömrünün sonuna maksimum 2 il qaldığını bəyan edib, yaşamaq üçün onun təcili arıqlamalı olduğunu bildirib. Bundan qorxuya düşən qadın sağlam qidalanmaya keçib, eyni zamanda hər gün hovuzda üzüb. nəticədə 2 ildə 130 kiloqram arıqlayan amerikalı "2011-ci ilin arıqlaması" tituluna sahib çıxıb.

Bir qorxunu bir dəfə yaşamaq olar. Növbətiləri isə artıq lətifəyə bənzəyir. Odur ki, reallığa qayıdaq. Öncə ondan başlayaq ki, qadınların (eləcə də arıqlamaq istəyən kişilərin) düşdüyü ən böyük tələ hansısa məşhur müğənninin reseptinə uymaqdır. Uzun illər türkiyəli qadınlar hər uşaqdan sonra kökələn, aldığı kiloları geri vermək üçün dietoloq qapısını yağır edən Sibel Can formulu əsasında arıqlamağa cəhd göstərdi. Halbuki dünyanın ən məşhur dietoloqları da səhər-axşam bar-bar bağırırlar ki, əslində hər orqanizm spesifik olduğu üçün onun üçün tətbiq olunacaq dieta formulu da spesifik olmalıdır. Yəni həkim nəzarətindən keçmədən, qan, təzyiq, şəkər analizləri verilmədən hansı pəhrizin insana uyğun gəldiyini bilmək olmaz. Bundan başqa, eyni vaxtda həm ac qalıb, həm aktiv idmanla məşğul olanlarda az-çox nəticə görünür. Yəni sərt alman dietası ilə 5-6 kilodan qurtulan elə eyni sürətlə də o kiloları geri alır.

Xatırladaq ki, bu sayaq həblərin tərkibində mərkəzi sinir sisteminə, baş beyinə təsir edən maddələr var və onlar birbaşa maddələr mübadiləsini pozur. Bəzi hallarda bunlar pasienti depressiv vəziyyətə də gətirib çıxarır. Məhz həmin səbəbdən bir çox inkişaf etmiş ölkələrdə onların istifadəsi isə ümumiyyətlə qadağan edilib.

### "Kitayski" arıqlama... nə vəd edir?

Araşdırmamız zamanı bəzi gözəllik salonlarında bir-iki seansla arıqlama təminatı verdiklərinin şahidi olduq. Maraqlıdır ki, əslində bu arıqlama vədi bədənin konkret nahiyələrində piylərin götürülməsi yolu ilə edilir. Əksər gözəllik salonlarında LPC deyilən müxtəlif cür aparatlar var. Bu aparatlar dərinin üstündən sürtülür, amma dəri altından birbaşa piylərə yox, onun üstünə nüfuz edir. Həkimlər hesab edir ki, bu üsulla arıqlama da əslində çox ziyanlıdır. Çünki dəri üstündən aparatla təsir edəndə dərialtında olan 3 komponent - fibrinogen, kollagen, elasten sıxlaşır. Bunun hesabına incəlmə gedir. Halbuki piy dərialtı təbəqədə qalır, getmir. Və bu preslənmə qısa müddət sonra öz sözünü deyir: bir-birinə bitişmiş 3 komponent-fibrinogen, kollagen, elasten aralanmağa başlayır. Bədən yenidən köhnə şişmiş formaya qayıdır. Kilonun getməsi, arıqlama üçün piyin özünə təsir etmək lazımdır.

Xatırladaq ki, əksər gözəllik salonlarında və fitness klublarında daha çox bu arıqlama metoduna üstünlük verilir. Nəticədə isə qadınlar qısa müddət aldadıcı arıqlıq hissi ilə yaşayır. Ardınca... xoş gəldin, yeni kilolar.

Araşdırma zamanı bir qədər bahalı və az sayda olan fitness klublarda iynəbatırma, yəni akupunktura ilə arıqlama metodunun da tətbiq olunduğunu öyrəndik. Bu mərkəzlər daha çox Türkiyədə kurs keçmiş və ya türkiyəli mütəxəssisin rəhbərliyi ilə fəaliyyət göstərən klublardır. Onlarla maraqlandıqda isə məlum olur ki, bu arıqlama metodu Çin təbabətinə, akupunkturaya, iynəbatırmaya əsaslanır. Arıqlama proqramında blasterli qulaq iynələrindən və qızıl suyuna salınmış gümüş iynələrdən istifadə olunur. Bu iynələrlə bədənin müxtəlif nöqtələrindən iştah mərkəzlərinə, doyma mərkəzlərinə təsir edilir. 5 gündən bir keçirilən seanslarda xüsusi qulaq iynələri qulağa yapışdırılır. Pasient evinə, işinə-gücünə gedə bilər. 3 aylıq proqramda vaxtın uzanması xəstədə metobolik proseslərin bərpa olunmasından asılıdır. Çəkisi 100 kilodan çox olanlar 4-5 ay seansa gələ bilər.

### 220 manata 8 kilonu "kəsmək" olar

Daha bir üsul isə, təbii ki, estetik cərrahiyyədir. Artıq Azərbaycanda qadınların daha intensiv olaraq bu xidmətə müraciət etmələri də statistikadan bəllidir. Qadınlar daha tez və əziyyətsiz üsul kimi, əməliyyat vasitəsilə piylərdən, artıq çəkidən qurtulmanı tərcih etməyə başlayıblar. Estetik cərrahiyyənin bu növü isə işin masştabından asılı olaraq, fərqli tariflərlə təqdim olunur. Amma həkimlər hesab edir ki, estetik cərrahiyyə də insanın özünü aldatması deməkdir. Neyçün ki, əməliyyatla alınan kilolar da tezliklə geri qayıdır. Müraciət etdiyimiz sağlamlıq mərkəzlərindən birində isə bizə arıqlama proqramında idman tətbiq olunmadığı söylənildi. Belə ki, mərkəz nümayəndəsi iddia etdi ki, arıqlamaq istəyənlər idmanla bədənin piylərini sərtləşdirirlər. Nəticədə əzələ kütləsi artır. Əzələlər böyüdükcə piylər əzələ kütləsinin arasına keçir. Sərtləşmiş piylərinsə bədəndən çıxması çətinləşir: "Biz xəstəni idmandan tamamilə azad edirik. Yalnız gəzməyi, yeriməyi ciddi tövsiyə edirik".

Sözügedən mərkəzdə xəstələrə xüsusi qidalanma proqramı da verilir. Bundan başqa, elə həmin mərkəzin dieta mütəxəssisləri xəstələrə bol miqdarda qaynanmış su içməyi tövsiyə edirlər. Formula belədir: bədənimizin su ilə yuyulması kimi içimizin də yuyulması su ilə olmalıdır. Su xolesterolu, şlakları təmizləyir. Gündə 2 litr su içmək lazımdır. Pasientin ərimiş, dağılmış yağları, piyləri sidiklə və bağırsaqlarla bədəndən xaric olunur.

Bəs bu arıqlama vasitələrinin məbləği nə qədərdir? Araşdırma zamanı məlum oldu ki, estetik cərrahiyyə (liposaksiya) əksər klinikalarda təxminən eyni qiymətdir. Cəmi bir bölgənin liposaksiyası 350 manatdan başlayır.

Akupunktu ilə arıqlamanın hər seansı isə 30-35 manat arasında dəyişir. 200-220 manata 8 kilodan qurtulmaq mümkündür. LPC aparatla arıqlama vəd edən sağlamlıq mərkəzlərində də hər seans üçün 15-20 manat tələb olunur. Bu işi professional həkimlərin etdiyi deyilsə də, bəzən naşılar iş görür.

### Seans qiymətləri 30-70 manat arasında...

Hansı mərkəzin nə kimi nəticə əldə etməsi isə düzü qaranlıq qalan məqamlardan idi. Çünki müraciət etdiklərimizdə pasient görə bilmədik. Mərkəz rəhbərləri isə bunu pasiyentlərin pərakəndə qrafiki, habelə məxfilik istəyi ilə əlaqələndirdilər. Bu arada qeyd edək ki, bu sayaq mərkəzlərdə seans məbləği də tamamilə fərqlidir. Bu, tətbiq olunan proqramın tərkibindən birbaşa asılıdır. Amma seans qiymətləri 30-70 manat civarında dəyişirdi.

Bu arada arıqlamadan danışıb, bir-iki önəmli məlumatı da paylaşmasaq olmaz. Amerikada 3 min qadın arasında aparılan araşdırma göstərib ki, arıqlamaq üçün ən uyğun yaş 28-dir. Araşdırma 28 yaşını keçən qadınlarda arıqlamağın daha çətin olduğunu göstərib. Çünki 28 yaşda bədən hələ də özünü yeniləyə bilir və maddələr mübadiləsi zəifləməyib.

Britaniyalı mütəxəssis, professor Kris Haukey hesab edir ki, heç bir pəhrizin faydası yoxdur. Professor pəhriz saxlamaqdansa, yeməklərə diqqət etməyi, sağlamlıq üçün faydalı qidalar qəbul etməyi məsləhət görür. Onun fikrincə, hər bir insan yeməyinin miqdarına diqqət etməlidir. Lids Universitetinin professoru Andrey Hill ise insanların sürətli və asan arıqlamaq üçün yollar axtardığını, bu yolların az olduğunu deyib. O, insanların çəkisinin artdıqca çəki verməsinin daha da çətinləşdiyini vurğulayıb.

❑ Sevinc TELMANQIZI

# Dünyanın Qəzza faciəsini "görməməsinin" sirri



Kənan RÖVŞƏNOĞLU

**İsrail bütün dünyanın gözü qarşısında Qəzzanı artıq iki həftədir ki, bombalayır. İki həftə davam edən bombardmanın nəticəsi isə fəlakətlidir. İndiyədək İsrailin bombardmanları nəticəsində 300-dən artıq fələstinli ölüb, 2 mindən çox insan isə yaralanıb. Təkcə şənbə günü 15, bazar günü isə 20 Qəzza sakini İsrail bombalarında həyatını itirib. Ölən və yaralananların 80 faizi dinc insanlar, o cümlədən uşaqlardır.**

Qəzza tragediyasının rəqəmləri isə dəhşətin mənzərəsini göstərir. İsrailin bombardmanları nəticəsində ötən günlərdə Qəzzada 1370 bina dağılıb, 17 min nəfər qaçqın düşüb, o cümlədən 40 min nəfər fələstinli Qəzza ərazisində yerləşən BMT-yə aid 34 binaya sığınıb. Bombardmanlar isə davam edir.

İsrailin Qəzzaya hücumu və törədilən vəhşilikləri gözlənilməz olmasa da, dünyanın, xüsusən müsəlman aləminin reaksiyası dəhşətli oldu. Ənənəvi olaraq Qərb ölkələri İsraili müdafiə etdilər, baxmayaraq ki, söhbət HƏMAS-dan, onun raketlərindən deyil, dinc günahsız insanların, xüsusən də uşaqların qətlindən gedirdi. Amma bir mənada dünya güclərinin ədaləti ilə bağlı nümunələrlə getdikcə daha tez-tez tanış olduğumuz üçün bu reaksiyalar bizi narahat etmədi. Amma müsəlman ölkələrinin səssizliyi, yaxud da boğazdan yuxarı çağırışları, bəzi hallarda isə olaylara görə HƏMAS-ı qınaması (Misir kimi) çox dəhşətli mənzərə idi. Yalnız Türkiyədə İsrail diplomatik nümayəndəlikləri qarşısında keçirilən aksiyaları çıxmaq şərtilə müsəlman dünyası Qəzza olaylarını facebook üzərindən izlədi. Azərbaycan da seçilmədi. Cəmi 20 il əvvəl Xocalı faciəsini yaşayan və bu dəhşətlərin şokundan hələ də çıxa bilməyən Azərbaycan cəmiyyəti çox da uzaqda olmayan Fələstində yaşanan insanlıq dramı üzərindən siyasi analizlər qurdu. Halbuki hər gün dünya mediası Qəzzada öldürülən körpə fotoları paylaşırdı. Dünyadan ədalət uman bir cəmiyyətin Qəzza faciəsinə bu şəkildə reaksiyası dəhşətlidir.

Təxminən eyni günlərdə Türkiyədə dinlərarası münasibətlərə həsr olunmuş konfrans keçirildi. Türkiyə Dəyanət İşləri Başqanı Məhməd Görmezson son dövrdə böyük bir coğrafiyaya yayılan məzhəb savaşları haqda maraqlı fakt söylədi. Sitat: "Gün ərzində orta hesabla min nəfər müsəlman öldürülür. Onların 90 faizi öz müsəlman qardaşı tərəfindən öldürülür".

Daha artıq izaha ehtiyac varmı? Qəzzada öldürülən günahsız insanlar hər gün qətlə yetirilən müsəlmanların 10 faizini belə təşkil etmir. Qalan 90 faizini müsəlmanlar qətlə yetirir. Daha qəddar, daha vəhşi formada. Miqyası kiçiltmək istəmirəm, amma Suriyada, İraqda daha böyük sayda müsəlmanlar, özü də günahsız insanlar öldürülür.

İsrail ərazi baxımından çox kiçik dövlətdir. Ümumi Fələstin ərazisi 27 min kv.km-dir. İsrail isə bunun təxminən 22 min kv.km-da yerləşir, əhalisi isə 8 milyon nəfərə (ərəb vətəndaşları ilə birlikdə) yaxındır. Müqayisə üçün qeyd edək ki, hazırda yer üzündə 22 ərəb dövləti mövcuddur. Bunların ümumi ərazisi 13 milyon kv.km-dan artıqdır. Əhalisinin sayı isə 333,5 milyon nəfərdir. Siyahıya müsəlman dünyasını da əlavə etsək böyük bir topluluq ortaya çıxır. Amma məsələ heç bunda da deyil. Məsələ ondadır ki, 22 ərəb dövlətinin az qala ortasında yerləşən kiçik İsrail hər istədiyində yüzlərlə fələstinlini qətlə yetirirsə bunun əsas günahını müsəlmanlarda axtarmaq lazımdır.

Mənə görə, İsrailin bu dəfəki Qəzza hücumunun indi baş verməsinin də öz səbəbləri var. Məhz bu səbəblərdən müsəlman dünyası Qəzza üçün lazım olan reaksiyanı göstərə bilmədi. Çünki müsəlmanların başı bir-birlərini kəsməyə qarışıb. Hər gün 900 din qardaşına qıyan "müsəlmanların" Qəzzanı görməsi nə qədər realdır ki?

# "Neftçi"nin uduzdurulmasının təfərrüatları...

## ARDNŞ prezidenti flaqmanın futbolçularına və texniki işçilərinə iki aydır maaş vermir; kluba Elşad Nəsirovun kadrı rəhbər gətirilə bilər




**..."Neftçi yenə uduzdu". Bu məşhur deyimi xatırlamamaq mümkün deyil. "Evləri köndələn yar" tamaşasında elçi gedən oğlanın atası - mərhum Səyavuş Aslana "əşi "Neftçi"nin udan günü olub ki?" cavabı da günümüz üçün aktualdır. Çünki iyulun 17-də "Neftçi" yenə uduzaraq hər kəsi pərişan etdi. Avroliqa oyunlarına ikinci təsnifat mərhələsindən başlayan flaqman Sloveniyanın "Koper" klubuna doğma meydanda 1:2 hesabı ilə məğlub oldu.**

Adı neftə, ölkənin ən böyük sərvətinə, ARDNŞ prezidenti Rövnəq Abdullayevə bağlı olan "Neftçi" Bakıda uduz(durul)du. Oyunun xronologiyasına, hansı dəqiqələrdə kimlərin qol vurmasına, hakimin idarəçiliyinə, hansı futbolçunun zəif çıxış etməsinə toxunmağa ehtiyac yoxdur.

Oxucular qarşılaşmanı efirdən canlı yayımla izləyə biliblər. Amma bu matçın pərdəarxası məqamları mübhəm olaraq qalır. Kimsə bilmədi ki, əslində "Neftçi" niyə yenə uduzdu?!

***

Oyunun sonlarına yaxın "İstefa!" şüarları stadionu bürüməyə başladı. Yüzlərlə azarkeş doğma meydanda məğlubiyyətə görə istefa çağırışı edirdi. Çoxumuz elə güman edirdik ki, azarkeşlər baş məşqçi Böyükağa Hacıyevi istefaya çağırır. O Hacıyev ki, komandanı tarixdə ilk dəfə Avroliqanın qrup mərhələsində oynadıb.

Lakin az sonra məlum oldu ki, istefa çağırışları klubun vitse-prezidenti, idman jurnalistlərinin bir o qədər də sevmədiyi, daima tənqid olunan Tahir Süleymanova yönəlib. Çevik Polis Alayının əməkdaşları isə azarkeşləri sakitləşdirməyə, daha əsəbi görünənlərə təzyiq göstərməyə çalışırdı. Stadionu tərk edənə kimi "İstefa!" şüarları "Bakcell Arena"nı bürüyür və çoxlarının dilindən eşitdiyimiz bu olur - "Neftçi"nin futbolçuları qəsdən belə oyun nümayiş etdirdilər.

Və istefa şüarları ilk dəfə narazıların tələbinin yerinə yetirilməsi ilə nəticələndi. Qarşılaşma bitər-bitməz klubun vitse-prezidenti Tahir Süleymanov "Koper"ə qarşı cavab görüşündə Sloveniyaya getməyəcəyini və istefa qərarını açıqladı.

***

T.Süleymanov "Neftçi"nin növbəti mərhələyə keçə bilmədiyi təqdirdə komandada heç kimin qalmamalı olduğunu bəyan edib. Elə baş məşqçi Böyükağa Hacıyev də ondan fərqli bir çıxış etməyib. Gəlin Hacıyevin dedikləri ilə tanış olaq və daha sonra futbolçuların nə üçün oyunu uduzmasını, istefaların belə operativ şəkildə verilməsini aydınlaşdıraq.

Sitat: "Cavab matçında fərqli nəsə düşünməyə çalışacağam. Gizlətmirəm, cavab oyununda mərhələ adlaya bilməsək, mən istefa verib gedəcəyəm. Uşaqları qınamıram. Səhvlərdən buraxdığımız qollarla uduzduq. Mənim çantam həmişə qapının ağzındadır. İstefa verməyə həmişə hazıram".

Baş məşqçi sonra əlavə edir:

"Yəqinz azarkeşlər əcnəbi məşqçinin gəlməsini istəyirlər. Biz mərhələ adlasaq belə, mən "Neftçi"dən gedəcəyəm. Hər ailədə söz-söhbət ola bilər. Çox təəssüf ki, 3 ildə qazanılan nəticələr artıq azarkeşləri qane etmir. Mənz yəqin ki, "Neftçi"dən ayrılandan sonra işsiz qalmayacağam. Mənim hələ şedevr əsərim qalır. Onu yazmamış futboldan getməyəcəyəm".

Göründüyü kimi, narazılıq var. Bu istefalar və flaqmanın zəif çıxışına gəlincə, narazılığın səbəbi komandada bir böhran yaşanmasıdır. Bu böhran isə "Neftçi"nin futbolçularına bir müddətdir əmək haqları verilməməsidir.

***

Stadionu tərk edərkən öyrənirik ki, oyunçular maaşlarını ala bilmir. Klub prezidenti Sadıq Sadıqov nə səbəbə onların maaşlarını ödəmir, aydın deyil. Eyni zamanda "Neftçi"nin texniki işçiləri, komandanın meydandan kənarda zəhmətini çəkən adamları da əmək haqlarını ala bilmirlər. Belə ki, iki ayın məvacibi ödənilməyib. Klubun büdcəsi 18 milyon dollar təşkil edir.

Mənbə deyir ki, "Koper"in büdcəsi 2 milyondan o tərəfə keçmir: "Burada çirkli pulların yuyulması prosesi gedir. Xaricdən gətirilən futbolçuları ucuz qiymətə alıb, şişirdilmiş rəqəmlər yazırlar. Sonra müəyyən qismini geri alırlar".

Bundan sonra necə olacağı bilinmir. Amma bilinən budur ki, Sadıq Sadıqovun klub prezidentliyindən gedəcəyi gözləniləndir. O halda R.Abdullayevin adamının yerinə "Neftçi" rəhbərliyinə AFFA-nın vitse-prezidenti Elşad Nəsirovun kadrının gətiriləcəyi ehtimal edilir.

❑ **E.SALAMOĞLU**




# Masallıda polisi bıçaqla qovlayan şəxs həbs edildi

## Qarabağ əlilinin oğlu İlqar Eynullayevi maskalılar aparıb...

Masallıda bir neçə gün öncə polis əməkdaşını söyərək bıçaqla qovalayan şəxs saxlanılıb. cenubnews.com-un məlumatına görə, bu, rayonun Həsənli kənd sakini, I qrup Qarabağ əlili Vüqar Eynullayevin oğlu İlqar Eynullayevdir.

Ötən gün maskalılar əməliyyat keçirərək onu yaxalayıblar. Əməliyyat zamanı onun başına torba keçirilərək aparılıb. Vüqar Eynullayevin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin əməliyyatçıları tərəfindən aparıldığı güman olunur.

Polislə saxlanılan şəxs arasında insident barədə bir neçə gün öncə məlumat vermişdik. Olay rayon mərkəzindəki Heydər Əliyev parkının yaxınlığında qeydə alınıb. Şahidlərin dediyinə görə, parkın yaxınlığında "VAZ 21074" markalı, 10 LU 037 dövlət nömrə nişanlı minik avtomobili hərəkətdə olarkən qəfildən avtomobilin ön tərəfindəki "şaravoy" çıxıb və sürücü avtomobili yolun kənarına verərək saxlayıb. Bu zaman ərazidə növbə çəkən Post Patrul Xidmətinin (PPX) əməkdaşları rayon DYP-nə zəng edərək sürücünün qəza törətdiyini xəbər veriblər.

Bir neçə dəqiqə sonra Masallı Rayon Polis Şöbəsinin (RPŞ) DYP bölməsinin əməkdaşları - polis leytenantı Mirxas Təhməzov və serjant Kənan Mövsümov əraziyə gəliblər. Yol polisi sürücü ilə danışdığı zaman yoldan keçən "Prirora" markalı minik avtomobilinin qarşısını PPX əməkdaşı Vüqar Həsənov kəsib. "Prirora"da olan Masallı rayonunun Həsənli kənd sakini I qrup Qarabağ əlili Vüqar Eynullayevin oğlu İlqar Eynullayev polisi söyərək yoluna davam edib. Vəziyyətin qəlizləşdiyini, insanların onlara güldüyünü görən polis qayıdaraq xidməti avtomobilə oturub.

Çox keçmədən "Prirora" parkın qarşısında peyda olub və avtomobildən düşən həmin gənc onun yolunu kəsən PPX əməkdaşını axtarmağa başlayıb. Və gözü həmən serjanta sataşıb. Gənc oğlan polis avtomobilinə yaxınlaşaraq "Sən idinmi mənim yolumu kəsən, ay səni belə-belə olasan..." - deyə polisi söyüb. Cavabında polis serjantı əlindəki rezin dəyənəklə Vüqar Eynullayevi iki dəfə vurub. Oğlan yerə yıxılıb. Serjant yanındakı yoldaşlarına "götürün qandallayın, basın maşına" deyib. Amma polis əməkdaşları gəncin əllərini qandallaya bilməyiblər.

Vüqar Eynullayev yerdən qalxan kimi avtomobilinə doğru qaçıb və bıçaq götürüb. Daha sonra polisin üstünə hücum çəkib və əlindəki bıçaqla dəyənəkli serjantı qovalamağa başlayıb. Təqib zamanı polis serjantı əlindəki rezin dəyənəyi də tullayaraq başqa bir polis postuna sığınıb. Bir qədər keçmiş həmin polis əməkdaşı və daha bir neçə polis zabiti RPŞ-nin növbətçi hissəsinin avtomobili ilə hadisə baş verən əraziyə gələrək həmən gəncin axtarışına başlamışdılar.

❑ **NURLAN**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



YENİ MÜSAVAT
N 184 (5893) 21 iyul 2014

**“İyun ayının 17-də Nəqliyyat Departamentinin işçiləri tərəfindən şərlənərək həbs olunan Vüqar İsmayılov hazırda Gəncə təcridxanasında saxlanır. ”Kanal13"ün reportyoru olan atam 10 nəfərlik ailəyə baxırdı".**

# Vüqar İsmayılovun oğlu prezidentə müraciət etdi

## Hikmət İsmayılov: “O həbs ediləndən dolanışığımız pisləşib”

Bunları musavat.com-a müsahibəsində Tovuz rayon Qovlar qəsəbəsində yaşayan, hazırda həbsdə olan reportyor Vüqar İsmayılovun oğlu Hikmət İsmayılov deyib.

O bildirib ki, atasının günahı olmadığına, sadəcə, siyasi görüşlərinə və bir jurnalist kimi aktivliyinə görə şərləndiyinə inanır. O daha sonra qeyd edib ki, 10 nəfərlik ailənin yeganə ümid yeri həbs olunandan dolanışıqları pisləşib.

“Atam həmişə nəqliyyatın işçilərinin törətdiyi cinayətlərin üstünü açardı. Onun həbs olunmasını istəyirdilər və buna nail oldular. Vüqar İsmayılov həm də Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) üzvü idi. Bu isə tək nəqliyyatın işçilərini yox, bəlkə də çoxlarını sevindirdi. Amma düşünmədilər ki, bir ailə başsız qalıb atam həbs olunandan sonra”.




Sonda o, ölkə başçısı İlham Əliyevə ünvanladığı məktubu müxbirimizə təqdim edib. İndi həmin məktubla sizi tanış edirik.

“Çox hörmətli prezident!

Atam, İsmayılov Vüqar Akif oğlu Qarabağ müharibəsi veteranıdır. Öhdəsində 10 nəfər ailə üzvü var. Atam “Kanal13"ün əməkdaşı idi. Rayonda həm buna görə, həm də sizin Tovuza səfərlərinizin birində şəxsən sizə məktub verdiyinə görə daim təqib olunurdu.

Nəhayət, 17.06.2014-cü ildə Nəqliyyat Departamentinin əməkdaşları tərəfindən şərlənərək həbs olundu. Hal-hazırda atam Gəncə təcridxanasında saxlanır.

Sizdən xahiş edirəm ki, atamın evimizə qayıtmasına yardımçı olasınız. 10 nəfərlik ailəmiz başsız qalıb.

Əvvəlcədən minnətdarlığımı bildirirəm!"

Qeyd edək ki, Vüqar İsmayılovun Nəqliyyat Departamentinin işçilərinə soyuq silahla hücum çəkdiyi iddia olunur. Və bu əsasla onun işinə 17 iyun 2014-cü ildə Tovuz rayon Məhkəməsində baxılıb. İki ay azadlıqdan məhrum edilib.

❑ **Hikmət CARÇILI ORHUN**

# Oliqarxlarla “işləyən” şair

## “Əsas arzularımdan biri budur ki, Kəmaləddin Heydərovla görüşüm”

**Redaksiyamıza gələn şair Sədi Fətəlizadə ona 20 min manata yaxın pul qazandırmış kitabından danışdı. “Təmsillər” adlanan bu kitab haqqında bəhs edən S.Fətəlizadə ona hansı nazir, deputat, məmurların pul verdiyini bizimlə bölüşdü. Əvvəlcə özü, yaradıcılığından danışan şair bunları söylədi:**

“1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm. Bu günə qədər 4 kitabım çıxıb. 30-40 ildir yaradıcılıqla məşğulam. İlk şeirim 1969-cu ildə Şamaxıda dərc olunan ”Yeni Şirvan" qəzetində çıxıb. Əsas yaradıcılıq devizim odur ki, az yazaq, keyfiyyətli yazaq. Məni təmsilçi kimi tanıyırlar. Bu sahədə qələmim daha uğurludur. Amma buna baxmayaraq ictimai-siyasi sahədə də şeirlər yazmışam".

***- AYB-nin üzvü yenidən Anar bəy seçildi. Bu duruma münasibətiniz necədir?***

- Bəli, qurultayda iştirak etdim. Orda müxtəlif ölkələrdən xeyli qonaqlar iştirak edirdi. Hamsı çıxışlarında Anar müəllimin adını çəkirdi. Yəni biz bəzən özümüz-özümüzə dəyər vermirik. Bu heç də ədalətli deyil. Anarın özü, Ramiz Rövşən, Vaqif Bayatılı - bunlar dünya miqyaslı tanınmış şairlərdir.

Özünün “Təmsillər” kitabından ağzıdolusu bəhs edən təmsilçi-şair bu kitabın ona 20 min manat qazandırdığını deyərək, bunun necə baş verdiyini söylədi:

“Təmsillər” kitabım 2011-ci ildə çap olunub. Aşıq Şəmşir Mədəniyyət Ocağının sponsorluğu ilə nəşr edilib. Sağ olsunlar. Bu kitab çox ayağı sayalı oldu. 2011-ci ildən bu günə qədər 20 min manata yaxın pul qazanmışam.

Nazirlərdən tutmuş, məmurlara, icra başçıları, deputatlara qədər bu kitabıma pul veriblər. Yaxud adi iş adamları da hörmət ediblər. Həm sənətə, həm sənətkara dəyər veriblər. Məsələn, 50 nəfərə yaxın insan bu kitaba diri yüzlük verib. 70-ə qədər adam 50 manat verib. Eləsi var 30, eləsi var, 20 manat hədiyyə edib".

***- Bəs necə olur ki, nazirlərlə, məmurlarla görüşürsünüz?***

- Mən tədbirlərin olması ilə bağlı elanları daim izləyirəm. Sonra o tədbirlərdə iştirak edirəm. Çıxışlar edirəm, məmurlarla, deputatlarla görüşüb, kitabımı təqdim edirəm. Bilirəm ki, vətənimizin imkanlı oğlanlarıdır, kitabımı onlara verirəm. Onlar da dəyər verirlər. Hamısına təşəkkürümü bildirirəm. Qarşılarında baş əyirəm.

***- Maraqlıdır, hansı nazirlərimiz sizə kitabınıza görə pul ödəyib?***

- Məsələn Sərhəd Xidmətinin rəisi var, Elçin Quliyev. Sağ olsun, kitaba 600 dollar verib. Az puldur, bəyəm?! Allah canını sağ eləsin. “Azəryolservis”-in şefi Cavid Qurbanov kitaba 500 manat verib. Nəqliyyat naziri Ziya Məmmədov kitabıma 1000 dollar pul verib.

***- Ziya Məmmədovla görüşünüz necə baş verdi?***

- Deyim də. Expo Mərkəzdə nəqliyyat sektoruna dair sərgi keçirilirdi. Mən də irəlidən bu elanı bilirdim. Getdim, iştirak etdim. Sərgiyə baxdım, nazir də orda idi. Sərginin yekununda nazirə yaxınlaşdım.



Sədi Fətəlizadə

Sərgidə iştirak etdiyimi dedim. Sonra da dedim, bu təzə kitabımdır. Birini sizin adınıza gətirmişəm. O da gülə-gülə kitabı götürüb, təbrikini söylədi, dedi, kitabını oxuyacam. Amma dedi ki, şair, səninlə əlaqə saxlayacağıq. Sonra oturdum orda çay içməyə, gördüm telefonuma zəng gəlir. Ziya müəllimin köməkçisi idi, dedi, naziriyə gələ bilərsinizmi. Getdim, zərfdə 1000 dollar verdilər.

***- Deməli, onlar sizə birbaşa deyil, dolayısı ilə pul ödəyiblər?***

- Yox, baxır vəziyyətə. Məsələn, Cavid Qurbanov pulu birbaşa özü verib. Kitabımın arasına pul qoyub.

***- Siz özünüzü onlardan bu şəkildə yaxınlaşıb pul alanda necə hiss edirsiniz? Bu addımınızı, heç şübhəsiz, mənfi qarşılayanlar da var axı.***

- İndi düz deyrisiniz. Amma bir şey var ki, mən kitabımı öz millətimin oğullarına təqdim edirəm. Burda başqa məna yoxdur. Məsələn, o qədər olub, mən kitabı vermişəm, adicə “sağ ol” deyib, götürüblər.

***- Məsələn, kimlər götürüb, pul verməyiblər?***

- Fazil Məmmədov, Aydın Əliyev, Ziyafət Əsgərov kitabı götürüb eləcə “sağ ol” deyiblər. Elmar Məmmədyarov, ekologiya naziri kitabı götürüb gediblər. Deməyiblər ki, day üstümdə pul yoxdur, ya xırdam yoxdur. Onların da işini Allah avand eləsin. Söz yox, nə vaxtsa onlarla da qarşılaşacam mən. Güman edirəm yenə növbəti dəfə onlar kitaba qiymət verəcəklər (gülür). Sonra bir iş adamı var. Fərhad Əhmədov. Bir tədbirdə çıxardıb şəxsən özü 200 dollar verdi. Güləş Federasiyasının vitse-prezidenti Natiq Əliyev 200 dollar verib. Dünya şöhrətli rəssamımız Tahir Salahov bir yüzlük çıxardıb verib. Məsələn, Fəttah Heydarov, sağ olsun, bir dəfə 20 manat verib. Amma onun oğlu pulludur da. Kəmaləddin Heydərovu hələ görməmişəm. Əsas arzularımdan biri budur ki, Kəmaləddin Heydərovla görüşüm. İmkan düşsə, bir arzum da odur ki, prezidentimiz İlham Əliyevə kitabımı verim. Eşitdiyimə görə, prezidentimiz o işlərdə səxavətlidir. Onun etdiyi hörmətin ən aşağısı da 10 min manatdır.

Yekunda öz yaradıcılığından bir neçə nümunə də söyləyən şair həyatının mənasının şeir olduğunu dedi:

***

### Hərb və sülh

*Gedir neçə ildir sülh danışığı,*
*Nə vaxt qurtaracaq kimsə bilməyir.*
*Yoxdur nəticəsi bu görüşlərin,*
*Erməni daşnaklar yola gəlməyir.*

***

### Əlli-ayaqlı getdi

*Yağlı toyuqlar yeyib*
*Tülkü lələ kef etdi.*
*Dovşan bir kələm üstə*
*Əlli-ayaqlı getdi.*

***

### Xoruzun günahı

*Yığıncaqda xoruzun*
*Suyunu çıxartdılar.*
*Çoxarvadlısan deyib,*
*Vəzifədən atdılar.*

❑ **Fəridə ABDIYEVA**

# Rəzil ola bilməzsən...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Azərbaycanda qızıl qayda budur. Dünənin pisi, iqtidarın bir nömrəli “şillə vuran”ı, aftafa daşıyanı sabah ya zəlzələdən, ya vəlvələdən çıxdaş edilirsə, dayandığı sıralardan qovulursa, hətta və hətta həbs olunursa, çevrilir xalq qəhrəmanına. Xalqımızın balıq yaddaşlı üzvləri dərhal unudurlar onun etdiklərini, dediklərini, şər maşınının “motor”una zamanında necə həvəslə qulluq etdiyini, dəyirmana su daşıdığını. Söz konusu olan adamlar da təbii olaraq girirlər havalara. Başlayırlar ağıl verməyə, yol göstərməyə, strateji çıxışlar etməyə.**

Bu sadaladıqlarımızı daha çox qapıdan təpiklə qovulan, geri dönməmək üzrə yollananlar edir. Yəni məlum olur ki, qovulduğu üçün bir daha o “yağlı qapı”nı döyə bilməyəcək. Ona görə də başlayır bu biri tərəfdə özünə isti yer axtarmağa. Müsahibələr, “mən orda islahat etmək istəyirdim, qoymadılar”, “filankəslər belə qanunsuzluq edirdi” tipli müsahibələrə. Təcrübə isə göstərir ki, yönünü bir dəfə dəyişmiş adamın dediklərindən səmimiyyət gözləmək olmaz. Eyni şeyi bir neçə il sonra indi bulunduğu cəbhə haqda deməyəcəyi nə məlum?

Bir də var bulunduğu cəbhədən qovulmuş, amma hələ də qapının ağzında dayanıb, nə zamansa ordan üzünə işıq süzüləcəyinə, içəri salınıb, qabağına bir boşqab qoyulacağına ümid edənlər. Bax onların danışığı, sözü lap dəhşətli olur. Onlar şanlı iqtidar nümayəndələrindən daha betər iqtidar müdafiəçi olurlar. Axı imtahan mərhələsindədilər. Testdən keçməklə deyil ki. Qarşıda qabiliyyət imtahanı da var.

Barmağı qapı arasında qalanda jurnalistlərdən imdad diləyən, keçmiş dostlarından gördüyü etibarsızlıqdan gileylənən adam bir də görürsən şirə-aslana çevrilib. Bəzi naşıların, siyasətdən bixəbərlərin “yaman güclü adam imiş, gördünüz o tərəfə qovulsa da, özünü necə apardı” sözlərindən havalanır. Unudur ki, vaxtilə yanında dayandıqlarını ifşa etməməsi mərdliyindən yox, həm də qorxusundan, əlindəkiləri itirmək qorxusundan qaynaqlanır. Başqa yolu olmadığı üçün susmuşdu, bütün qapılar bağlandığı üçün məzlum dayanmışdı. Məzlumluq isə məğrurluq deyil, hər iki söz arasındakı deyiliş və yazılışdakı oxşarlığa aldanmayın.

Məlumdur ki, hardasa üzünə gülüblər, yaşıl da olmasa, bir sarı işıq yandırıblar. Bu da sarının yaşıla çevrilməsi üçün öz simasını göstərməlidir. Başlayır kimlərəsə həyat dərsi keçməyə, dini kitablardan sitat gətirməyə, elmi çıxış etməyə. Sənə öz sənətinin incəliklərini öyrədir hətta. Jurnalist yaza, redaktor qəzet çıxara, dərzi paltar tikə bilmirmiş bu ölkədə. Bir bu bilirmiş işini, bunu da qoymayıb mərdimazarlar. Mərdimazarlar da jurnalistlər imiş, onlar bunun həyatını qaraldıb, onlar hər şeyi yanlış çatdırıb uca xalqa. Azərbaycanda jurnalistlərin o böyük gücə sahib olmadığını bilmək üçün Marsdan gəlməyə ehtiyac yoxdu. Belə bir gücə malik olan qrup onu döyənləri, həmkarını öldürənləri tapıb cəzalandırar, özünə gün ağlayar, “görəsən növbəti il paylanacaq binadan mənə ev düşəcəkmi” əndişəsi ilə bütün həmkarları ilə qanlı bıçaq olmaz. Kəsəsi, o gücü yoxdur, olsa özünə gün ağlayar, iddia edildiyi kimi, başqasını ağlar günə qoymaz.

Mahiyyətinə bələd olmasan, hər şey gözünün qabağında baş vermək istəyərsən gedib ətəyində namaz qılasan. Bir neçə ay öncəyə qədər necə cəzalandırıldığını, elə indi yanına sığınmaq istədikləri tərəfindən ən aşağı şəkildə təhqir olunduğunu yadından çıxarır. Deyir, həyat sınağından üzüağ çıxdım, filankəsləri bağışladım, bəhmənkəslər peşman oldular. Ümid sonuncu ölür, anlayırıq. Ötən günlərimi qaytaraydılar... mahnısının melodiyası da qulağa xoş gəlir, tamam. Amma məqsədə doğru getdiyiniz yolda komik olmamağa çalışın, çünki bunların hamısı tarixdə qalır və unudulmur...

Son illərin aksiomasıdır: Azərbaycanda hər şey olmaq mümkündür, amma rəzil olmaq yox. Bütün bu mənzərə də ona görədir. Çoxları bu aksiomanı əzbərləyib...

P.S. Yazının kimə və ya kimlərə həsr olunduğunu xüsusi qabartmağa ehtiyac yoxdur. Sətirlərin arasından onların siması görünür zatən.

YENİ MÜSAVAT
Son səhifə
N 184 (5893) 21 iyul 2014



# Əri siqaretdən öldü, 23 milyard dollar qazandı

Amerikada siqaret istehsalının miqyasına görə ikinci sırada dayanan tütün kampaniyası "R.J. Reynolds Tobacco" ölən siqaret aludəçisinin həyat yoldaşına 23 milyard dollar kompensasiya ödəyəcək. Bu barədə qərar 20 iyul tarixində Florida məhkəməsində verilib. Sintiya Robinson adlı qadın 36 yaşında ağciyər xərçəngindən dünyasını dəyişən Maykl Consonun həyat yoldaşıdır. O, sözügedən şirkətə qarşı 2008-ci ildə iddia ərizəsi ilə çıxış edib. Pensakola şəhər sakini iddia edirdi ki, avtobus sürücüsü olan həyat yoldaşı 20 ildir ki, siqareti ata, bu zərərli vərdişdən qurtula bilmirdi. Qadının vəkilləri isə iddia edirdi ki, sözügedən tütün kampaniyası siqaretin üstündə onun zərərləri barədə kifayət qədər dolğun məlumat verməyiblər. 4 həftə davam edən məhkəmənin nəticəsində S.Robinson 23 milyard dollar məbləğində kompensasiya qazanıb. Kampaniyanın vitse prezidenti Cefri Reborn isə deyib ki, bu məbləğ kifayət qədər böyükdür və ştatın qanunlarına uyğun deyil. Onlar məhkəmənin qərarından şikayət verməyi planlaşdırır.

Xatırladaq ki, bu, Florida ştatı tarixində ilk belə hadisə deyil. 2008-ci ildə də ağciyər xərçəngindən dünyasını dəyişmiş bir şəxsin həyat yoldaşına Philip Morris şirkəti 8 milyon dollar kompensasiya ödəmişdi.

# İt serfinqinin qalibi 2500 dollar qazandı

Kaliforniyada yerləşən İmperial Beach çimərliyində it serfinqi ilə bağlı ənənəvi turnir keçirilib. 50 itin iştirak etdiyi turniri Hanzo ləqəbli it qazanıb. Yarışlar müxtəlif ölçülü itlər arasında müxtəlif mərhələlərdə baş tutub. Rikoşet ləqəbli it yarışı qazanmaqla həm sertifikat, həm də 2500 dollar məbləğində pul mükafatı əldə edib. İt sahibləri isə daha öncədən öz yarışçılarını Surf Dog Competition yarışına ciddi hazırlayıblar. Onları məşq etdirməklə yanaşı, çıxış üçün xüsusi kostyumlar tikdiriblər.



# Ofisdə davalar əsasən kondisionerə görə baş verir

Ofis işçilərinin kondisioneri özlərinə düşmən hesab etdikləri aydınlaşıb. Lenta.ru saytı xəbər verir ki, bu barədə "HeadHunter" adlı kampaniyanın apardığı araşdırmalar nəticəsində məlum olub. Ekspertlər bildirir ki, yayın istisində ofis işçiləri arasında aqressiv münasibətlərin kökündə çox vaxt kondisioner pultu üstündə dava dayanır. Rəyi soruşulan 1600 ofis işçisindən hər 10 nəfər bildirib ki, onlar işlədikləri məkanda bu alətin olmasını istəmirlər. Respondentlərin 7 faizi şikayətlənib ki, onlar ofisdəki süni sərinlik ucbatından tez-tez xəstələnirlər. Çox az işçi otaqdakı soyuq havaya görə narazılığını gizlədir. Onlar soyuq havadan qorunmaq üçün çiyinlərinə jaket atır və ya isti çay içirlər. İşçilərin 62 faizi isə kondisionerin söndürülməsində israr edirlər. 28 faiz isə hətta bu səbəbdən öz həmkarları ilə münaqişəyə girib. Ofisdəki hava temperaturu işgüzarlıq əmsalına da təsir edir. İşçilər etiraf edir ki, həddən artıq soyuq və ya isti hava şəraiti onların işgüzarlıq faizini aşağı salır.



# Bu yeməkləri yemək qadağandır

Hər ölkənin fərqli mətbəxi var. Bəzi klassik yeməklərlə yanaşı, spesifik sayılan kulinariya nümunələri var ki, onlar qadağan edilib. "Dadlı olan bir çox şey faydasızdır" qaydasına uyğun olaraq aparılan araşdırma nəticəsində 17 yeməyin qadağan olunan yeməklər sırasına girdiyi məlum olub. Onların bir neçəsini sadalayaq. Məsələn, fransızların sevdiyi qaz ciyəri. Ördək və qaz ciyərindən hazırlanan bu yeməyin qadağan olunmasının səbəbi isə ilgincdir. Quşlar çox yeyib kökəlsin deyə, boğazlarına metal boru taxılır. Ciyəri 10 qat daha yekəldikdən sonra çıxarılır və dadlı olması üçün süd, bal içində saxlanır. Heyvanlara bu cür əziyyət verildiyi üçün Amerika və digər yerlərdə onların yeyilməsi qadağan olunub.

İdman içkiləri və limon aromatlı içkilər. Brominatlı tərəvəz yağı istiliyi gecikdirən sintetik maddədir. Meksikada limon aromatlı və idman içkilərinin tərkibində bu maddə var. Avropa və 100-dən artıq ölkədə şizofreniyaya səbəb olduğundan, immuniteti zəiflətdiyindən qadağan edilib. Uşaqların sevimlisi olan bu kinderlər ABŞ-da tərkibində yeyilməz maddə olduğuna görə qadağan edib. İsveçlilərin sevdiyi içalat pörtləməsi də yasaq yeməklər sırasındadır.




QOÇ - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər əksər bürclərlə müqayisədə yalnız sizin qazanmaq ehtimalınız olduğunu təyin edib. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

BUĞA - Planetlərin yerdəyişməsi yaxınlaşdığından hər hansı mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz zərərinizə olar. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

ƏKİZLƏR - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

XƏRÇƏNG - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə növbəti bir həftə ərzində buna nail olmayacaqsınız.

ŞİR - Kifayət qədər məhsuldar bir gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də başlaya bilər.

QIZ - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

TƏRƏZİ - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

ƏQRƏB - İxtiyarınızda olan bu süst gündə həmkarlarınızla münasibətdə təmkinli olun. Bunu bacarsanız, sonrakı müddətdə problemlə rastlaşmayacaqsınız. Mühüm sirlərinizi hər kəsə deməyin.

OXATAN - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

OĞLAQ - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da sevgi məsələlərində sevindirici anlarınız olacaq. Amma uzaq səfərə çıxmaq fikrindən daşının.

SUTÖKƏN - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən günlərdə yol verdiyiniz hansısa səhvi düzəltmək imkanı da qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

BALIQLAR - Olduqca riskli gündür. Bu səbəbdən istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Təcrübəli adamlardan yararlanın. Yerli-yersiz özünüzü tərifləməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınlar yaddaşını daha tez itirirlər

İngiltərənin Hertfordshire Universitetinin apardığı araşdırmaya görə, yaddaşsızlıq kişilərə nisbətən qadınlarda daha sürətlə irəliləyir. Mütəxəssislər 828 kişi ilə 1.238 qadını əhatə edən 15 ayrı araşdırmanı qarşılaşdırıb. Normal durumda hafizə və şifahi ifadə testlərində kişilərdən daha yaxşı nəticə göstərən qadınlar yaddaşsızlıq məsələsində güclü cinsdən geri qalır. Araşdırmanın nəticəsinə görə, qadınların beyni kişilərinkinə nisbətən çox zəifdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 10.565

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.